NİŞANLI QIZ

5 pərdə, 6 şəkildə

İŞTİRAK EDƏNLƏR

Bənövşə – tikinti idarəsinin rəisi, mühəndis Camalın nişanlısı
Ceyran xala – onun anası
Camal – mühəndis, tikinti idarəsinin sabiq rəisi və baş mühəndisi
Mirzə Salman – mühasib
Zərifə – onun qızı, katibə
Yusif – tikinti idarəsinin baş mühəndisi
Qəmər – həkim
Mindilli – təchizat şöbəsinin müdiri
Qasım – prorab
Aslan
Gülsüm
Çeşməkli kişi
Sənət məktəbini qurtarmış gənclər, işçilər və qonaqlar.

BİRİNCİ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Hələ tikilməkdə olan evin birinci mərtəbəsi. Burada müvəqqəti olaraq tikinti idarəsi yerləşmişdir. Böyük səliqəsizlik hiss olunur. Zərifə əlində teleqram qaçaraq gəlir.

Zərifə. Yoldaş Camal! Yoldaş Camal!

Mindilli tələsik səhnəyə çıxır.

Mindilli. Nə var, Zərifə, dayan, iki kəlmə sözüm var.

Zərifə. Başım qarışıqdır, görmürsən ki, adam axtarıram?

Mindilli. Dayan, ay qız, icazə ver, o şirmayı barmaqlara bu titrək dodaqlarımı toxundurum.

Zərifə. Vaxtım yoxdur, yoldaş Camala teleqram var, deyəsən nişanlısı gəlir.

Mindilli (*teleqramı onun əlindən alıb oxuyur*). Bəli, deməli, Bənövşə xanım gəlir?

Zərifə. Nə var? Nə ibarə ilə deyirsən: "Bənövşə xanım gəlir".

Mindilli. Başqa bir qadının adını çəkəndə dünya qopar?

Zərifə. Başındakı olan-qalan tükü də mən didib tökərəm ha, az danış.

Mindilli. Bu sözdən sonra lap başını kəsib bir tərəfə qoysan da etiraz eləmərəm. Qısqanclıq sevginin ən birinci əlamətidir.

Zərifə. Bəs səndə niyə o əlamətdən yoxdur?

Mindilli. Necə yoxdur? Bütün günü kölgə kimi dalınca gəzirəm. (*Qasım içəri girir. Mindilli onu görüb sözü dəyişir*) Odur, yoldaş Camal oradadır, həyətdədir. Teleqramı tez çatdır.

Zərifə (*qapının yanında pıçıltı ilə*). Sonra görüşərik, sənə sözüm var.

Çıxır.

Qasım. Buxalterin qızını əlində möhkəm saxlayırsan.

Mindilli. Yaxınlarda toyumuzdur. Ancaq bu yoxlama məsələsi qanımı qaraltdı, heç yerdir? (*gənc ustalar*)

Qasım. Hə, bir az dilxorçuluqdur.

Mindilli. Nə oldu, axır ki, üzülüşüb getdi?

Qasım. Təftişini elədi, aktını bağladı. Getməyib neyləyəcək ki?

Mindilli. O balacaboy göygöz mənə çəpəki baxıb nə soruşurdu?

Qasım. Səninlə maraqlanırdı.

Mindilli. Mənimlə?

Qasım. Hə, elə başa düşmüşdü ki, sənin iki familiyan var, mən dedim onun əsl familiyası Mindilovdur. Qəhrəman Mindilov. Burada zarafatla Mindilli deyirlər.

Mindilli. Min kərə demişəm ki, zarafat kapitalizm qalığıdır, ondan əl çəkin, başa düşmürlər ki... Sonra nə deyirdi?

Qasım. Bir də deyirdi ki, sənin üstündə çoxlu borc var.

Mindilli. Hə, o barədə mənimlə də danışdı. Rəng yaxmaq istəyirdi, dirədim divara, dedim dayan, kontrolyorsan, ya rəngsaz?

Qasım. Höcət olma, borcun var, qaytar.

Mindilli. Borc hanı? Dağ boyda səpot tökmüşəm buxalterin qabağına... Qəbul eləsin də, niyə yubadır? Qoy bir toyu eləyim. Onda danışacağam. O məni incidir, mən də qızını incidərəm.

Qasım. O qədər də yüngül yanaşma.

Mindilli. Yüngül niyə? Lap Camal yoldaşın özü ilə danışmaq istəyirəm.

Qasım. Danış. Camal qızıl kimi oğlandır.

M i n d i l l i. Başı açılır ki? İndi daha heç vaxtı olmayacaq. Nişanlısı gəlir.

Q a s ı m. Nişanlısı gəlir?

M i n d i l l i. Gəlir də... İşin belə vaxtında yaxşı olmadı, başı qarışacaq eşqə, məhəbbətə, dost-aşnanı yaddan çıxardacaq.

Q a s ı m. Qorxma, Camal məhəbbət dəryasıdır, sevgisi hamımıza çatar.

Z ə r i f ə içəri girir.

Z ə r i f ə (*Mindilliyə*). Tez ol, səni çağırır.

M i n d i l l i (*həyəcanla*). Məni çağırır? Bu saat...

Mindilli çıxır. Qasım da onun arxasınca çıxanda Zərifə baxıb gülümsünür.

Z ə r i f ə (*Qasımın dalınca baxır*). Ala ey, bu da özünü kişilər cərgəsinə qoyur.

M i r z ə S a l m a n öz-özünə danışa-danışa içəri girir.

M i r z ə S a l m a n. Yatırlar, yatırlar, sonra başlayırlar çığır-bağır salmağa. Axırda çanaq mənim başımda sınır. Zərifə, buradasan?

Z ə r i f ə. Nə var, nə olub, ata?

M i r z ə S a l m a n. Nə olacaq, kvartalın əvvəlində yatırlar, axırında ayılıb başlayırlar çığır-bağır salmağa, buna ürək davam eləyər? Sən haradasan? Sərçə kimi bir dəqiqə bir yerdə qərar tutmursan. Səhərdən dərmanımı içməmişəm. Gətir görək.

Z ə r i f ə. Bu harayda dərmanı neyləyirsən, ay ata?

M i r z ə S a l m a n. Dərmanı harayda içməyib, bəs nə vaxt içərlər?

Z ə r i f ə. Hansından verim? Damcı dərmanı, ya qaşıq?

M i r z ə S a l m a n. Qaşıq dərmanından ver. Damcı-damcı içməkdən ürəyim üzülür. (*İçir*) Zəhrimar elə acıdır ki... Bəs həblər hanı?

Z ə r i f ə. Orada, stolumun gözündədir. Təzə xəbəri eşitmisən, ata?

M i r z ə S a l m a n. Nə xəbər? Yəqin yenə deyəcəksən ki, hansı yoldaşınsa özünə təzə paltar tikdirib.

Z ə r i f ə. Yox. Camalın nişanlısından teleqram var, bu gün gəlir, onu deyirəm.

M i r z ə S a l m a n. Hə, o qızı mən tanıyıram. Usta Qurbanın qızıdır. Çox ağıllı, bacarıqlı qızdır. Bəlkə bunun əl-ayağını o yığa. Plan dolmur, iş yerimir, pul xərclənmir...

Z ə r i f ə. Pul xərclənmir, daha yaxşı. Başın dinc olar.

M i r z ə S a l m a n. Yox, qızım, sənin maliyyə işlərində heç bir səriştən yoxdur. Smeta gərək bank vasitəsilə yerinə yetsin. Amma bizim idarədə tərsinədir. Təchizat şöbəsinin üstündə nə qədər borc var.

Z ə r i f ə. Mindilovun?

M i r z ə S a l m a n. Mənim yanımda onun adını çəkmə. Adını eşidəndə ürəyim sancır.

Z ə r i f ə. Ata, istəyirsən gedim həbləri gətirim?

M i r z ə S a l m a n. Yox, həblərdənsə, Camalı tapmaqda mənə kömək elə. Yoxsa bank bağlanar, bu gün də üçüncü obyektin işi qalar.

Çıxırlar. C a m a l gəlir. M i n d i l l i onu kölgə kimi təqib edir. Camalın əlində teleqram var.

C a m a l (*teleqramı bir də oxuyur*). Deməli saat 3-də, 5-ci vaqon. (*Gülümsünür, teleqramı öpür*) Qız bu saat yol gəlir. (*Mindilliyə*) Taxtaları daşıtdırdın?

M i n d i l l i. Bircə vaqonumuz qalıb.

C a m a l. Sənə bir töhmət də verərdim, heyf ki, başım qarışıqdır. Mən indi qızın qabağına necə gedim? O saat stansiya naçalniki yapışacaq boğazımdan. Bir aydır vaqonları boşaltmırıq.

M i n d i l l i. Bu səhvimi iki, ya üç günə düzəldərəm. Bu gün sizin üçün yaxşı mebel sifariş elədim.

C a m a l. Dayan görək, mebel vaxtı deyil. Bu Yusif hanı? (*Telefonun dəstəyini götürür*). Kommutator, tez Yusifi tapıb göndər. Ay qız sənin-lə deyiləm? Pah atonnan. Keydir ki... Yusifi deyirəm ey, tez tap mənim yanıma çağır.

O biri telefon zəng vurur, Mindilli götürür.

M i n d i l l i. Bəli, bu saat... (*Camala*) Telefona çağırırlar, yoldaş Camal!

C a m a l (*dəstəyi alır*). Kimdir? Hə, özüdür ki, var. Camal sağ-salamat hüzurunda kəmərbəstə. Sən öl, gələ bilməyəcəyəm, yox-yox Mindilli də, Qasım da gələ bilməz, kvartalın axırıdır, plan doldururuq. Gəl gör nə həngamə çıxartmışam. Üç gündür kabinetdə yatıram. Bir yandan da bu gün nişanlım gəlir, hə, bəs, necə? Toyu bu günlərdə eləyirəm, daha məndə gözləməli ürək qalmayıb... Öpürəm bütün kampaniyanı. (*Telefon dəstəyini asıb, teleqramı cibindən çıxardır*) Bir saatdan sonra qatar gəlir, sən maşını saz saxla.

M i n d i l l i. Maşın sazdır. Dəllək gözləyir.

C a m a l. Bu gün qəbul günüm deyil, sabah gəlsin.

M i n d i l l i. Qulluq işi üçün gəlməyib, özünüz demişdiniz ki, çağırım.

C a m a l. Hə, dəlləyi deyirsən? Düzdür, ot qalxıb, biçdirmək lazımdır. (*Əlini üzünə sürtür*) Həyətyanı təsərrüfatım yaman haldadır, Mindilli!

M i n d i l l i. Siz də mənə Mindilli deyirsiniz, yoldaş Camal?

C a m a l. Nə olar deyəndə? Adam dost zarafatından inciməz. (*Saatına baxır*) Hanı sənin dəlləyin?

M i n d i l l i. Ülgücünü itiləyib hazır dayanıb.

C a m a l. Yəqin kostyumumu da gedib gətirməmisən.

M i n d i l l i. Kostyum da, ayaqqabılar da hazırdır. Vaxtım olmur ki, sizə deyim.

C a m a l. Doğrudan da, vaxt yoxdur... (*Pul çıxarır*) Ala, onlarla özün hesablaş.

Yan otağa keçmək istədikdə Z ə r i f ə və M i r z ə S a l m a n içəri girirlər.

Z ə r i f ə. Burada imiş ki.

M i r z ə S a l m a n. Yoldaş Camal, bir ayaq saxla.

C a m a l. Mirzə, məni pis yerdə tutmusan, vağzala tələsirəm.

M i r z ə S a l m a n. Burada bir neçə kağız var, vağzaldan da vacibdir. Səni neçə gündür ki, tuta bilmirəm.

Zərifə çıxır.

C a m a l. Di tez ol, Mirzə! (*Papiros çıxarır, Mindilli o saat kibrit yandırır*) Mən bu kağızlara baxınca, sən də tez ol, danış görək, müfəttiş aktda nə yazdı, oxuya bilmədim, dedim sonra gətirsin.

M i r z ə S a l m a n. Bu saat deyim?

C a m a l. Mühümlərini.

M i n d i l l i. Əlbəttə, əlbəttə.

M i r z ə S a l m a n (*Mindilliyə*). Sən qarışmasan yaxşıdır. (*Camala müraciətlə*) Yazdı ki, plan müntəzəm olaraq aydan-aya doldurulmur. İş düzgün təşkil olunmayıb.

C a m a l. Bu heç... Sonra.

M i r z ə S a l m a n. Yazdı ki, texniki alətlərə çoxlu pul sərf edilib, ancaq istifadə olunmur.

C a m a l. Bu da heç... Sonra.

M i r z ə S a l m a n. Sonra yazdı ki... (*Dayanır*)

C a m a l. Nə oldu, yadından çıxdı?

M i r z ə S a l m a n. Yox... bu saat... (*Mindilliyə işarə edir*)

C a m a l. Hə, başa düşdüm. Mindilli, gör Yusif haradadır? Tap bura çağır.

M i n d i l l i. Bu saat telefonla xəbər verim.

C a m a l. Get, özün çağır. Kütlə ilə canlı əlaqə yaratmaq lazımdır.

M i n d i l l i. Canlı əlaqə? Bu dəqiqə yaradaram. (*Çıxır*)

C a m a l. Hə, de görək, Mirzə.

M i r z ə S a l m a n. Bir də ki, bunun, təchizat şöbəsinin haqq-hesabını xüsusi qeyd elədi. Sçotların çoxuna şübhə ilə baxır.

C a m a l. Səhv eləyir. Əsassız şübhədir. Mən olan yerdə heç kəs qorxusundan bir çöpə əl vurmaz. Bu da heç... Ayrı bir şey yoxdur ki?

M i r z ə S a l m a n. Azdır?

C a m a l. Mirzə, cibimə ki, bir qəpik qoymamışam, vəssalam. Ev istəmirsən? Buyur, ikisini tikib vermişəm. Biri yaşayış evi, biri də xəstəxana.

M i r z ə S a l m a n. Amma hər birisinə yarım milyondan artıq izafi xərcimiz çıxıb.

C a m a l. Bah, yarım milyon... Bu boyda tikinti işində yarım milyon nədir? Götür bu kağızları, Mirzə. Ayın axırına yüz faiz planı, bax, bu ovcunda hazır gör. Bəs, Yusif nə oldu? Ay Mirzə, bütün bu akt-makt hamısı Yusifin kələkləridir. (*Telefonu götürür*) Kommutator, kommutator, birinci obyekti ver. (*Yusif və Mindilli içəri girirlər*) Dayan, dayan, vermə, özü gəldi. (*Dəstəyi asır*) Yusif, vəziyyət nə haldadır?

Y u s i f. Vəziyyət çox halsızdır.

C a m a l. Sən nə danışırsan? Necə yəni halsızdır? Ətraflı danış, teleqram vurmusan ki? (*Əlini cibinə atır, papiros olmadığını görüb əsəbiləşir*) Mindilli, adam göndər oradan mənə bir "Kazbek" alsın.

M i n d i l l i. Bu saat təşkil edərəm. (*Çıxır*)

Y u s i f. Vəziyyət çox pisdir, Camal. Tikinti işlərində geri qalırıq. Texnikaya heç kəs fikir vermir. Neçə vaxtdır ki, mən kran deyib dad çəkirəm, onu gətirən yoxdur.

M i r z ə S a l m a n. Pulunu da çoxdan vermişəm.

C a m a l. Ay Mirzə, qoy bir sözümüzü danışaq. Hər söhbətin axırını pula bağlama.

Mirzə Salman. Sən baş mühəndissən, özün də bu saat rəisi əvəz eləyirsən, pulların hara sərf olunduğunu bilməlisən. Budur, kranın ölüsünü stansiyada uzadıblar. Bir aydır basdıran yoxdur.

Yusif. Necə ölüsünü? Xarabdır?

Mirzə Salman. Tutaq ki, lap sazdır nə xeyri?

Yusif. Onu bu saat gətirmək lazımdır.

Mirzə Salman. Əlbəttə.

Camal. Saxla... Bu saat onun vaxtı deyil. Qoyun işimizi görək.

Yusif. Bəs onun vaxtı haçandır? Nə vaxt deyiriksə, rədd eləyirsən.

Camal. Yusif, rəsmiyyətə keçmə... Bu saat get, camaatı tök planı doldursunlar. Mədəniyyətlə arxayın vaxtda məşğul olarıq.

Mindilli papiros gətirir.

Mindilli. Leninqrad "Kazbek"idir. Sizin üçün xüsusi saxlatdırmışam.

Yusif. Camal, axı sən bir bu təchizat şöbəsindən soruş ki, niyə bir aydır o kranı stansiyadan gətirib çıxarmır?

Mindilli. Mən yazıq əlimə pul ala bilirəm ki, onları daşıyıb gətirim? Mirzə Salman pul verir ki?

Mirzə Salman. Nə?.. Pul?.. Verməyəcəyəm.

Mindilli. Verəcəksən, mən neyləyim ki, dağ boyda sçot tökmüşəm qabağına, hələ baxmamısan.

Mirzə Salman. Baxmayacağam da... Hələ bundan qabaqkı hesabına rəis qol çəkməyib.

Mindilli. Tikinti işlərinin belə qızğın vaxtında yoldaş Camala zəhmət vermək olmaz. Şifahi əmri var, qurtardı.

Mirzə Salman. Kimin əmri olursa-olsun, verməyəcəyəm.

Camal. Mirzə Salman, necə yəni kimin əmri olursa-olsun, verməyəcəyəm? Şəxsiyyətə keçmə... İndi, işimizin bu cür vaxtında, belə söhbətlərin yeri deyil.

Yusif. Yeridir. İndi danışmayıb, bəs nə vaxt danışacayıq. Niyə ikinci obyektdə neçə vaxtdır kranı qaldırıb qura bilmirlər? Qasımın işi bütün günü əli cibində gəzməkdir.

Mirzə Salman. O qədər pulu ki, o alır, əlbəttə, gərək həmişə əli cibində olsun.

Camal. Mirzə, mən səni bir salamat adam bilirdim, səndə də bir az varmış ha. Biz proraba artıq pul vermişik?

Mirzə Salman. Vermişik, əlbəttə, vermişik... Dülgər sexində maşın qurmaq üçün xüsusi müqavilə ilə pul alıb. Hanı, müqaviləni yerinə yetirib?

Camal. Yox, əşi, dülgər sexini mexanikləşdirmək üçün biz ona xüsusi pul vermişik? Heç yadımda deyil. Başım o qədər qarışıb ki, dünən yediyim bu gün yadımdan çıxır. Yaxşı, mən onu məcbur edərəm, tezliklə müqaviləni yerinə yetirər. Ancaq indi qanıqaralıq eləməyin. Bu saat gərək hamı əllərini işə salsın.

Mindilli. Danışıqdan işə keçmək lazımdır.

Camal. Ay sağ ol, Mindilli! Sənin kimi beş işçim olsa, gündə bir ev tikərəm.

Yusif. Sən bircə dəqiqəliyə bu hay-küyü burax, bir də görək, əgər evi vaxtında qurtarmaq istəyirsənsə, nə üçün bu təzə maşınları işə salmırsan?

Camal. Hə, orada saxla, düş atdan. Bu saat səni başa salım, nə üçün kranı qurmağa qoymuram? Tutaq ki, kranı qurdun... Daşı da gərək maşınla doğrayasan, ya yox?

Yusif. Daha yaxşı, iki ildir ki, daşyonan maşın yağış altında xarab olur.

Camal. Üstünü örtdürmüşəm. Yaxşı, daşyonan maşın oldu, bəs betonqarışdırana nə deyirsən?

Mindilli. Deyəsən, onun bir neçə hissəsini mərkəzdən yanlış göndəriblər. Pul olsaydı, mən gedib götürüb gələrdim.

Mirzə Salman. Əstəğfürullah, yenə pul... o maşın varımızdır, hissələri də yerində...

Camal. Bəs malavuran maşın hanı? Onsuz ki, olmaz. Mexanikləşdirmək fikirlə olmalıdır, kompleksli olmalıdır. Biri çatmadı, öldü.

Mirzə Salman. O da var. Pulunu da bizdən məhkəmə vasitəsilə aldılar, yadınızdan çıxıb?

Camal. Hə... Bəs mənə niyə deməmisən, Mirzə?

Mirzə Salman. Nə vaxt deyim? Onca dəqiqə buxalterlə oturub dübədü söhbət eləyirsiz? Sizə qolu harada çəkdirirəm, evin beşinci mərtəbəsində, anbarda, su köşkünün qabağında, nə bilim, restoranda...

Yusif. Gördün ki... hamısı var, ancaq qurmaq istəmirsən. Çünki bir mühəndis kimi o alətlərin quruluşunu da bilmirsən, xeyrini də...

Camal. Yusif, sən burada yekə tənqid iclası açdın ki. Bu saat texnikanın mənfəəti haqqında leksiya oxumağın yeri deyil. Qaç öz obyektinə, bu gün sənə üç növbə işçi verəcəyəm.

Y u s i f. Heç yerə qaçan deyiləm. Bəsdir. Mən bu qayda ilə işləmək istəmirəm. (*Qapını çırpıb gedir*)

C a m a l. Qapının səsini eşitdin, Mirzə? Eybi yoxdur. Çəkərəm onu yuxarıya, yumşalıb, muma dönər. (*Saata baxır*) Baho, ağzım qızışdı, vaxta az qalıb.

M i r z ə S a l m a n. İki naryad var... Bu saat gətirim.

C a m a l. Mirzə Salman, mən ölüm yaxamdan əl çək... Mindilli, qaç dəlləyin dalınca...

Mindilli çıxır.

M i r z ə S a l m a n. Siz hazırlaşınca mən onları gətirərəm. (*Tələsik kağız axtararkən stolun üstündəki qovluqlar yerə tökülür*) Bu qayda ilə işləmək düzgün deyil. Tələm-tələsik... Tələm-tələsik... (*Çıxır*)

M i n d i l l i (*əlində dəllək çamadanı qaçaraq gəlir*) Fəlakət!..

C a m a l. Nə olub?

M i n d i l l i. Dəllək gedib.

C a m a l. Bu olmadı. Fikrin nədir, vağzala bu cür gedim? Şiddətli töhmət almaq istəyirsən?

M i n d i l l i. Heç əsəbiləşməyin... Dəm-dəstgahını burada qoyub gedib. Budur, bax, keçək o otağa, bir dəqiqədə üzünüzü qırxım.

C a m a l. Bacarırsan?

M i n d i l l i. O qədər qırxmışam ki.

C a m a l. Bah atonnan... Əşi, sənin əlindən gəlməyən iş var?

Yan otağa keçirlər. A s l a n və G ü l s ü m gəlirlər.

A s l a n. Budur ha... Belə böyük obyektlərdə işləməyə varam.

G ü l s ü m. Amma yaman ləng işləyirlər. Bu evi neçə ildir qurtara bilmirlər.

A s l a n. Bizim briqada işə girişər, onda elə nümunə göstərərik ki, o biriləri də dalımızca gələr. Neyləyim! Neçə vaxtdır gəlib-gedirəm, buranın rəisinin sözündən bir mətləb başa düşmürəm. Gah deyir gəlin, gah deyir lazım deyilsiniz. İndi yenə yoxdur. Gedib axtaraq... Siz birinci obyektə gedin, mən də ikinciyə...

Çıxırlar. Aslan gedəndə bir ç e ş m ə k l i kişi ilə rastlaşır.

Ç e ş m ə k l i k i ş i. Mən bu tikintinin rəisini axtarıram.

A s l a n. Elə mən də onu axtarıram.

Ç e ş m ə k l i k i ş i. Mənim ona üç sualım var.

A s l a n. Mənimsə bir sualım var: ya hə, ya yox.

Aslan çıxır. Q a s ı m içəri girir.

Ç e ş m ə k l i k i ş i. Mən bu tikintinin rəisini axtarıram.

Q a s ı m. Tapa bilməyəcəksən. Bu gün o, ayrı aləmdədir.

Ç e ş m ə k l i k i ş i. Ona üç sualım var. Birincisi: bu ev neçə vaxta qurtarar?.. İkincisi: gecikmənin səbəbi nədir?.. Üçüncüsü...

Q a s ı m (*onun sözünü kəsir*). Yoldaş, bu sualları mənə verməyin mənası yoxdur. O cür məsələləri rəis bilər.

Ç e ş m ə k l i k i ş i. Mən də dedim ki, rəisi axtarıram.

Q a s ı m. Mən də dedim ki, başı qarışıqdır.

Ç e ş m ə k l i k i ş i. Ona üç sual verəcəyəm.

Q a s ı m. İşə düşmədik! Əşi, rəis o tərəfdədir, tap, nə qədər istəyirsən, sual ver.

Ç e ş m ə k l i k i ş i. Gedərəm də, taparam da...

Çeşməkli kişi çıxır. Z ə r i f ə içəri girir.

Z ə r i f ə. Mənim sənətim bu tikintidə adam axtarmaq olub. Adamlar göz açıb-yumunca ilim-ilim itirlər. (*Qasıma*) Otur burada, Camal yoldaş səni soruşur.

Q a s ı m. Siz nə cür ətir işlədirsiniz ki, bu cür gözəl rayihəniz var?

Z ə r i f ə. Bilirsən nə var? Mənim sənin adından da zəhləm gedir, özündən də.

Zərifə gedir. M i n d i l l i əlində ülgüc səsə çıxır.

M i n d i l l i. Bu nə səsdir, nə olub?

Q a s ı m. Bıy, ülgüclə cib kəsirsən, qulaq kəsirsən, nədir?

M i n d i l l i. Yox, hələlik üz qırxıram.

Q a s ı m. Yoldaş Camalı qırxırsan?

M i n d i l l i. Sən bilirsən ki, mən həmişə yuxarılardan başlayıram.

Q a s ı m. Qiyamət adamsan, min cürə üsulla ürəklərinə girməyi bacarırsan.

M i n d i l l i. Neyləyim, deyir, kəndxudanı gör, kəndi çap.

Ç e ş m ə k l i k i ş i qayıdır.

Ç e ş m ə k l i k i ş i. Bu tikintinin adı var, özü yox rəisi haradadır?

M i n d i l l i. Bir də bu cür sual versən, əmi, məndən görmə, özündən gör.

Ç e ş m ə k l i k i ş i. Mənim ona üç sualım var. Birincisi: bu ev nə üçün gecikir?.. İkincisi...

Q a s ı m (*onun sözünü kəsir*). Siz kimsiniz, yoldaş?

Ç e ş m ə k l i k i ş i. Mən bu evin gələcək əhalisindənəm. Təqaüdçüyəm. Üçüncü mərtəbədə üçotaqlı mənzilə köçməliyəm, üç ildir ki, gözləyirəm.

M i n d i l l i. Aydındır. Kütlədən gələn səs. Sabah səhər saat 9-da bütün şikayətlərinizi yazılı şəkildə verərsiniz katibəyə. O da çatdırar mənə.

Ç e ş m ə k l i k i ş i. Rəis sizsiniz?

M i n d i l l i. Hələlik, yox. Amma ərizə gərək mənə çata. Çünki mən rəislə geniş xalq kütləsinin arasında qapıyam.

Ç e ş m ə k l i k i ş i. Sənin kimi qapısı olduğu üçün rəis evi bu qədər gecikdirir də. Eybi yoxdur, mən suallarımı vermək üçün ayrı bir idarə taparam. (*Çıxanda içəri girən Zərifə ilə toqquşur*) Üzr istəyirəm. (*Gedir*)

Telefon zəng çalır.

Z ə r i f ə. Telefon quzu kimi mələyir, bir baxan yoxdur. (*Dəstəyi götürür*) Bu saat. Yoldaş Camal haradadır?

C a m a l (*üzü yarısabunlu səhnəyə çıxır*). Sən harada qaldın, Mindilli? (*Zərifəni və Qasımı görüb geri qayıdır*)

Z ə r i f ə. Yoldaş Camal, telefona.

Camal üzünü dəsmalla tutub çıxır, telefonu götürür.

Z ə r i f ə (*Mindilliyə*). Nə olub?

M i n d i l l i. Dişi ağrıyır.

Z ə r i f ə. Bıy!.. Nişanlısı gələn vaxt dişağrısı nədir? Məndə dərman var. Gedim gətirim.

M i n d i l l i. Lazım deyil.

Z ə r i f ə. Heç dəxli var? Dişi ağrıyan sənsən, ya o? (*Gedir*)

C a m a l (*dəstəyi asır, Qasıma*). Mən sizə arxalanıram, siz də belə eləyirsiniz.

Q a s ı m (*təəccüblə*). Nə olub ki?

C a m a l. Dülgər sexi üçün pul almısan. Niyə bəs işi yerinə yetirmirsən?

Q a s ı m. Yoldaş Camal, axı orada hissələr çatmır.

C a m a l. Qasım, məni onun-bunun dilinə salma. İki günə qurtar.

Q a s ı m. Heç mümkün deyil.

C a m a l. Mən ölüm, deyirəm.

Q a s ı m. Pis yerdə tutdunuz. Bu sözdən sonra özüm dönüb maşın olaram. (*Çıxır*)

C a m a l. Di gəl, bu zəhrimarı qurtar.

M i r z ə S a l m a n gəlir. Camal yenə üzünü yayılıqla tutur.

M i r z ə S a l m a n. Bunlara qol çəkin.

M i n d i l l i. Ay Mirzə, hər söhbətin yeri var.

M i r z ə S a l m a n. Kifayətdir, Mindilli, ürəyim zəifdir. Bir az kənar dur. Məni azara sən saldın.

C a m a l. Gətir qol çəkim. Bu kağızlar da, məni azara saldı. (*Təlasik, oxumadan qol çəkir*)

M i r z ə S a l m a n. Heç baxmırsınız da, nə kağızdır.

C a m a l. Vaxt var?

Mirzə Salman kağızları götürüb çıxır.

C a m a l (*Mindilliyə*). Di tez ol, gedək, qurtar.

M i n d i l l i. Axırıncı hücum.

Gedirlər. A s l a n bir tərəfdən, G ü l s ü m o biri tərəfdən səhnəyə gəlirlər.

A s l a n. Yenə yoxdur, mən onu heç yerdə tapa bilmədim.

G ü l s ü m. Bilirsiniz, nə var, usta? Siz günü günə satırsınız, biz də avara qalırıq.

A s l a n. Yox, bura çox gözəl sahədir, heyf ki, gəlib-gedirəm, müəyyən bir cavab ala bilmirəm.

G ü l s ü m. Bir bürokrat bizi avara qoymayacaq ki? Bu saat bütün şəhər tikilir. Gedək trestə, qoy bizi başqa bir kontorun sərəncamına göndərsinlər.

A s l a n. Yox, bura çox gözəl sahədir, heyfim gəlir. Deyirəm, birinci işimiz gözə çarpsın.

G ü l s ü m. Yaxşı iş hər yerdə gözə çarpır.

A s l a n. Yaxşı, gedək həm burdakı vəziyyəti danışaq, həm də başqa yerdə işləməyə kağız alaq.

Çıxırlar. C a m a l və M i n d i l l i gəlirlər.

M i n d i l l i. Hə, indi gedə bilərik.

C a m a l (*getmək istədikdə birdən dayanır*). Baho, ayaqqabıları dəyişmədim.

M i n d i l l i. Bu dəqiqə. (*Qutuda çəkmə gətirir*) Skoroxod leninqradski. Xüsusi sifariş üzrə ispalkomun katibi üçün gətirmişdilər, qızıl quş kimi şığıyıb götürdüm.

C a m a l (*saatına baxır*). Gecikirik ha... (*Ayaqqabıları geyir*) Olmur ki, baho, sıxır. Evin yıxılsın, Mindilli, gözümdən qığılcım çıxdı.

M i n d i l l i. Mən haradan biləydim ki, ispalkomun katibinin ayağı bu cür xırdadır. İstəyirsiniz...

C a m a l. Cəhənnəmə ki, gedək.

M i n d i l l i. Dayanın, dayanın... Bəs bu? (*Bir dəstə gül gətirir*) Səhərdən vannada suya qoymuşam.

C a m a l. İndi daha mənə yaraşmaz. Tikinti rəisi... gül?!.

M i n d i l l i. Nə danışırsınız, yoldaş Camal, mədəniyyətdir. Bir yeriyin.

C a m a l. Ayağımı ata bilirəm ki?

M i n d i l l i. Elə bilin, bax, bu qapı vaqonun qapısıdır, nişanlınız bu saat çıxacaq. Gülü ikiəlli tutub, uzadın qabağa.

Camal axsaya-axsaya qapıya sarı gedəndə Z ə r i f ə əlində dərman gəlir.

Z ə r i f ə. Diş dərmanı gətirmişəm.

M i n d i l l i. Zərifə, yol ver... Buyurun, yoldaş Camal.

Camal və Mindilli çıxırlar.

Z ə r i f ə (*onların arxasınca baxır*). Bax, sevgi bu cür olar, dişi də yadından çıxdı, başı da.

P ə r d ə

İKİNCİ PƏRDƏ

İKİNCİ ŞƏKİL

Bağça... Ceyran xalanın evinin qabağı. B ə n ö v ş ə, Q ə m ə r, C e y r a n x a l a səhnəyə gəlib əllərindəki çamadanları yerə qoyurlar.

C e y r a n x a l a. Gəl, səni bir də qucaqlayım, qızım. Neçə vaxtdır ki, üzünü görməmişəm. (*Qızını qucaqlayır*)

B ə n ö v ş ə. Ay ana, yavaş. Qəmərdən ayıbdır.

Q ə m ə r. Niyə ayıb olur? Kaş mənim də belə bir anam olaydı.

C e y r a n x a l a. Elə mən sənin də ananam, qızım... gəl səni də qucaqlayım. (*Onu da qucaqlayır*) Elə bilərəm, iki ceyran qızım var.

Q ə m ə r. Mən heç güman eləməzdim ki, anan bu qədər cavandır, Bənövşə.

B ə n ö v ş ə. Atam onu "həmişəcavan" deyib çağırardı, yadındadırmı, ana?

C e y r a n x a l a. Eh, ay qızlar, mənim cavanlığım da, həvəsim də usta Qurbanla getdi. O öləndən sonra başım da vaxtından qabaq ağarmağa başladı... (*Gözlərini silir*)

B ə n ö v ş ə. Ay ana, neyləyirsən? Heç yeridir?

C e y r a n x a l a. Sevindiyimdəndir. Sənin məktəb qurtarıb gəlməyini gör neçə il gözləmişəm... Yaxşı, həyətdə niyə dururuq? Çıxaq evə... (*Yavaşdan*) Bəs, Bənövşə, gəlməyini Camala niyə xəbər verməmisən?

B ə n ö v ş ə. Teleqram vurmuşdum. Bilmirəm niyə vağzala gəlmədi. Bəlkə xəstədir?

C e y r a n x a l a. Yox, xəstə deyil. Dünən məni görməyə gəlmişdi. Yəqin teleqramını almayıb. Bu saat bir adam göndərib, xəbər verərəm.

Q ə m ə r. Elə gözəl bağçanız var ki, adam heç ayrılmaq istəmir.

Danışa-danışa evə girirlər. M i n d i l l i, C a m a l tələsik səhnəyə çıxırlar.

M i n d i l l i. Gəliblər, çamadanları görmürsünüz?

C a m a l. Beş il nişanlı gözlədim, axırda vağzalda qabağına da çıxa bilmədim, o qədər uzatdın ki... Gülləri ver, özün get, gözümə görünmə.

M i n d i l l i. Yoldaş Camal, sizi inandırıram ki, bu daha yaxşıdır. Hicran nə qədər uzun olsa, vüsal o qədər şirin olar.

C a m a l. Bu saat hicrandan, vüsaldan danışmağın vaxtı deyil. Get, *mənim* tapşırıqlarımı axşama hazır elə... Aman, aman... Ayaqqabı məni öldürdü ki...

Bənövşə pəncərədə görünür. Camal onu həyəcanla çağırır.

C a m a l. Bənövşə!

B ə n ö v ş ə. Camal! Bəs sən haradasan?.. (*Pəncərədən çəkilir*)

C a m a l (*Mindilliyə*). Nə durmusan? Görmürsən qız yanıma gəlir?

M i n d i l l i. Gözdən itirəm.

Mindilli gedir. Bənövşə qaçaraq evdən çıxır. Camal ilə görüşürlər, sevindiklərindən gülürlər, sonra bir qədər göz-gözə dayanırlar.

B ə n ö v ş ə. Məni qarşılamağa niyə gəlmədin?

C a m a l. Gecikdim... Ancaq eybi yoxdur. Hicran nə qədər uzun olsa, vüsal o qədər şirin olar.

B ə n ö v ş ə. Bu qədər hicran bəs deyil, hələ yenə də ayrı qalmağımızı *istəyirdin*?

C a m a l. Əksinə, Bənövşə can, bu gün mən sənin yanına tələsdiyimdən gecikdim. (*Gülür*) Gülləri qucağımda tutub dayanmışam. Al, götür.

B ə n ö v ş ə. Nə yaxşıdır!.. Hamısı qızılgül... Yadındadır? Moskvaya gedəndə bütün kupeni gül ilə, çiçəklə doldurmuşdun...

C a m a l. Bu qədər vaxtı necə dözmüşəm, heç özüm də bilmirəm. Əvvəllər hər gün ananın yanına gəlirdim... Bu bağçada oturardım, səni yadıma salırdım.

B ə n ö v ş ə. Əvvəllər... Sonra yavaş-yavaş yadından çıxdı?

C a m a l. Elə bir gün, elə bir dəqiqə olmayıb, Bənövşə can. Sonralar məsul vəzifəyə keçdim... Zarafat deyil.

C e y r a n x a l a gəlir.

C e y r a n x a l a. Bizə nə yaxşı qonaq gəlib!

B ə n ö v ş ə. Ancaq bir az gecikmiş qonaqdır. Gedək gülləri suya qoyaq... Niyə tərpənmirsən? Ayağın ağrımır ki?

C a m a l. Yox... Elə-belə. Bir balaca... (*Yerimək istəyir, dayanır, öz-özünə*) Atana lənət, Mindilli.

B ə n ö v ş ə. Gəl, kömək eləyim... Buna görə vağzala gecikmisən də... (*Onlar getmək istəyəndə Qəmər səhnəyə düşür*) Qəmər! Mənim nişanlımla tanış ol.

Qəmərlə Camal görüşürlər.

Q ə m ə r. Ayağınıza nə olub.

C a m a l. Bir şey olmayıb. (*Düz yerimək istəyir, birdən dayanır*)

C e y r a n x a l a. Bənövşə, apar uşağı evə, bir az uzansın.

C a m a l. Nə danışırsan, Ceyran xala, mən xəstə-zad deyiləm ki?..

Ceyran xalanın əlindən çamadanı alıb evə gedir. Bənövşə və Ceyran xala gülərək, onun arxasınca gedirlər.

Q ə m ə r (*onların arxasınca baxıb gülümsünür*). Nə qədər həyəcanlıdırlar. Sevib-sevdiyinə ərə getmək nə böyük xoşbəxtlikdir!

C e y r a n x a l a qayıdır.

C e y r a n x a l a. Ev daha sərindir, gəl içəri, doktor!

Q ə m ə r. Bağçanız da yaxşıdır, eviniz də! Nə gözəl tikilib!

C e y r a n x a l a. Bu evi usta Qurban öz səliqəsilə tikdi.

Q ə m ə r. Bənövşənin atası bənna idi?

C e y r a n x a l a. Heç kəs ona bənna deməzdi. "Usta" deyib çağırardılar. Elə bil kişinin əli ovsunlu idi. Hansı daşa dəysəydi, dönüb şəkil kimi olurdu. Deyərdi, Ceyran, yüz ev tik desələr, tikərəm, elə eləyərəm ki, biri o birisinə oxşamaz. Bu ev Bənövşə ilə yaşıddır. O anadan olanda tikdi. Üstündə də daş ilə adını yazıb. O vaxt həm işləyirdi, həm də dərs verirdi, şəyirdləri vardı...

Q ə m ə r. Deməli, Bənövşə də atasının yolu ilə gedib.

C e y r a n x a l a. Bəs necə! Ali məktəbə gedəndə atası dedi ki, qızım, bəlkə doktorluq oxumaq istəyirsən, bəlkə şairliyə həvəsin var? Cavab verdi ki, ata, incinar olacağam, vəssalam. Ev tikmək yaxşı işdir.

B ə n ö v ş ə həyətə düşür.

B ə n ö v ş ə. Ana can, bağçamız nə qəşəngləşib!

C e y r a n x a l a. Bu il xüsusi fikir vermişəm, bilirdim ki, qurtaran kimi gələcəksən. Gör nə qədər məxməri bənövşə əkmişəm.

B ə n ö v ş ə (*gülür*). Mənim adımın xatirinə.

C e y r a n x a l a. Əlbəttə... Onlara baxıb səni yadıma salırdım. Axırıncı məktubunu alandan sonra yenə ümidimi itirmişdim. Axı yazmışdın ki, səni harada isə saxlamaq istəyirlər.

B ə n ö v ş ə. Aspiranturada? Hə, təklif elədilər, amma mən qalmadım. Evə gəlməyə elə tələsirdim ki...

C e y r a n x a l a (*Qəmərə*). Elə bilirsən, mənim yanıma tələsirmiş, doktor?.. Yox, nişanlısının yanına... Beş il nişanlı qalmaq asan iş deyil. Rəhmətlik atası məni bir ay nişanlı qalmağa qoymadı...

Q ə m ə r. Başa düşürəm, Ceyran xala. Şəhərdə bir səndən danışanda, bir də nişanlısından danışırdı.

C e y r a n x a l a. Danışmaqdan nə çıxar, toyu tez eləmək lazımdır.

Qəmər və Ceyran xala yenə bir neçə çamadan götürüb evə gedirlər. C a m a l səhnəyə gəlir.

B ə n ö v ş ə (*bayaqdan dərdiyi bənövşələri Camala uzadır*). Bayaq sən mənə qızılgül bağışladın, mən də sənə bənövşə bağışlayıram. Niyə bir yerdə dinməz qalmısan?

C a m a l. Tərpənə bilmirəm. Pokrışkalar məni birtəhər eləyib. (*Ayaqqabılarını göstərir*)

B ə n ö v ş ə. Pokrışka nəyə deyirsən? Dönüb maşın olmusan, nədir? (*Gülür*)

C a m a l. Bu harayda adam maşın da olar, ekskavator da... (*Bənövşə dəstəsini altır, iyləyib döşünə sancır*)

B ə n ö v ş ə. Nə olub sənə? Hazırlaşmayıb dərsə gələn uşaqlara oxşayırsan.

C a m a l. Yox, Bənövşə, neçə ildir mən bu dərsə hazırlaşıram. Amma indi heç bilmirəm hansı tərəfdən başlayım.

B ə n ö v ş ə. Camal, neçə ildir səni görmürəm, bilirsən nə qədər dəyişmisən?

C a m a l. Neyləyim? Özümə fikir verməyə vaxtım olmayıb. Həmişə işdə, məsul vəzifədə... Nə vaxtdır rəisi əvəz eləyirəm.

B ə n ö v ş ə. Rəisi əvəz eləyirsən? Mən bilmirdim.

C a m a l. Bəs necə? Bəlkə daha tamam rəis keçdim, baş mühəndis ayrı adamı götürdüm. Bircə planı qovub çatdıra bilsəm.

B ə n ö v ş ə. Planın geridir? Heç gözləməzdim... Sən qabaqlar bütün bu rayonda adnan çağırılardın...

C a m a l. Dayan bir, yenə elə olacaq... Gecələri də tikintidə keçirirəm... İndi daha sən də gəlmisən, evim-eşiyim, rahatlığım olandan sonra... Eh... Sənincün elə bir ev düzəltmişəm ki, top vursan, dağılmaz. Duzqabından tutmuş hər şey almışam, Bənövşə can! Amma mən ölüm, toyu gecikdirmə.

B ə n ö v ş ə (*gülür*). Qəribə danışırsan... Heç elə bil əvvəlki Camal deyilsən... Mən duzqabını neyləyirəm? Moskvada aşpazlıq məktəbini bitirib gəlməmişəm ki?

C a m a l. Əşi, sən də... Mən duzqabını misal üçün dedim... Şifonerdən danış, mebeldən danış, nədir onun adı, göydən asırlar ha?

B ə n ö v ş ə. Çilçıraq?

C a m a l. Odur ha... Üçü birdən...

B ə n ö v ş ə. Üçü birdən? O qədərini neyləyirsən ki?

C a m a l. *Əşi, nə bilim... Düşdü, aldım da...* İstəyirsən lap götür bağışla qonşuya... Bu ölsün, söz demərəm... Ancaq toyu gecikdirmə...

B ə n ö v ş ə (*gülür*). Sən məni güldürmək üçün bu cür deyirsən, elə deyilmi, Camal can? Əvvəldən də məzəli danışmağı çox sevirdin... Ancaq hələ toya tələsmə, qoy bir iş məsələm həll olunsun, sonra. Mən trestin sərəncamına gəlmişəm, görək hara göndərirlər.

C a m a l. İş? İşə girmək istəyirsən?

B ə n ö v ş ə. Bəs necə?.. Əlbəttə...

C a m a l. Nə danışırsan? Mən olan yerdə sən niyə işləyirsən? Məvacibim ixtiyarında, maşın ayağının altında.

B ə n ö v ş ə. Sən bu sözləri ciddi deyirsən, Camal?

C a m a l. Lap ciddi deyirəm.

B ə n ö v ş ə. Deməli, mən Moskvada ona görə oxuyurdum ki, gəlib sənin duzqabının yanında oturum?

C a m a l. Əşi, ay Bənövşə, çıxart bu duzqabını müzakirədən. Mən səni istədiyimdən deyirəm. Beş il oxumusan, deyirəm bəlkə bir-iki il istirahət eləyəsən... İşləmək istəyirsən, işlə. Mən söz demirəm ki...

B ə n ö v ş ə. Axı sən nə söz deyə bilərsən? Etiraz eləməyə nə haqqın var?

C a m a l (*iki əlini qaldırır*). Atam! Mən təslim. Sən məndən ağıllısan... Bilirəm, nə üçün işləmək istəyirsən. Neçə il təqaüd almısan, bəs işləməsən nə deyərlər? Lap istəyirsən, gəl mənim kontorumda mühəndis ol. Qoymaram əlini ağdan-qaraya vurasan. Ölməmişəm ki...

B ə n ö v ş ə. Sən qəribə fikirlər irəli atırsan, qəribə sözlər danışırsan.

C a m a l. Dedim ki, mən təslim. Özüm öz xahişimlə sənə əsir düşürəm... Əsiri öldürməzlər ki...

Y u s i f gəlir.

Y u s i f. Nə mənzərədir?! (*Öskürür*) Mane olmadım ki...

B ə n ö v ş ə. Yusif, xoş gördük!

Görüşürlər.

Y u s i f. Xoş gəlmisiniz, Bənövşə! Deyəsən, söhbətinizə mane oldum.

B ə n ö v ş ə. Yox-yox... İçəri gəlin... Görürsünüz, mən hələ hücum eləməmişdən Camal təslim olub.

Y u s i f. Yəqin xasiyyəti dəyişib, o həmişə məğlub olur, ancaq təslim olmur...

C a m a l. Adamına baxır da...

B ə n ö v ş ə. Nə olub? Yoxsa aranız soyuqdur. Bəs bir neçə il bundan qabaq can deyib, can eşidirdiniz?

C a m a l. Bir elə şey yoxdur. Yusifdir də... gah dalaşırıq, gah barışırıq... Mənə qalsa, on dəqiqədən sonra hirsim soyuyur.

Y u s i f. Hirs soyumağına soyuyur, amma yenə iş əvvəlki kimi qalır. Məsləhətçiləri qoymur ki...

C a m a l. Yusif, bu saat idarə söhbətlərinin yeri deyil.

Y u s i f. İdarədə deyirsən yeri deyil, burada deyirsən yeri deyil. Bəs harada danışaq, göydə?

C a m a l. Mənim ruhum bu saat həqiqətən göydədir. Dalımca çıxa bilsən, gəl danışaq.

B ə n ö v ş ə. Göyə niyə çıxırsınız? Danışmaq istəyirsiniz, gedək evə. Camal, Yusifi evə dəvət elə.

C a m a l. Sən ki, mənim nişanlımı təbrikə gəlmisən, gündüzkü söhbətlər ləğv olunur. Uzat əlini, buyur evə.

Y u s i f (*istər-istəməz Camal ilə görüşür*). Çox sağ ol. Mən, əslində, iclas olacağını xəbər verməyə gəlmişəm.

C a m a l. İclas?.. Ay-hay... Özgə vaxtda mədəniyyətdən danışırsan. Bu həngamədə iclas vaxtıdır?

Y u s i f. İclası mən çağırmıram, trest çağırır, səndən, məndən başqa bizim idarədən çox adam çağırıblar. Qabaqcıl fəhlələri, ustaları... Bizim məsələmizi müzakirə edirlər...

C a m a l. Əşi, nə danışırsan? Tərsliyə bax ha...

Y u s i f (*Bənövşəyə*). Trestin rəisi sizi də soruşurdu, dedim gəlib...

C a m a l. O sənin gələcəyini haradan bilir?

B ə n ö v ş ə. Yəqin Bakıdan deyiblər.

C a m a l. Dayan, mən bir zəng eləyim. (*Səhnədən çıxmaq istəyir*)

B ə n ö v ş ə. Hara gedirsən, Camal? Evdə telefon var ki.

C a m a l. Hə, düz deyirsən... Lap rulu itirmişəm...

Qəmər pəncərədən səslənir.

Q ə m ə r. Bənövşə! Səni telefona çağırırlar. Deyir trestdəndir.

B ə n ö v ş ə. Gəldim... (*Cəld evə girir*)

C a m a l (*onun arxasınca gedəndə, Yusifə*). Aşna, bunlar hamısı sənin işindir. Bircə dəqiqə idarədən ayrılan kimi məsələni yaman dolaşdırdın... (*Evə gedir*)

Yusif getmək istədikdə, Qəmər onu pəncərədən görür.

Q ə m ə r. Yusif!

Y u s i f (*geri dönür*). Bu nədir? Gözlərimə inana bilmirəm!

Qəmər pəncərədən əlini uzadır, görüşürlər.

Q ə m ə r. Burada işləyirsiniz?

Y u s i f. Bəli... Sizdən nə əcəb? Yəqin Bənövşənin toyuna gəlmisiniz.

Q ə m ə r. Yox, həmişəlik gəlmişəm. Burada, xəstəxanada işləyəcəyəm. Mən həkimlik oxuyurdum axı, yadınızdan çıxıb?

Y u s i f. O günlər hamısı bir-bir mənim yadımdadır. Bəlkə siz unutmusunuz?

Q ə m ə r. Heç bədbəxtlik unudularmı?

Y u s i f. Bədbəxtlik nə üçün? Məndən daha yaxşısını sevdiniz, ərə getdiniz, əriniz yəqin bir hörmətli adamdır, uşaqlarınız var. Kasıb bir tələbəni unutmaq çox asandır.

Q ə m ə r. Yox, elə olmadı, Yusif! Məni aldatdılar, hörmətsiz, ləyaqətsiz bir adam məni aldatdı. Altı ay cəhənnəm əzabı çəkəndən sonra ayrıldım. Həm uşaq saxladım, həm də oxudum.

Y u s i f. Mən belə olduğunu bilmirdim, Qəmər! Bağışlayın, keçmişləri nahaq yada saldım.

Q ə m ə r. Keçmişdən xoş xatirələr də var. Yadınızdadırmı? O günlər mənim həyatımın ən xoş dəqiqələridir. (*Sükut*) Siz çoxdan buradasınız? Yəqin bütün ailəliklə köçüb burada yaşayırsınız?

Y u s i f. Anam, qardaşım Bakıdadırlar. Mən özüm burada tək oluram. Ayrı bir ailəm yoxdur. O gündən, sizin ərə getdiyinizi öyrəndiyim dəqiqədən, ömrümün axırına kimi evlənməməyə söz verdim.

C a m a l və B ə n ö v ş ə həyətə düşürlər. Qəmər tez çəkilir.
Yusif pəncərədən ayrılır.

C a m a l. Yaman həngamədir. Qoymurlar adam nişanlısı ilə iki kəlmə danışsın.

B ə n ö v ş ə. Nə isə, məsələ çox ciddidir. Sənin vəziyyətin necədir, Camal? Mənə düzünü de.

C a m a l. Necə olacaq, maşın kimi... Bir həftəyə planı dolduraram.

Y u s i f. İş təkcə planda deyil ki.

C a m a l. Yusif! Səndən xahiş elədim ki, qapını hələlik bağla!

Y u s i f. Tutaq ki, burada danışmadım... Trestdə bağlı qapının dalında oturmaq olmayacaq... Orada havanı çox sevirlər, istəyirlər qapılar da, pəncərələr də açıq olsun.

C a m a l. Olsun da... (*Tələsik qapıya sarı gedir*) Mən bu saat...

B ə n ö v ş ə. Hara gedirsən, Camal? Dayan, mən trestin təzə binasını tanımıram.

C a m a l. Bu saat qayıdıram, gedim bu zəhrimarları dəyişim. (*Ayaqqabıları göstərir*)

B ə n ö v ş ə. Eybi yoxdur. Sən oradan düz trestə gələrsən. Məni Yusif aparar.

C a m a l (*cəld geri qayıdır*) Necə, necə? Saxla, özüm aparacağam. Ayaqqabıları dəyişməli olmadım.

C e y r a n x a l a və Q ə m ə r səhnəyə gəlirlər.

C e y r a n x a l a. Bəs, nə vaxt qayıdacaqsınız, Bənövşə? Axşama xörək hazırlayıram.

B ə n ö v ş ə. Axşamacan qayıdarıq, anacan. Sən Qəmərdən muğayat ol! Qəmər, mənim əvəzimə anama kömək elə!

Q ə m ə r. Sən deməmişdən də eləyərəm. Onsuz da bilirəm, səndən Ceyran xalaya qız olmayacaq.

C e y r a n x a l a. Nə yaxşı dedin, doktor! Belə qız olar? Qoymadı ki, doyunca üzünü görüm.

B ə n ö v ş ə. Anacan, tez qayıdacağıq, arxayın ol. Qəmər, sən Yusiflə tanış deyilsən? Tanış ol. Yusif Camalın ən yaxın dostudur.

C a m a l. İdi...

Q ə m ə r (*gülməyini güclə saxlayır*). Bənövşə mənə sizdən o qədər danışıb ki.

Y u s i f. Mən də Bənövşənin xətrini çox istəyirəm.

C a m a l. Aman, aman, aman... (*Ayağını tutur*)

B ə n ö v ş ə. Nə oldu, Camal?!

C a m a l. Bu mədəniyyət məni sıxıb öldürmədi?.. (*Tərs-tərs Yusifə baxır*) Zəhrimar başıma vurur.

Y u s i f. Mədəniyyət ayaqdan başlayanda həmişə başa vurar.

B ə n ö v ş ə. Gedək... Camal, gir qoluma, mənim köməyim olmasa, sən trestə kimi öz ayağınla yeriyə bilməyəcəksən.

Çıxırlar. Qəmər evə girir. Ceyran xala onları həyət qapısına qədər ötürüb geri döndükdə, Z ə r i f ə ilə rastlaşır.

Z ə r i f ə. Ceyran xala, təbriklər! Lap vağzala gedəcəkdim, amma paltarımı, tuflimi dəyişincə gecikdim. Bu gülləri də götür suya qoy, lap "Krasnı Moskva" iyi verir. Bənövşə bacı haradadır?

C e y r a n x a l a. İclasa getdi.

Z ə r i f ə. Toy eləməkdənsə, iclasa getdi? Daha mənim heç sözüm yoxdur. Heyf! Yenə gecikdim.

C e y r a n x a l a. Axşam atanla bərabər bizə qonaq gələrsən, Bənövşəni də görərsən.

Z ə r i f ə. Gələrəm, niyə gəlmirəm? İstəyirsən, lap qabaqcadan gəlim, sənə kömək eləyim? Hə, Ceyran xala?

C e y r a n x a l a. Sağ ol, qızım.

Z ə r i f ə. Qonaqların siyahısını tutmusan? Onda ver mənə, telefonla hamısına xəbər verim. Ya heç siyahı lazım deyil. İdarədəkiləri bir ucdan çağırım? Camal yoldaşın o qədər dostu var ki... hamı xətrini istəyir...

C e y r a n x a l a. Yox-yox, nə danışırsan? Lazım deyil... Sən zəhmət çəkmə, lazım olan adamlara özüm deyəcəyəm.

Z ə r i f ə. Yaxşı, onda gedim vaxtında hazırlıq görüm. Gülləri ver, gələndə özüm gətirərəm.

Gülləri Ceyran xalanın qucağından alıb çıxır. İşıq sönür.

ÜÇÜNCÜ ŞƏKİL

Axşam. Ay işığı. Yenə həmin yer. Radioda gözəl mahnı oxunur. Q ə m ə r verandanı səliqəyə saldıqca mahnının sözlərini təkrar edir. C e y r a n x a l a həyətdə göyərti yuyur.

Q ə m ə r. Ceyran xala, içərini bəzədim, oldu gəlin otağı.

C e y r a n x a l a. Əlin-qolun var olsun.

Q ə m ə r. Qonaqlar hansı otaqda oturacaqlar?

C e y r a n x a l a. O biri otaqda, ora daha genişdir.

Q ə m ə r. Otaqlarınızın hamısı genişdir, işıqlıdır. Bənövşənin atası gözəl ev tikən imiş.

C e y r a n x a l a. Eh, qızım, hələ bu nədir, sən onun yaratdığı məktəbləri, klubları görməmisən. Vaxtımız olsa, hamısını sənə göstərərəm.

Q ə m ə r. Vaxtımız çox olacaq. Mən burada həmişəlik doktor işləyəcəyəm.

C e y r a n x a l a. Lap əcəb eləyəcəksən. Yanımızda təzə bina tikilir. Oradakı mənzillərdən birinə köçərsən. O evlərin hamısı üçotaqlı, dördotaqlıdır.

Q ə m ə r. O qədəri neyləyirəm? Qızımla mənə iki otaq bəsdir.

C e y r a n x a l a. Qızını da hər gün işə gedəndə gətirərsən mənim yanıma. Axşamlar ya sən, ya atası dalınca gələrsiniz. Şərtləşdik.

Q ə m ə r. Atası? Yazıq qız atasının üzünü gördü ki?

C e y r a n x a l a. Başın sağ olsun, qızım, nə olar, ölüm hamıya var. (*Qəmər gülür*) Niyə gülürsən?

Q ə m ə r. Ölsəydi, ondan yaxşı idi. Mən ərdən yarımadım.

C e y r a n x a l a (*sözünü dəyişmək istəyir*). Qəm eləmə, qızım, qəm eləmə.

Q ə m ə r. Bənövşənin nişanlısından razısınızmı, Ceyran xala?

C e y r a n x a l a. Nə deyim? Əvvəllər mənim də, atasının da xoşuna gəlirdi. Axır vaxtlar bir az dəyişib. Yəqin yoldaşları yaxşı deyil. Dost-aşna adamı düzəldər də, korlayar da.

Q ə m ə r. Bənövşə ağıllı qızdır, onu bir qaydaya salar.

C e y r a n x a l a. Qızım, mənim əqidəmcə arvad-kişi gərək bir-biri üçün işıq olsun, bir-birinə dayaq olsun. Usta Qurbanın tikdiyi hər təzə ev məni sevindirirdi, mən öz ürəyimlə ona kömək eləyirdim, ondan çox həyəcan keçirirdim. Bu məhəbbətin, bu həyəcanın ona böyük xeyri olurdu, çünki görürdü ki, mənim ürəyim onun ürəyi ilə bir döyünür. Əgər kişi bu cür məhəbbətə layiq deyilsə, nahaq yerə özünü şam eləyib yandırma.

Q ə m ə r. Camal özünü yaxşı aparmır?

C e y r a n x a l a. Yox, Camal ləyaqətli oğlandır. Mən söz məsəli deyirəm. Həmişə onların barəsində fikir eləyirəm. Neyləyim, dünyada dövlətim, varım təkcə bir qızım var. Bir oğlum da var idi, əcəl əlimdən aldı... (*Ağlamsınır*)

Q ə m ə r. Bənövşə sizinçün həm qızdır, həm də oğul, Ceyran xala. (*Çölə baxır*) Nə gözəl gecədir, Ay təzə gəlinlərə oxşayır. Ceyran xala,

deyəsən gəlirlər, odur... Bənövşə, Camal... Yanlarında kim isə var, hə, o mühəndisdir.

C e y r a n x a l a (*çölə baxır*). Özüdür, yanlarındakı Yusifdir. Çox ağıllı uşaqdır. (*Birdən həyəcana düşür*) Ay Qəmər, birdən çatışmaram ha, sən onları qarşıla, sonra Bənövşəni də götür, gəl mənə kömək elə.

Ceyran xala gedir. Bir azdan B ə n ö v ş ə, C a m a l, Y u s i f içəri girirlər. Camal son dərəcə kefsizdir. Bənövşə həyəcanlı görünür.

B ə n ö v ş ə. Qəmər can, səni tək qoyub getdim, darıxmadın ki?

Q ə m ə r. Heç, Ceyran xala ilə bir yerdə darıxmaq olar? Nişanlım niyə kefsizdir? Çəkmələrini dəyişmədi?

B ə n ö v ş ə. Yox, ayağı tamam yadından çıxıb. Ürəyi sıxılır. Doğrudan, Qəmər, sən doktorsan, tənqidin bir dərmanı yoxdur verəsən Camal içsin?

C a m a l. Mənə yox, tənqid eləyənlərə dərman vermək lazımdır. Elə dərman olsun ki, mən də durub tribuna qabağında nərildəyəndə özlərindən çıxmasınlar.

Y u s i f. Tənqidə qarşı təhqir eşitmək, əlbəttə, bir az ağırdır.

C a m a l. Niyə? Sən deyəndə tənqid olur, mən deyəndə təhqir?

Y u s i f. Mən deyəni hamı təsdiq elədi, sən deyənə hamı etiraz elədi. Çünki əsl iş yoxdur.

C a m a l. Deməli, iş görmürük, oyun oynayırıq?

Y u s i f. Bəli, qabaqlarda bizdə də iş vardı, ona görə də çığır-bağır yox idi. İndi isə çığır-bağır var, ona görə ki, iş yoxdur.

C a m a l. Deməli, heç bir iş yoxdur?

Y u s i f. Yoxdur.

C a m a l. Bir dəli şeytan deyir... (*Hirslə ona yaxınlaşır. Deməyə söz tapmayıb dayanır. Birdən əyilib ayağını tutur*) Vay-vay, evin yıxılsın, Mindilli!

Y u s i f. Həqiqətən də sənin evini yıxan mindillilərdir...

C a m a l. Bizim Mindilli... Çox vicdanlı... (*Ayaqqabıları çıxarıb atır*) Of, elə bil dünyaya təzədən gəldim.

B ə n ö v ş ə. Dur, evdə dəyiş. (*Qəmərə*) Bunlarla mən idarədə neyləyəcəyəm, bilmirəm.

C a m a l. Gedək, Yusiflə söhbətimiz qalsın sonraya.

Çıxırlar, səhnədə Qəmərlə Yusif qalır.

Y u s i f (*onun arxasınca*). Eybi yoxdur. Sonrakı söhbətimiz daha ciddi olacaq.

Q ə m ə r (*ona yaxınlaşır*). Nə yaman davakar olmusunuz, Yusif?

Y u s i f. Neyləyim, Qəmər can, mübarizəsiz olmur.

Q ə m ə r. Heç olmasa, nişanlısının yanında onu pərt eləməyin, bu günlər toyları olacaq.

Y u s i f. Toyları nə qədər tez olsa, o qədər yaxşıdır. Sonradan Bənövşənin başı tikinti işlərinə qarışacaq. Ona çox məsul iş tapşırılıb.

Q ə m ə r. Bənövşəyə? Nə iş?

Y u s i f. Bənövşə bizim rəisimiz təyin olundu.

Q ə m ə r. Belə deyin... Nə vaxt təyin olundu?

Y u s i f. Yığıncaqdan sonra bizi saxladılar. Raykom katibi ilə trest müdiri Bənövşə ilə söhbət apardılar. Mən çox şadam. Bənövşə bacarıqlı, ağıllı qızdır. Moskvada, çoxmərtəbəli evlərin tikintisində təcrübə görüb. Əgər yaxşı diqqət eləsə, qəsdən gözünü yummasa, mənim dediklərimin hamısını o da görəcək. Yox, əgər, özünü bir nişanlı qız, ya təzəgəlin kimi aparsa, onda yenidən dava çəkməli olacağıq. Bilirəm, yenə deyəcəksiniz ki, davakaram. Neyləyim, işləmək istəyirəm. Əsl mənada iş görmək istəyirəm.

Q ə m ə r. Siz elə o vaxt da tikməyə, qurmağa həvəsli olduğunuzdan mənə danışardınız. Yadımızdadırmı, söz vermişdiniz ki, mühəndis olan kimi gözəl bir xəstəxana tikəcəksiniz?

Y u s i f. Yadımdadır. Siz də söz vermişdiniz ki, o xəstəxanada həkim işləyəcəksiniz və əvvəlcə məni müalicə edəcəksiniz. Mən vədimə əməl elədim.

Q ə m ə r. Necə?

Y u s i f. Sizin indi işləyəcəyiniz xəstəxananı mən tikmişəm.

Q ə m ə r. Onda gərək mən də sözümü yerinə yetirəm, birinci sizi müalicə eləyəm.

Y u s i f. Elə isə mən müalicəyə hazırlaşım? (*Gülüşürlər*) İşə nə vaxtdan başlayacaqsınız?

Q ə m ə r. Əmrimi alan kimi qızımı gedib gətirəcəyəm, sonra...

Y u s i f. Qızınız neçə yaşındadır?

Q ə m ə r. Dörd. Elə şeytan, elə şirindil qızdır ki... Yəqin hər gün yolumu gözləyir. Mən ona həm ata olmuşam, həm də ana.

Y u s i f. Mən onun atasının kim olduğunu bilmirəm. Ancaq onu bilirəm ki, sizin kimi qadını atıb gedən adam çox dəyərsiz, ləyaqətsiz adamdır.

Q ə m ə r. Ondan danışmağa dəyməz... Gəlin içəri. Ceyran xala ilə bir yerdə elə xörəklər hazırlamışıq ki.

Y u s i f. Yox, Qəmər, bir də Camala rast gəlsəm, qanıqaralıq olacaq.

B ə n ö v ş ə gəlir, onlar özlərini itirirlər.

Q ə m ə r. Bənövşə, mühəndis yoldaş getmək istəyir.

B ə n ö v ş ə. Hara? Yusif, nə üçün gedirsiniz?

Y u s i f. Axşam növbəsində işim var, qala bilməyəcəyəm. Bir də indicə Qəmər xanıma da danışırdım...

B ə n ö v ş ə. Anam sizi də çağırıb, gəlməsəniz inciyər, onda işinizi qurtarandan sonra, xahiş eləyirəm, gəlin.

Q ə m ə r. Mən də xahiş eləyirəm.

Y u s i f. Siz deyəndən sonra etiraz eləmək olmaz! (*Getmək istəyir, birdən dayanır, cibindən kağız çıxarır*) Bu, təftiş aktının surətidir. Camal baxmamışdan qol çəkdi. Siz oxuyun, maraqlıdır. Sağ olun... Sağ olun, Qəmər xanım... (*Gedir*)

Q ə m ə r. Bilirsən nə üçün getdi? Camalla üzləşmək istəmir.

B ə n ö v ş ə. Camal məsələsi ciddidir.

Q ə m ə r. Deyirlər, məsul vəzifəyə təyin olunmusan, Bənövşə xanım! Təbrik eləmək olar?

B ə n ö v ş ə. Həftədə bir dəfə qəbul günüm olacaq, gəlib növbəyə yazılarsan, sonra.

Q ə m ə r. Bəlkə məni tanışlıqla qabağa salasan?

B ə n ö v ş ə. Üz vurma... Bacarmaram.

Gülüşürlər.

Q ə m ə r. Gözümün qabağına gətirirəm, yazıq Camalın başına nə oyun açacaqsan. Deyəsən, aranızda müharibə başlayır?

B ə n ö v ş ə. Yox, müharibə qabaqdan başlanıb. Mən ən qızğın vaxtına gəlib düşmüşəm. (*Yavaşdan*) Özü də, deyəsən, o biri cəbhə haqlıdır. Mən öz nişanlımla əməlli-başlı qılınc davasına çıxmalı olacağam.

Q ə m ə r. Dava niyə? Qaydasında başa sal. Arvad kişiyə yaxın yoldaş olmalıdır.

B ə n ö v ş ə. Mən hələ nişanlı qızam.

Q ə m ə r. Daha yaxşı. Nişanlı qızın hökmü daha çox olur.

B ə n ö v ş ə. Hökmü də çox olur, minnəti də... Üzük... Nişan... Əlbəttə, bunlar hamısı şərtidir, xoşbəxt olmaq üçün əsas deyil. Sevginin

get-gedə dərinləşməsi və möhkəmlənməsi üçün bu bir parça metalın heç bir rolu yoxdur.

Q ə m ə r. Sən ağ eləmə. Məncə, onda elə dərin sevgi var ki... O cür də olmalıdır, səni sevməmək mümkün deyil.

B ə n ö v ş ə. O da ləyaqətli oğlandır. Mən instituta təzə girəndə axırıncı kursda idi. Bütün məktəb başına and içirdi. Ağıllı, bilikli, dərin düşüncəli... Birinci illər mənə o qədər kömək eləyirdi... Bilirsən, nə gözəl günlər keçirirdik? Bir-birimizə söz vermişdik ki, ikimiz də ali məktəb qurtarmayınca evlənməyəcəyik. O vaxtdan görməmişdim, yalnız məktublaşırdıq... İndi...

Q ə m ə r. İndi nə? Gəlib gördün də...

B ə n ö v ş ə. İndi... Heç elə bil o zamankı Camal deyil... O zaman bizim fikirlərimiz bir-birinin ardı idi, biz bir düşünür, bir hiss eləyirdik. İndi... Bu gün... Heç bir sözümüz düz gəlmədi. Etiraz eləyəndə inciyir... Guya, nə olur-olsun, mən onu müdafiə etməliyəm... Çünki nişanlısıyam. Nişanlı qız... Cəfər Cabbarlı necə deyir? Barmağında üzük gəzdirən qız, ya dərisində damğa gəzdirən öküz?.. (*Gülür*)

Q ə m ə r. Danışdın da... Od gəlini deyilsən ki? İşi dava-dalaşa çıxartma, yavaş-yavaş başa sal.

B ə n ö v ş ə. Başa salmaqdan keçib, vəziyyət ağırdır. Bakıda mənə bu kontorun rəisliyini təklif etdikdə birdən-birə razı olmadım, dedim, əvvəlcə vəziyyəti, şəraiti öyrənim, sonra... Ancaq bu gün, elə bu iclasda başa düşdüm ki, mən mütləq işə girişməliyəm. Bu cür vəziyyətə son qoymaq, tikintidə özünə yuva tikmiş qurdlarla mübarizə aparmaq, bir mühəndis kimi mənim vəzifəm olmalıdır. (*Ceyran xalanın səsi gəlir: Bənövşə, Qəmər*) Anam çağırır, gedək.

Gedirlər. Q a s ı m əlində hədiyyə, M i n d i l l i ilə rastlaşır.

M i n d i l l i. Qasım, yoldaş prorab!

Q a s ı m. Mane olma, hədiyyə aparıram.

M i n d i l l i. Nədir? Qoy bir baxım.

Q a s ı m. Əlini vurma, bütün səliqəsi pozular. Görmürsən, kağızın üstündə nə yazmışam "Möhtərəm Camal yoldaşa, dəryacan kamal yoldaşa".

M i n d i l l i. Eh, qoydular ki, Camalda kamal qalsın.

Q a s ı m. Nə oldu ki?

M i n d i l l i. Xurd-xəşil oldu.

Q a s ı m (*hədiyyəni bir yana qoyur*). Danış, tez ol, uzatma, limon kimi sıxıb cövhərini çıxart.

M i n d i l l i. Elə limon kimi sıxıb cövhərini çıxartdılar.

Q a s ı m. Öldürdülər?

M i n d i l l i. Tamam yox. Yarımcan oldu... O da ona görə ki, başı mənim dizimin üstündə idi.

Q a s ı m. Onda baş olsaydı, sənin dizinin üstünə qoymazdı. Sonra nə oldu?

M i n d i l l i. Çox şirin dilin var, hələ bir təzə sual da verirsən?

Q a s ı m (*hirsli halda*). Qəhrəman! Məni tanıyırsan ki... Belə vaxtlarda zarafat sevən deyiləm. (*İki nəfər qonaq gəlib evə keçir. Qasım tez sifətini dəyişir*) Əşi, nə danışırsan? Məzəlilik eləmə!

M i n d i l l i. Hamıdan məzəlisi Qoskontrolun aktıdır.

Q a s ı m. Necə yazılıb?

M i n d i l l i. Lap roman kimi. Oxu, ləzzət al. Zalım oğlu pambıq ilə baş kəsib. Deyir, düşmən evimi yıxdı, üzümə gülə-güləylə.

Q a s ı m. Nə pis vaxtda oldu. Camalın da damağı aşağı... Yaxşı ki, hədiyyə gətirmişəm.

M i n d i l l i. Camal daha hədiyyəyə layiq deyil. Nahaq xərc çəkmə. Çıxardıb qoydular bir tərəfə.

Q a s ı m. Çıxartdılar?

M i n d i l l i. Çığırma içəridədir.

Q a s ı m. Yerinə kimdir?

M i n d i l l i. Nişanlısı.

Q a s ı m. Bah... bu nədir, bir-birindən qəribə xəbərlər... Kağızı dəyişim?

M i n d i l l i. Nə kağızı?

Q a s ı m. Hədiyyənin üstündəki kağızı təcili dəyişmək lazımdır. Camalın əvəzinə Bənövşə. Getdim, kağızı dəyişib təzədən yazdırım. Sən isə aktı tap.

İçəridən Camalın səsi gəlir.

M i n d i l l i. Camal gəlir.

Q a s ı m. Mən getdim, sən Camaldan aktı al, diqqətlə oxuyaq, görək başımıza nə çarə qılırıq.

Qasım gedir. C a m a l səhnəyə gəlir.

C a m a l. Mindilli niyə gəlmirsən?

M i n d i l l i. Utanıram, yoldaş Camal, bir də ki, mane olmaq istəmirəm.

C a m a l. Əlbəttə, gərək utanasan da... Ayaqqabı ayağımı sıxmasaydı, iclasda məni o kökə salmazdılar. Ağrıdan səsimi çıxarda bilmirdim.

M i n d i l l i. Eybi yoxdur, siz də yığıb-yığıb birdən partladınız. Axırda onlara yaman gəldiniz.

C a m a l. Hələ harasıdır! Gör nələr eləyəcəyəm. Yusif elə bilirdi ki, məni rəislikdən çıxardıb onu qoyacaqlar. Gözlədiyi gözündə qaldı. Məni çıxartdılar, nişanlımı qoydular. Nə təfavütü var? O rəis, mən baş mühəndis. Sən sabahdan gəlib, Yusifin başındakı dəyirmana baxarsan. Amma ürəyimdən deyil. Mindilli, istəyirəm qızı vurum qoltuğuma, birbaş Bakıya... Orada məni o saat bir məsul işə təyin eləyəcəklər, onda gör Yusifdən, doğrayıb bir Yusif də çıxardıram, ya yox?..

M i n d i l l i. Bakıya gedəndə məni yaddan çıxartmayın, yoldaş Camal. Sizsiz bu demaqoqların içində mənim ruhum lap çürüyər.

C a m a l. Qoymaram çürüsün. Amma bir də ayaqqabının nömrəsini dəyişik salma.

M i n d i l l i. Yoldaş Camal! Hər qəhrəmanın həyatında bir səhv olar. Mənim də səhvim bu ayaqqabıdır. Ancaq orası var ki, aldığım ayaqqabı nə qədər dar olsa, ürəyim o qədər genişdir. Ayaqqabıya nə var? Geyildikcə açılacaq.

C a m a l. Zarafat eləyirəm. Sən mənim sağ əlimsən. Əlimin birini burada qoysam, orada tək əl ilə işləyə bilmərəm ki. Ancaq gərək əvvəl toy eləyim. Böyük məsul işçi olandan sonra yaxşı deyil. Heç görmüsən ki, məsul işçi toy eləsin?

M i n d i l l i. Çox görmüşəm. Qəzetlərdə, xüsusən "Kirpi"də məsul işçilərə o qədər toy eləyirlər ki.

C a m a l. Sən dediyin tənqid toyudur. O cür düzgün, açıq tənqidi mən çox sevirəm. Necə, Mindilli, yoxsa sən tənqidi sevmirsən?

M i n d i l l i. Nifrət eləyirəm. Tənqid yuxuma girəndə qışqırıb, hövlnak ayılıram. Heyf deyil tərif!

C a m a l (*gülür*). Elədir, elədir. Sənlə danışdım, bir az durulduum.

M i n d i l l i. Akta qol çəkdiniz, yoldaş Camal?

C a m a l. Çəkdim. Nə var, orda bir şey yoxdur ki? Yoxsa qorxursan?

M i n d i l l i. Bıy, yoldaş Camal! Bakı ilə bizim rayonun arasında asfalt yol var ha... Bax, mənim işlərim elə o cürdür.

C a m a l. Bəs sənin haqqında o nədir iclaslarda danışırlar? Ailə pozğunluğu... deyəsən, arvad cəhətdən bir az yuxan nazikdir?

M i n d i l l i. Qətiyyən yox. Mən arvadlara pərəstiş edənlərdən deyiləm. Yalnız kənardan-kənara, uzaqdan...

C a m a l. Bəs niyə evlənmirsən?

M i n d i l l i. Utandırmayın məni, yoldaş Camal!

C a m a l. Düzünü de...

M i n d i l l i. Ayıb olmasın, axtarıram, seçirəm.

C a m a l. Nə olar, nə qədər ki, subaysan, axtar, seç! Kişi özü üçün həyat yoldaşı axtarır, o saat bir qulp taxırlar. Mədəniyyətləri yoxdur.

M i n d i l l i. O akta bir də baxmaq istəyirdim, yoldaş Camal. Bu gecə səhərə kimi oturub plan tutacağam. Görək, işimizi yenidən necə quraq. Akt əsasında.

C a m a l (*ciblərini axtarır*). Heç bilmirəm hara qoydum. Kim isə məndən aldı. Gedim görüm, qız neyləyir. Yaxşı nişanlım var, Mindilli, amma mənə söz atır, cin vurur başıma.

M i n d i l l i. Nazlıdır da.

C a m a l. Saxla... Sənə nə var nazlıdır?

M i n d i l l i. Yoldaş Camal! Özünüz bilirsiniz ki, mənim ürəyim nə qədər təmizdir.

C a m a l. Onunla birisi iki kəlmə danışanda dəli oluram. (*Yan otaqda Bənövşə pianino çalıb-oxumağa başlayır, Camal diqqətlə qulaq asır*) Odur bax, gör nə kəklik kimi oxuyur. Doğrudan da nazlıdır.

Camal otağa girir. Q a s ı m yenə əlində hədiyyə gəlir.

M i n d i l l i. Dəyişdin?

Q a s ı m. Sən yenə buradasan? Növbətçisən, nədir?

M i n d i l l i. Qonaqları qəbul eləyirəm.

Q a s ı m. Hədiyyəni çevirdim təzə rəisin adına. Yaxşı ki, vaxtında başa düşüb Camala verməmişəm, xərcim batacaqdı. Gör bir xoşuna gəlir? "Bənövşə xanıma, Gülöyşə xanıma, prorab nökərdir, həmişə xanıma". Necədir?

M i n d i l l i. Bax, bununla aktdakı maddələri heçə çıxartdın.

Q a s ı m. Hə, akt nə oldu?

M i n d i l l i. Tapılmadı.

Q a s ı m. Heç olmasa, mənə aid maddələri dilcavabı de.

M i n d i l l i. Sənə aid? Heç nə, ümumi məsələlər... guya texnikadan başın çıxmır, ona görə də istehsalata milyonlarla ziyan verirsən. Guya artıq pullar alırsan, dövlət əmlakını dağıdırsan. Belə, heç nə...

Q a s ı m. Axmaq. Bu dediklərin heç nədir? İki maddə dedin, hərəsinin beş il işi var.

M i n d i l l i. Nədən qorxursan? Bundan sonra sənin əlli il ömrün olmayacaq ki?

Q a s ı m. Deməli, elə salırsan? Yəqin özün sudan quru çıxmısan. Yadından çıxartma, qəhrəman... (*Qolundan yapışır*)

M i n d i l l i. Qolumu burax, bura bulvar deyil.

Bir az bir-birilərinə həkələnirlər, sonra canavar kimi ağız-ağıza dayanırlar.

Q a s ı m (*bir az sükutdan sonra*). Yaxşı, dalını danış.

M i n d i l l i. Onda qoy bugünkü iclasdan danışım, bir az ürəyin açılsın. Daşyonan düşdü, malakeş çıxdı, malakeş düşdü, rəngsaz çıxdı, de ki, deyəsən. Ağızlarındakı da Camal-Qasım, Qasım-Camal. Məndən də danışdılar. Familiyamı ollərində bəhanə eləyiblər. Ha çığırdım ki, ay balam, Mindilli kimdir, mən Mindilovam, qulaq asan olmadı.

Q a s ı m (*darıxmış*). Əşi, iclas məni maraqlandırmır. İclasda danışılan sözlər taxılın üstünə yığılan sərçə kimidir. Hüşt eləyən kimi dağılıb gedir. Ortada sənəd olmasın, sübut olmasın...

M i n d i l l i. İş də orasındadır ki, sənəd də var, sübut da. Mirzə Salman mənim sçotlarımı verib müfəttişə, o da götürüb bir-bir akt yazıb. Başa düşdün? Dəhşətdir, dəhşət...

Q a s ı m. Yəni sçotların içində bir dənə də düz gələni yoxdur?

M i n d i l l i. Dördünü sən vermisən, buradan hesabını götür.

Q a s ı m. Mən verdiklərim oradadır? Doğrudan, dəhşətdir. Geri qaytar.

M i n d i l l i. Neyləyim?

Q a s ı m. Geri qaytar. Sçotları geri al. Pul düzəldərik.

M i n d i l l i. Axıra yaxın lap duzlu danışdın. Pul düzəldərsən?

Q a s ı m. Mirzə Salmanı yola gətir, sçotları geri al. Dalısı asandır. Mən gedirəm hədiyyəni təqdim eləməyə. Deyəsən, bura gələn var.

M i n d i l l i. Özüdür.

Q a s ı m. Kim?

M i n d i l l i. Gələcək qayınatam.

Q a s ı m. Cəncəl adamdır. Mən gedim.

Qasım evə gedir. Mindilli bir kənara çəkilir. M i r z ə S a l m a n və Z ə r i f ə içəri girirlər.

M i r z ə S a l m a n. Pah atonnan! Ürəyim elə bil osetin ləzginkası vurur. (*Ətrafa baxır*) Pəh-pəh... Varam Ceyran xanımın səliqəsinə, görürsən? Gözünə su ver!

Z ə r i f ə. Bu işlər hamısı bekarçılıqdandır. Mən istəyirəm ki, evdə bir nizamsızlıq, səliqəsizlik olsun. O daha şairanədir.

M i r z ə S a l m a n. Əlbəttə, ev-eşiklə məşğul olsan, ora-bura kim qaçar, təzə xəbərləri kim eşidər? Özgələrin qızları ali məktəb qurtarırlar, adam olurlar. Amma sən hansı məktəbə getdinsə, kor qız kimi qayıtdın üstümə.

Z ə r i f ə. Ata, burada, özgənin evində məni niyə danlayırsan?

M i r z ə S a l m a n. Evdə səni tapıram ki!

Z ə r i f ə. Sus! Ceyran xala gəlir. (*Bərkdən*) Doğrudan, Ceyran xalanın gözəl səliqəsi var.

C e y r a n x a l a eyvana çıxır.

C e y r a n x a l a. Ay xoş gəlmisiniz... Bayaqdan xörək hazırdır, süfrə açmağa qoymuram ki, Mirzə Salman gəlsin.

M i r z ə S a l m a n (*təntənə ilə baş əyir*). Xeyir işiniz mübarək!

C e y r a n x a l a. Hələ xeyir iş deyil. Qızın məktəb qurtarmağının qonaqlığını verirəm. Gedək evə. Zərifə, gəl səni təzə qonağımızla tanış eləyim, doktordur, bizim şəhərə işləməyə gəlib.

Z ə r i f ə. Doktordur? Ata, gedək, mən təzə doktorla tanış olmaq istəyirəm.

M i r z ə S a l m a n. Siz gedin, mən beş dəqiqə bu havada oturum. Ürəyim qaynar samovar kimi pıq-pıq pıqqıldayır.

C e y r a n x a l a. Gedək qızım, atan da gələr.

Onlar gedirlər. M i n d i l l i yavaş-yavaş Mirzə Salmana yaxınlaşır.

M i n d i l l i. Mirzə, salam!

M i r z ə S a l m a n (*dik atılır*). Bu kimdir? Eh... Sənsən?.. Mindilli, qoy bir axşam dinc oturaq. Yorğunam, iclasdan çıxmışam.

M i n d i l l i. Mən bir söz demirəm ki, Mirzə! İclasda mən də olmuşam, bu evdə mən də qonağam. Qonaq qonağa bir əleykəssalam deməz?

Mirzə Salman. Axşam-axşam nə salam, nə kalam?

Mindilli. Heç dəxli var? Salam məvacibdir ki, ayda iki dəfə verəsən, qurtarsın?

Mirzə Salman. Mindilli qoy oturmuşuq, paroxod körpüyə yan alan kimi, nə mənə yan almısan?

Mindilli. Bir xahişim var, kiçik adamın kiçik xahişi.

Mirzə Salman. Pul yoxdur.

Mindilli. Pul istəmirəm.

Mirzə Salman. Nə istəsən, axırı gəlib pula dirənəcək, yoxdur.

Mindilli. Mən elə şey istəyirəm ki, var.

Mirzə Salman. Yoxdur.

Mindilli. Qoy bir fikrimin çadrasını açım.

Mirzə Salman. Yoxdur. Vay, ürəyim yenə başladı.

Zərifə qaçaraq içəri girir.

Zərifə. Ata, təzə doktorumuzla tanış oldum, gedək səni ona göstərəcəyəm.

Mirzə Salman. Gedək, qızım, qurtar məni bu əzvayın əlindən.

Zərifə. Əzvay kimdir? Hə, Mindilov! (*Yavaşdan*) Bütün günü ilim-ilim hara itmisən?

Mindilli. Qulunam.

Ceyran xala gəlir.

Ceyran xala. Mirzə, içəri buyurun. Gəl görək, ay doktor, qonaqları qəbul elə.

Hamı evə girir, bir azdan Mindilli həyəcan içərisində səhnəyə qaçır.

Mindilli. Qəmər buradadır! Yaxşı ki, məni görmədi. Papağımı da satsam, dörd ilin alimentini verib qurtara bilməyəcəyəm. Yaman yerdə axşamladıq.

Zərifə çıxır.

Zərifə. Mindilov, içəri niyə gəlmirsən?

Mindilli. Hava alıram.

Zərifə. İçəridə də hava var. Gəl orada al.

Mindilli. Oranın havası çox xarabdır, Zərifə, sən bilmirsən.

Zərifə. Küçəyə olan bütün pəncərələri açmışam. Gəl atama bir az mehribanlıq göstər, bu gecə məsələmizi ona açmalıyıq.

Mindilli. Münasib deyil, birdən korlayarıq.

Zərifə. Yoxsa istəmirsən? Gözümə bir cürə dəyirsən? (*Qəmər verandaya çıxır. Mindilli cəld kolların arasında gizlənir*) Gəl, doktorla tanış ol, bəs bu nə oldu?

Qəmər. Kim nə oldu?

Zərifə. Bıy, hara getdi?

Ceyran xala gəlir.

Ceyran xala. Qızlar, gedək qonaqların yanına, hamı yığılıb... (*Zərifə və Qəmər gedirlər. Ceyran xala şüşələri götürdükdə birdən qorxub geri çəkilir*) Bu kimdir?

Mindilli. Özümüzünküyəm. Özgə yoxdur, Ceyran xala!

Ceyran xala. Evin tikilsin, orada neyləyirdin? Qorxdum, a!..

Mindilli. Heç... Saatımın əqrəbi düşüb, onu axtarırdım.

Ceyran xala. Gəl mənə əl yetir, sonra taparsan. Götür pivələri.

Mindilli (*onun arxasınca gedə-gedə*). Vallah, bu gecənin bir xətası çıxacaq.

Otağa girirlər.

Pərdə

ÜÇÜNCÜ PƏRDƏ

DÖRDÜNCÜ ŞƏKİL

Ceyran xalanın otaqlarından biri. Yan otaqda qonaqlıqdır. Gülüş və danışıq səsləri gəlir. Sonra qonaqlar Qasımı əhatə edərək bu biri otağa keçirlər.

Qasım. Üz vurmayın, daha heç bir şey bacarmıram, yamsıladım, fokus göstərdim, daha nə istəyirsiniz? (*Qonaqlar ondan "oyna, oyna" deyə xahiş edirlər*) Hə, oynamağa sözüm yoxdur. Ancaq tək yox, tək oynamaq vəhşilikdir, cüt oynamaq mədəniyyət, Zərifə xanım, xahiş eləyirəm.

Zərifə. Mən bu paltarda oynaya bilmərəm.

Qasım. Əslində elə bu paltarda oynamaq lazımdır. Hamı elə biləcək ki, kəpənək uçur.

Musiqi çalınır. Qasımla Zərifə oynamağa başlayırlar.

B i r q o n a q (*Mirzə Salmana*). Mirzə, gör Qasım nə oynayır.

M i r z ə S a l m a n. İşdə də oynayır, ancaq əlaltı.

B ə n ö v ş ə (*Ceyran xalaya*). Ay ana, bayaqdan soruşmaq istəyirəm, yadımdan çıxır. Bu kişi kimdir?

C e y r a n x a l a. Doğrusu, tanımıram, ay qızım. (*Yavaşdan*) Deyəsən, oğlan evindəndir.

Zərifə bir az oynayıb yan otağa qaçır. Qonaqlar Qasıma əl çalır.

C a m a l (*doyunca güldükdən sonra*). Ay Qasım! Sənin nə məzəli oynamağın varmış.

Hamı yan otağa keçir. Camal da getmək istədikdə, Bənövşə onu saxlayır.

B ə n ö v ş ə. Camal!

C a m a l. Bənövşə can, Qasım qiyamət adamdır. Görürsən, necə işçilərim var?

B ə n ö v ş ə. Görürəm. Elə bu işçilərin haqqında sənlə ciddi danışmaq istəyirəm. (*Camal gülür*) Niyə gülürsən?

C a m a l. Ona gülürəm ki, axır zamanlar hamı mənə bu sözü deyir: "Sənlə ciddi danışmaq istəyirəm". Guya, bu vaxta kimi zarafat eləyirdilər.

B ə n ö v ş ə. Yəqin zarafat eləyiblər. İndi daha bu cür söhbətlər olmayacaq. Sabahdan mən işə başlayıram.

C a m a l. Axı, sənin iş nəyinə lazım idi, ay Bənövşə? Mən belə fikirləşirdim ki, toyumuzu eləyən kimi Bakıya köçərik. Gözəl bir ev düzəldərik. Sən də bu qədər əziyyət çəkmisən. Heç olmasa, beş-on il evdə oturub özünçün istirahət eləyərsən.

B ə n ö v ş ə. Gündüzlər manikürə, portnixaya... Axşamlar kinoya, teatra... eləmi?

C a m a l. Kefin necə istəyir, o cür... Elə də eləyə bilərsən, tərsinə də.

B ə n ö v ş ə. Əlbəttə, tərsinə də ola bilər. Gündüzlər kinoya, teatra, axşamlar manikürə, portnixaya.

C a m a l. İşə düşmədik? Bənövşə, qadası, sən mənə istehza eləyirsən?

B ə n ö v ş ə. Yox, istehza eləmirəm, sənin fikirlərini aydınlaşdırıram. Sən bizim gələcək həyatımızı bir meşşan həyatı kimi təsəvvür eləyirsən.

C a m a l. Özün bil, mən sənə də, özümə də gələcəkdə xoşbəxt bir həyat arzu eləyirdim. Gözəl bir ev... Maşın, dəmli samovar kimi həmişə hazır qapıda. Priyomnik, teatr. Amma sən bunun əvəzində... (*Hirslə ayağa qalxır*)

B ə n ö v ş ə. Əvəzində nə?

C a m a l. Əvəzində, nə bilim, nə? Özün bil, həvəsin yoxdur, olmasın, yaxşı, yenə burada qalıb palçıq tapdayarıq, daş daşıyarıq, ev tikərik. Sən hansı havanı çalsan, mən də oynayacağam. Amma daha təhqir eləmə.

B ə n ö v ş ə. Mən təhqir eləmirəm, səndən haqq-hesab tələb eləyirəm. Hanı, təzə məktəb bitirəndə yeni fikirlərlə qaynayan Camal? Hanı böyük həyat idealları ilə yaşayan Camal, hanı?

C a m a l. Heç nə başa düşmürəm. Necə yəni Camal hanı? Camal budur ey, oturub qabağında.

B ə n ö v ş ə. Mənim qabağımda oturan o Camal deyil.

C a m a l. Deməli, mən Camal deyiləm?

B ə n ö v ş ə. Camalsan, ancaq o vaxtkı deyilsən.

C a m a l. Hə, başa düşdüm. Bilirsən nə var, Bənövşə can? Bu sözlər onu göstərir ki, səndəki məhəbbət ömrünü bizə bağışlayıb. Akt bağlamaq olar. Məhəbbət olan yerdə sual-cavab olmaz ki.

B ə n ö v ş ə. Camal! Hər şeydən əvvəl, sən mühəndissən. Bir mühəndis kimi də mənimlə danış.

C a m a l. Mən baş mühəndisəm, sən də təzə rəis, sabah idarədə qulluğunda hazır dayanaram. Amma indi isə, gəl, bir az səmimi danışaq.

B ə n ö v ş ə. Camal can, mən həyatı sənin kimi iki hissəyə bölmürəm: ev həyatı, idarə həyatı... Evdə səmimi, idarədə qeyri-səmimi.

C a m a l. Sən haradan bilirsən ki, mən idarədə səmimi deyiləm?

B ə n ö v ş ə. Özün deyirsən ki.

C a m a l. Mən deyirəm?

B ə n ö v ş ə. Sən deyirsən. (*Ayağa qalxır*)

C a m a l. Daha bu olmadı.

Camal da ayağa qalxır, onlar hirslə qabaq-qabağa dayandıqda, C e y r a n x a l a içəri girir.

C e y r a n x a l a. Maşallah, şirin-şirin danışın, balalarım, beş il nişanlı qalmaq asan məsələ deyil. (*Camala*) Necəsən, oğul, kefsiz deyilsən ki?

C a m a l. Yox, niyə, kefim çox kökdür.

Bənövşə. Heç qoyarammı ki, kefsiz olsun. Elə deyilmi, anacan?

Ceyran xala. Əlbəttə, elədir. Təki ürəyiniz bir-birinə düz gəlsin. Qoşa qarıyasınız...

Camal. Çox sağ ol.

Ceyran xala. Bənövşə, nişanlın üçün xüsusi şirniyyat bişirmişəm. Gedək, verim gətir.

Bənövşə. Xüsusi şirniyyat bişirmisən? Sən nə yaxşı anasan?!

Camal. Nə zəhmət çəkirsiniz, anacan?! Onsuz da Bənövşə bayaqdan mənə gözəl şirniyyat yedirir.

Ceyran xala. Mən bişirdiyim ayrıdır. Gedək, Bənövşə...

Çıxırlar. Camal durub pəncərəyə yaxınlaşır.

Camal. Mindilli, haradasan?

Mindilli səksəkə içərisində o yan-bu yana baxa-baxa içəri girir.

Mindilli. Hava alırdım, yoldaş Camal.

Camal. Bu qədər hava almaq olar? Xalq orada yeyir, içir, sən quru havanı uda-uda hərlənirsən?

Mindilli. Mən orada hərlənməsəm, qonaqlar burada şənlənməz. Orada mən güllərin, çiçəklərin içində məclis qurmuşam.

Camal. Hə, o ayrı məsələ. Bu qız da gah işdən danışır, gah idarəni qatır araya, heç nə başa düşmürəm.

Mindilli. Yoxsa aranızda söz olub?

Camal. Söz deyəndə... Müfəttişin də akt yazmağı bu günə qaldı. O zəhrimar girdi araya. Hə, bura bax, Mindilli, sən buralarda, əlimin altında ol. Elə ki, gördüm sözümüz düz gəlmədi, stulu tərpədəcəyəm, özünü yetir, aralığa bir söz sal.

Mindilli. Deməli, kənarda gözləyim? Stul tərpənən kimi mən də tərpənim?

Camal. Hə, nə qədər ki, nişanlıyıq, ehtiyat eləyirəm, evlənəndən sonra ayrı məsələ.

Mindilli (*öz-özünə*). Bəs mən necə eləyim ki, Qəmərə rast gəlməyim?

Bənövşə gəlir, Mindilli çıxır.

Bənövşə (*şirniyyatı stolun üstünə qoyur*). Gör anam nə bişirib, üstündə ikimizin də adı var. Otur görək, bayaq söhbətimiz yarımçıq qaldı.

Camal. Yarımçıq qalmalı söhbət idi. Gəl, mövzunu dəyişək.

Bənövşə. Yaxın otur, gör anam səni nə qədər istəyir?

Camal. Ana bu istəməyi qızına da öyrətsəydi, nə yaxşı olardı!

Bənövşə. Qızı öz nişanlısını dünyalar qədər sevir.

Camal. Bax, Bənövşə can, bu cür gözəl sözlərin hərəsinə bir ömür verərəm.

Camal stulu çəkib oturur. Mindilli tələsik içəri girir.

Mindilli. Mən hazır!

Camal. Nə var ki?

Mindilli. Qulağıma stul səsi gəldi.

Camal. Get, get, mane olma.

Mindilli. Yəqin ayağı ilişib. (*Çıxır*)

Bənövşə. Bu da oğlan evindəndir?

Camal. Bizim işçimizdir. Mindilli. Oddur, od.

Bənövşə. Elə Mindillilər, Qasımlar səni bu günə qoyub.

Camal. Evin yıxılsın, Mindilli, gül kimi söhbətimizi gəlib korladı!

Bənövşə. Bu adamlarla plan doldurmaq olar?

Camal. Dedim, o barədə sabah idarədə danışarıq. İşin bura nə dəxli var?

Bənövşə. İş insanın aynasıdır. İşinə verilən qiymət, sənin özünə verilən qiymət deməkdir. Budur, bax (*aktı göstərir*). Oxuduqca, sənin əvəzinə mən utanıram.

Camal. Bənövşə can! Qoy bu aktı-maktı bir tərəfə. Nə maraqla oxuyursan? Nə idi o əsərin adı... Hə, "Hərb və sülh" romanı deyil ki?

Bənövşə. Doğrudan da, "Hərb və sülh" romanı deyil. Sən bütün cinayətlərə qarşı sülh elan eləmisən, hərb olmayıb.

Camal. Öz-özümü işə salmadım? (*Stulu tərpədir*)

Bənövşə. Bütün işlərində böyük nizamsızlıq var.

Camal. Əşi, sənə elə gəlir. O nizamsızlığın özündə böyük bir nizam var... (*Stulu bir az da bərk tərpədir*).

Bənövşə. Nizamlı nizamsızlıq. Əcəb ad tapmısan.

Mindilli içəri girir.

Camal. Tanış ol, Mindilli. (*Mindilliyə*) Yaxın gəl də!

Mindilli. Salaməleyküm, Bənövşə xanım!

Camal. Mindilli mənim sağ əlimdir.

Bənövşə (*gülə-gülə onunla görüşür*). Görəsən, sağ əlin elədiyindən sol əlin xəbəri varmı?

Mindilli. Nə olar ki, Bənövşə xanım, tənqid eləyərsiniz, səhvimizi boynumuza alarıq... Bizə nə var ki?

Bənövşə. Bax, Camal, əsl həqiqəti bu dedi. Sizə nə var ki?

Mindilli. Mən elə uşaqlıqdan həqiqətpərəstəm. (*Camala*) Gedim, dayanım?

Camal. Get, get.

Mindilli gedir. Qəmər bir boşqab meyvə gətirib stolun üstünə qoyur.

Qəmər. Sizin meyvə payınızı gətirmişəm. Heç o tərəflərə, qonaqların yanına gəlmirsiniz. Söhbətiniz çox şirindir, deyəsən?

Camal. Çox şirindir.

Qəmər. Camal qardaş da deyəcək ki, doktor qoymur, iki kəlmə danışaq. Əgər mane oluramsa, üzr istəyirəm.

Bənövşə. Bunlar, bunun sağ əli... hanı o? Səhvlərini boynlarına almağa adət eləyiblər.

Camal. Mən heç vaxt səhvimi boynuma almamışam.

Bənövşə. Bu daha pis.

Camal. Bənövşə, heç olmasa başqasının yanında. (*Hirslə bir tərəfə çəkilir*)

Bənövşə. Nə olar ki?

Qəmər (*yavaşdan*). Bu nədir? Deyəsən, hərbi vəziyyətdəsiniz?

Bənövşə. Camal elə hövsələsiz olub ki... Nə deyirəmsə, acığı tutur.

Qəmər. Bənövşə, biz uşaqlara dərman verəndə həmişə acı dərmana bir az şəkər qatırıq. Sən də elə et. Yox, görsən ki, sözünüz yenə çəp gəlir, bərkdən öskür, mən özümü yetirim. Yaxşı? (*Çıxır*)

Bənövşə (*Camala yaxınlaşır*). Niyə, elə heykəl kimi dayanmısan? Başa düş, mən bu saat işləmək, tikmək, qurmaq həvəsi ilə yanıram. Bu həvəslə beş il mühəndislik oxumuşam. Odur ki, incimə, təyin olunduğum tikinti idarəsini pis kökə salan lap gözümün işığı da olsa, ondan qəti hesabat tələb etməyə haqlıyam.

Camal. Tələb elə ey... sözüm yoxdur... Sabah sənə o qədər kağız göstərəcəyəm ki, tələb eləməyinə peşman olacaqsan. Mən özüm neçə vaxtdır onların içində itib-batmışam.

Bənövşə. Çünki köhnəlmisən, Camal.

Camal. Elə demə, köhnəliklə yaman mübarizə aparıram.

Bənövşə. O mübarizədə sən məğlub olmusan. Köhnəlik sənə qalib gəlib.

Camal. Yenə başladın? Cin vurur başıma... (*Stulu tərpədir*)

Bənövşə. Kağız-kuğuzun içində itib-batdığın üçün işlər bu günə düşüb. (*Öskürür*)

Camal. Mənim işlərimə qarışmağa sənin ixtiyarın yoxdur. (*Stulu tərpədir*)

Bənövşə. Var! Həm də məcburən qarışmalıyam. (*Öskürür*)

Camal. Bir rəis kimi?

Bənövşə. Həm rəis, həm də nişanlı kimi. (*Bərkdən öskürür*)

Mindilli qaçaraq gəlir.

Mindilli. Ceyran xalanın stullarının atası yandı... (*Camala*) Yoldaş Camal, mən buradayam. (*Birdən geri çəkilir*) Yox, mən burada deyiləm. (*Çıxır*)

Qəmər tələsik gəlir.

Camal (*ayağa qalxır*). Yox, mən getsəm, yaxşıdır.

Qəmər. Hara gedirsiniz?

Camal. Doğrusu... Heç bilmirəm neyləyim?

Ceyran xala gəlir.

Ceyran xala. Qəmər, qızım, gedək qonaqlara çay verək. Düzüb-qoşmaqda sən pərgarsan.

Qəmər. Bu saat, Ceyran xala, sən heç narahat olma. (*Gedir*)

Bənövşə. Ana, deyəsən, Qəmərsiz bir dəqiqə dayana bilmirsən?

Ceyran xala. Çox bacarıqlı gəlindir. Sənin ümidinə qalsaydım, işim çətin olacaqdı.

Bənövşə. Ana, heç olmazsa, Camalın yanında demə, elə bilər ki, ev-eşik saxlamağı bacarmıram. (*Yavaşdan*) Onsuz da getmək üçün bəhanə axtarır.

Camal. Bəhanəni mən axtarmıram, sən axtarırsan.

Bənövşə. Mən bəhanə axtarsaydım, institutu bitirən kimi bura gəlməzdim.

Camal. Deməli, mənim xətrimə gəlmisən?

Bənövşə. Bəs kimin xətrinə?

Camal (*ucadan*). Əşi, gah məni isti suya salırsan, gah da soyuq suya.

Ceyran xala. Soyuq su istəyirsən, verim iç. Bu saat həyətdən gətirmişəm.

Camal. Düz deyirsən, Ceyran xala. Soyuq sudan başqa əlacım yoxdur.

O biri otaqdan gülüş və musiqi səsləri eşidilir.

Ceyran xala. Gəlin qonaqların yanına, sizi görmək istəyirlər.

Camal. Gedək.

Yan otağa keçirlər. Bir azdan Mirzə Salman və Zərifə səhnəyə gəlirlər.

Mirzə Salman. O stulu qoy pəncərənin qabağına. Belə ha... İndi mən burada oturub təbiəti seyr eləyəcəyəm.

Zərifə. Ürəyin necədir?

Mirzə Salman. Ürəyim bu saat quş kimi pərvaz eləyir. Nadürüst adam ki, görmədim, həmişə bu cür oluram, kefim kök, damağım çağ.

Zərifə. Onda sən istirahət elə, ata, mən də göz gəzdirim, görək Mindilov hardadır.

Mirzə Salman. Uzaq, uzaq! Sənin nə borcuna? Onun vəkili deyilsən ki? Qoy bir rahat nəfəs alaq.

Zərifə. Heç bilmirəm, niyə sizin ulduzunuz barışmır? Bunların hamısı əsəbdəndir. Mən gərək Qəmərdən xahiş eləyəm, sənin əsəblərini müalicə elәsin. Bilirsən, ata, mən Qəmərlə məktəb yoldaşı olmuşam.

Mirzə Salman. Eh, a qızım, sənin məktəb yoldaşın olmayan var ki? Bircə səni ərə versəydim, məsuliyyət boynumdan götürülərdi.

Zərifə. Utandırma da... Onda sən otur, mən gedim, Qəmərlə danışım.

Zərifə gözü ilə o yan-bu yanı axtara-axtara gedir. Mindilli içəri girir. Mirzə Salmanı görəndə əllərini bir-birinə sürtür.

Mindilli. Mirzə, salam!

Mirzə Salman (*Mindillini görcək pərt olur*). Gündə adama neçə dəfə salam verərlər?

Mindilli. Olanım odur, verirəm... Dost yolunda varımdan keçərəm, Mirzə! Bu gün aramızdan kiçik bir bulud keçdi. Üzr istəyirəm. Biz ikimiz idarənin söykəndiyi qayalarıq. İki qayanın arasından bulud keçər, bununla qayalar bir-birindən küsməz ki?

Mirzə Salman. Sən nə hədərən-pədərən danışırsan? Nə bulud, nə qaya?

Mindilli. Mən təşbehlə danışıram.

Mirzə Salman. Nə ilə danışırsan danış, amma pul söhbəti eləmə.

Mindilli. Qətiyyən. Pula nifrət eləyirəm.

Mirzə Salman. Xərcləyib qurtarandan sonra nifrət eləməyə nə var ki? Haqq-hesabı gətir, təzə rəis təyin olunub.

Mindilli. O mənim xumar gözlərim üstə... Ancaq bir məsələ var.

Mirzə Salman. Nə məsələ? Sən hər məsələ qaldırdıqca, mənim bədənimdə bir xəstəlik artır.

Mindilli. Möhkəm ol, Mirzə Salman! Tarix səhifələrini bir-bir vərəqlə, gör nələr var. Biz iki dünya müharibəsi görmüşük. (*Zərifə ilə Qəmər gəlirlər*) Bir dəqiqəliyə icazə ver, məni telefona çağırırlar. (*Təlәsik çıxır*)

Mirzə Salman. Telefon buradadır, bəs o hara getdi? (*O yan-bu yana baxır, Mindillini görmür*)

Qəmər (*Mirzə Salmana*). Zərifə danışır ki, siz xəstəlikdən şikayət eləyirsiniz.

Mirzə Salman. Məndə altı cür xəstəlik var. Qəmər xanım, yəqin deyəcəksiniz ki, həştaddandır.

Qəmər. Yox, siz qoca deyilsiniz ki. Mənə elə gəlir ki, sizin əsas xəstəliyiniz vasvasılıqdır.

Mirzə Salman. Bəli, siz də təzə bir xəstəlik tapdınız, oldu yeddi.

Qəmər. Zərifə, bəs sən mənə danışmadın, neyləyirsən, harada işləyirsən?

Zərifə. Elə burada, atamla bir idarədə.

Qəmər. Neçə ildir, səni görmürəm, heç bilmirəm hansı məktəbi qurtardın?

Mirzə Salman. Bütün məktəblərdə oxuyub.

Zərifə. Ali məktəbi qurtara bilmədim, bəxtim gətirmədi. Girdim konservatoriyaya... Axı musiqişünas olmaq istəyirdim, amma gördüm yox, o səsə mən davam gətirə bilmərəm... Pianino, skripka, oxumaq səsi başıma düşdü. Qulağımı tutub qaçdım düz tibb institutuna.

Qəmər. Həkimlik oxumusan? Bəs mən səni institutda görmədim.

Zərifə. Haradan görəcəksən, qaçdım, düzdür, ata?

Mirzə Salman. Düz deyir, qaçdı.

Zərifə. Hə, oradan məni düzəltdilər universitetə, ədəbiyyat şöbəsinə. Girdim imtahana... Qəşəng də geyinmişdim. Ponbarxat paltar, zamş tufli, düzdür, ata?

Mirzə Salman. Düzdür, geyinməyinə fikir verəndir.

Zərifə. Hə, acıqlı bir kişi gəldi. Dedilər ki, professordur. Deyinən bu paltara heç gözucu baxdımı? Başladı suallarını bir-birinin dalınca yağdırmağa. Filan kitabı oxuyubsan, filan yazıçını tanıyırsan? Mən ədəbiyyatçı olmaq istəyirəm, kitabı, yazıçını neyləyirəm? Qərəz o qədər zəhlətökən sual verdi ki, bütün ədəbiyyata nifrət elədim. Evə gəlib atama dedim: atacan, sənin qızın universitetdə oxumalı olmadı. Ata, dedim, demədim?

Mirzə Salman. Dedi, dedi. Danışmaqda pərgardır.

Qəmər. Bir ailə-zad düzəltmisən?

Zərifə. Gəl bəri...

Qəməri bir tərəfə çəkir.

Qəmər. Ərin var?

Zərifə. Yox... Bir nəfər var, mənə çox birinci məhəbbətim, axırıncı məhəbbətim deyir, görək, nə olacaq.

Qəmər. Deməli, bu yaxınlarda toydur?

Zərifə. Yox... Mən hələ qəti cavab verməmişəm. Qoy, deyirəm, bir az yanıb-yaxılsın.

Qəmər. Kimdir, mən tanımıram?

Zərifə. Yox, haradan tanıyacaqsan? Bizim öz işçimizdir. Elə təmiz adamdır!

Qəmər. Ehtiyatlı ol, Zərifə. Mən təcrübəsizlikdən yaxşı tanımadığım nalayiq bir adamın toruna düşmüşdüm. Sonra səni də aldadarlar.

Zərifə. Mən ona inanıram... Aldatmaz.

Mirzə Salman (*böyük ekstazla öz-özünə*). Can... Bir fitnə-fellinin, üzü xallının, bir ceyran gözlünün qurbaniyəm mən.

Zərifə və Qəmər onun yanına qaçırlar.

Zərifə (*atasını qucaqlayır*). Atacan, ata!

Ceyran xala gəlir.

Ceyran xala. Mirzə Salman, yenə cavanları nə yığmısan başına?

Mirzə Salman. Təzə doktorumuz məndə bir xəstəlik də tapdı, oldu yeddi.

Ceyran xala. Sən də çox vəsvəsi olma.

Mirzə Salman. Bax, elə ondan tapdı da.

Zərifə. Atamın xasiyyəti lap Bakının havası kimidir: gah gün çıxır, gah bulud olur, gah da xəzri əsməyə başlayır.

Mirzə Salman. Mən neyləyim? Gözümə ki, mərdiməzar adam göründü, ovqatım dəyişir.

Zərifə. Gecənin bu vaxtında mərdiməzar haradadır, ay ata?

Mirzə Salman. Mərdiməzarlar üçün gecə-gündüz yoxdur ki. Belə vaxtlarda mən neyləyim, doktor?

Ceyran xala. Mən onun təhərini sənə öyrədim, Mirzə. Mərdiməzar adam görən kimi gözlərini yum, üzünə baxma.

Mirzə Salman. Bax, bu ağıllı sözdür, lap o cür eləyəcəyəm.

Bənövşə gəlir.

Bənövşə. Qonaqları orada qoyub, niyə hamınız bura yığışdınız?

Ceyran xala. Mirzə Salmandır da.

Qəmər. Bənövşə, gedək, bizimçün pianino çal. Bakıdan çıxanda söz vermişdin.

Zərifə. Düzdür. Bənövşə bacı, deyirlər, çox gözəl çalırsınız.

Bənövşə. Yaxşı, deyirsiniz çalım, ancaq bir şərtlə ki, Qəmər də oxusun... Bilirsən, ana, Qəmər nə yaxşı oxuyur.

Qəmər. Hə, opera, teatr mənimçün məəttəldir.

Ceyran xala. Gedək, biriniz çalın, biriniz oxuyun.

Hamısı o biri otağa keçmək istədikdə, Yusif içəri girir.

Ceyran xala. Oğul, sən haradasan, məclisin axırına gəlib çıxmısan?

Yusif. Mən axşam növbəsində məşğul idim, Ceyran xala.

Bənövşə. Bu qədər gecikmək olar? Gedək içəri.

Qasım və sair qonaqlar çıxırlar. Yusifi görüb dayanırlar.

Qasım. Qonağın ən əzizi hələ indi gəlib.

Mirzə Salman. Bax, ömründə bir dəfə yaxşı söz dedin. Qasım, Yusif doğrudan da əziz qonaqdır.

Ceyran xala. Əziz qonağı qapı ağzında saxlamazlar.

Gedirlər. Pianino çalınmağa başlayır. Telefon zəng çalır. Mindilli çıxıb dəstəyi götürür.

Mindilli. Alo, kim lazımdır? Haradan soruşurlar? Nə var ki? Danışan Mindilovdur. Yaxşı da, acıqlanmaq nə üçün, bu saat çağırım. (*Səsini dəyişərək, çağırır*) Yoldaş Camal, yoldaş Camal!

Camal çıxır.

C a m a l. Nə var, Mindilli?

M i n d i l l i. Telefona, idarədəndir.

C a m a l. Nə idarə? Mən taxtdan düşmüşəm, daha nə istəyirlər? (*Telefonu götürür*) Hə, kimdir? Nə? Maşınlar qayıdıb! Neyləyim qayıdıb? (*Dəstəyi asır, musiqiyə diqqətlə qulaq asmağa başlayır*) Çalan Bənövşədir. Beş il bundan qabaqkı həyatım gəlib dayandı gözümün qabağında. Bənövşə məni bilirsən necə sevirdi? Teatrlara, kinolara gedərdik, bir yerdə romanlar oxuyardıq. Mənim indi yadıma düşdü, Mindilli. Neçə ildir, kinoya getməmişəm, nə qədər vaxtdır ki, əlimə kitab almağa vaxtım olmayıb...

Qəmər oxumağa başlayır.

M i n d i l l i. Oxuyan kimdir?

C a m a l. Qəmərdir... Bənövşənin yoldaşı, doktor, görməmisən?

M i n d i l l i. Haradan görəcəyəm, mən heç arvada, qıza baxanam?

C a m a l (*yenə qulaq asır*). Birinci dəfə mən Bənövşəni pianino çalanda görmüşəm. İnstitutda, musiqi gecəsində... Onda da bu havanı çalırdı.

Camal bir qədər dinləyir, sonra yavaş-yavaş musiqi çalınan otağa keçir. Mindilli onun arxasınca getmək istədikdə, birdən dayanır.

M i n d i l l i. Canım, bu Qəmərin dərdindən Qaçaq Nəbiyə dönməmişəm? Yəqin bura qonaq gəlib. Çıxıb gedincə gözünə görünməsəm, daha ömürlük məni tapa bilməz. Aha, Mirzə Salman gəlir. Nə qədər ki, Qəmərin başı qarışıqdır, sözümü deyim. Mirzə Salman, söhbətimiz yarımçıq qaldı, bıy, ay Mirzə, gözünü niyə yumdun?

M i r z ə S a l m a n. Gözümə görünmə, gözümə görünmə! Qoy həyatdan ləzzət alım.

M i n d i l l i. Axı söhbətimiz yarımçıq qaldı. Mənim yarımçıq iş ilə aram yoxdur.

M i r z ə S a l m a n (*öz-özünə*). Musiqiyə uzaqdan qulaq asmağın ayrı hüsnü var. (*Mindilliyə*) Bura bax, Mindilli, qoy rahat oturum. Yoxsa, canım üçün, səni birtəhər eləyərəm, bu saat eləyəm ki, beş sənin kimisinə birdən cavab verərəm. Əl çək, məni incəsənətdən ayırma.

M i n d i l l i. İndi ki, bu cür mübariz olmusan, onda dur gedək idarəyə, işimizi yenidən quraq.

M i r z ə S a l m a n. Mən heç yerə gedən deyiləm.

M i n d i l l i. Necə yəni gedən deyilsən? Biz iş üçün gecəmizi-gündüzümüzü əsirgəməməliyik. Gedək idarəyə, o verdiyim sçotları qaytar özümə.

M i r z ə S a l m a n. Nəyi qaytarım?

M i n d i l l i. Sçotları deyirəm, qaytar özümə.

M i r z ə S a l m a n. Qaytarmıram.

M i n d i l l i. Əşi, sözümün canı var, bıçaq kimi kəsmə.

M i r z ə S a l m a n. Kəsərəm də, hələ bir-iki metr o yana da gedərəm. Qaytarmıram.

M i n d i l l i. Canım, onları mən bir də gözdən keçirmək istəyirəm.

M i r z ə S a l m a n. Olmaz. Onlar puldur, pul.

M i n d i l l i. İmkan ver, danışım.

M i r z ə S a l m a n. İmkan vermirəm.

M i n d i l l i. Mirzə Salman?

M i r z ə S a l m a n. Çıxart mənim adımı dilindən.

M i n d i l l i. Mirzə, axı, o vəsiqələri sənə mən vermişəm, mən istəyirəm ki... (*Musiqi kəsilir, əl çalırlar*) Nə istədiyimi sonra sənə başa salaram.

Mindilli gedir. Q ə m ə r qaçaraq səhnəyə gəlir. Onun arxasınca Y u s i f içəri girir.

Y u s i f. Qəmər! Siz gərək bir də oxuyasınız. Bu cür gözəl səsiniz olduğunu mən heç bilmirdim.

M i r z ə S a l m a n. Mən də bilmirdim.

Yusif və Qəmər birdən onu görürlər.

Q ə m ə r. Yox, daha oxuya bilməyəcəyəm, yoldaş mühəndis.

Y u s i f. Eşitdiniz, nə gözəl oxuyur, Mirzə?

M i r z ə S a l m a n. Bu mikrob (*o yan-bu yana baxıb Mindillini görmür*) qoydu ki, eşidim.

Y u s i f. Hansı mikrobdur sizi narahat eləyən?

Q ə m ə r. Mikrob gözlə görünən şey deyil ki!

M i r z ə S a l m a n. Bir işçimiz var, mən ona mikrob deyirəm. Yaxşı divanını tutacaqdım, heyf ki, əldən çıxdı.

Y u s i f. Qəmər xanım, Mirzə Salman eşidə bilməyib, gərək bir də oxuyasınız.

Mirzə Salman. Hə, doktor, gərək bir də oxuyasınız.

Gedirlər. Zərifə səhnəyə gəlir.

Zərifə. (*O yan-bu yana baxıb çağırır*). Mindilov. (*Mindilli gəlir*) Gecənin qaranlığında orda niyə dayanmısan? Yoxsa bir gözləmən var?

Mindilli. Səni gözləyirdim. Sən yanımdan gedirsən, elə bilirəm işıqlar sönür, hər yan qaranlıq olur.

Pianino çalınır, Qəmər yenə oxumağa başlayır.

Zərifə. Dayan, bir gör nə gözəl çalınır. Çalan Bənövşədir... Bəxtəvər... İnstitutu, qurtardı, ərə gedir. Mən onun yerində olsam, ömrümdə qulluq eləmərəm.

Mindilli. Ay-hay... Sənin heç nədən xəbərin yoxdur ki... Bənövşə bizə rəis təyin olunub.

Zərifə. Boş-boş danışma.

Mindilli. Sənə söz deyirəm, rəisdir, özü də lap ötkəmindən.

Zərifə. Deyirəm axı, niyə bu evin dörd tərəfinə dolanırsan.

Mindilli. Mən yalnız o evin ətrafına dolanıram ki, içərisində Zərifə adlı bir şam yanır.

Zərifə. Şam!.. Məni bir bu boyda şama oxşadırsan?

Mindilli. Şam olmasın, projektor olsun, lap elektrik stansiyası olsun!

Zərifə. Məni çox sevirsən?

Mindilli. Bütün varlığımla, yoxluğumla.

Zərifə. Məndən başqa heç kəsi sevməyibsən?

Mindilli. Kim, mən?

Zərifə. Sən, bəs kim?

Mindilli. Əlbəttə, heç kəsi. Sən mənim dünyada birinci və axırıncı sevgimsən. (*Musiqi kəsilir, əl çalırlar*) Bağışla, bir dəqiqəliyə məni iclasa çağırdılar. (*Çıxır*)

Zərifə. Əcəb işdir! Birinci və axırıncı sevgidən söz düşən kimi onu iclasa çağırdılar.

Qəmər və Yusif içəri girirlər.

Qəmər. Oxumaqdan lap yoruldum, Yusif əl çəkmir ki, oxu... oxu...

Camal, Bənövşə Mirzə Salman gəlirlər.

Mirzə Salman. Çoxdandır, mən bu cür zövqü-ruhani almamışdım. Yaxşı çalırsan, qızım, doktor da bülbül kimi cəh-cəh vurur.

Qəmər. Çox da tərifləməyin, ay Mirzə.

Mirzə Salman. Bu cür pianino çalan əllər, gör nə gözəl evlər tikəcək. Doktor xəstələrini dərmanla yox, musiqi ilə sağaldacaq. Düz demirəm, yoldaş mühəndis?

Yusif. Düzdür, Mirzə! Doktor gələndən mənim bütün xəstəliklərim öz-özünə sağalıb.

Qəmər (*yavaşdan*). Yusif...

Ceyran xala, Qasım və sair qonaqlar da gəlirlər.

Qasım. Bənövşə xanım, mən bayaqdan məclisin ən duzlu vaxtını gözləyirdim ki, öz ürək sözümü sizə deyim.

Ceyran xala. Yəqin yenə məzəlilik çıxaracaqsınız?

Qasım. Yox, ana, bu səfər sözüm məzə deyil, təzədir. İcazə verin, Bənövşə xanım, bu cür təntənəli gündə ürəyimin ən dərin guşəsindən qopub gələn bir məhəbbəti hədiyyə şəklində sizə təqdim eləyim.

Bənövşə (*təəccüblə*). Siz nə danışırsınız?

Yusif. Nə olub, Qasım? Keflisən, nədir?

Qasım. Xeyr, hədiyyə gətirmişəm. Bənövşə xanıma, üç münasibətlə bir hədiyyə. İnstitut qurtarıb, nişanlısına qovuşub, ali mərtəbəyə çatıb. Üstündə yazılmış şeri də ilhama gəlib özüm demişəm. "Bənövşə xanıma, Gülöyşə xanıma, prorab nökərdir, həmişə xanıma".

Bənövşə. Nə iyrənc adamdır.

Yusif. Bu nə deməkdir, Mirzə?

Mirzə Salman. Ticarətdir, təzə müdiri birinci gündən satın almaq istəyir.

Ceyran xala (*bu sözü eşidib pərt olur*). A kişi, biz sənin üzünü birinci dəfədir görürük. Sən birinci dəfədir bu evə ayaq basırsan. Mənim qızımı haradan tanıyırsan ki, ona hədiyyə də gətirirsən?

Qasım. Eşitmişəm, ana! Eşitdim, xoşbəxt oldum, üzünü gördüm, ikiqat xoşbəxt oldum. Buyurun!

Ceyran xala. Mənə ver, mənə, qızımdan əvəz mən qəbul eləyə bilərəm. (*Götürüb pəncərədən atmaq istəyir*)

Bənövşə. Sağ ol ana, ürəyimdən xəbər verdin.

Q a s ı m. Atma, atma, ay arvad! Bir ətək pul vermişəm, qəbul eləmirsiniz, verin özümə, aparım. Gələcəkdə lazım olar.

Qasım pərt halda hədiyyəni qoltuğuna vurub getmək istədikdə, telefon zəng çalır, ayaq saxlayıb dayanır. Zərifə telefona yaxınlaşır.

Z ə r i f ə. Kimdir gecənin bu vaxtı telefonu dağıdan? (*Telefona*) Kimi? Camal yoldaşı?

C a m a l. Mən yoxam, mən yoxam.

Z ə r i f ə. Deyir ki, mən yoxam. Atamı? Hə, Zərifədir, kimdir? (*Mirzə Salmana*) Ata, səni şofer Hüseyn çağırır.

M i r z ə S a l m a n. Şofer Hüseyn? Bəs o mal dalınca getməmişdi? (*Dəstəyi götürür*) Hüseyn, nə tez qayıtdın? Nə danışırsan? Yaxşı, naryadları heç kəsə vermə, özündə saxla. (*Dəstəyi asır*) Mindilli haradadır?

B ə n ö v ş ə. Nə olub ki?

M i r z ə S a l m a n. Mindilli haradadır? Gör bir nə büsat qopardıb.

Z ə r i f ə. Mən bu saat çağırım, ata, sən əsəbiləşmə. (*Gedir*)

Q ə m ə r. Mindilli kimdir?

Y u s i f. Bizim idarənin bülbülüdür. Camal çalır, o da oxuyur.

C a m a l. Yusif!..

Z ə r i f ə və M i n d i l l i gəlirlər.

M i r z ə S a l m a n. Mindilli, sən materialları bazadan nə vaxt götürmüsən?

M i n d i l l i. Nə baza? Nə material?

M i r z ə S a l m a n. Bura bax, özünü tülkülüyə qoyma, mənim gözümün içinə düz bax.

M i n d i l l i. Mirzə Salman, mənim üstümə çığırmağa sənin ixtiyarın yoxdur!

M i r z ə S a l m a n. Çığıraram, hələ gözünü də tökərəm!

Qəmər Mindilliyə yaxınlaşır.

Q ə m ə r. Qəhrəman, Mindilli sənsən?

M i n d i l l i. Mən... mən, yox, mən deyiləm. (*Qaçmaq istəyir, mümkün olmadığını görüb dayanır... Birdən diz çökür*) Qəmər, bağışla, səhvimi boynuma alıram.

B ə n ö v ş ə. Bu kimdir, Qəmər?

Q ə m ə r. Bu, mənim gənclikdə buraxdığım səhvdir. Mənim qaranlıq keçmişimdir.

M i n d i l l i. Gənclik xətasıdır, yoldaşlar, Qəmər mənim birinci və axırıncı sevgim olub.

Z ə r i f ə. Necə? Birinci və axırıncı sevgin? Bəs deyirdin evlənməmişəm?

M i n d i l l i. Altı aya evlənmək deməzlər ki.

C a m a l. Dur ayağa, dəvə kimi diz çökmə.

M i n d i l l i. Mən bilirdim ki, bu gecənin bir xatası çıxacaq.

P ə r d ə

DÖRDÜNCÜ PƏRDƏ

BEŞİNCİ ŞƏKİL

Tikinti idarəsi. Birinci pərdənin dekorasiyası. Böyük səliqə hiss olunur.

B ə n ö v ş ə içəri girir. Bir az sonra A s l a n daxil olur.

A s l a n. Yoldaş rəis, olar?

B ə n ö v ş ə. Olar... Siz kimsiniz?

A s l a n. Mən sənət məktəbini təzə qurtarmış ustaların briqadiriyəm.

B ə n ö v ş ə. Hə, xoş gördük. Nəhayət, gəldiniz.

A s l a n. Bizim briqadamızı tələb etdiyinizi trestdən elə bu saat dedilər. Həm sevindik, həm də təəccüb elədik.

B ə n ö v ş ə. Bu cür böyük tikintilərdə işləməyə kim sevinməz? Ancaq anlamıram, nə üçün təəccüb eləmisiniz?

A s l a n. Təəccüb eləmişik, ona görə ki, sizdən qabaqkı rəis bizi tamam avara qoymuşdu. Elə hey deyirdi ki, plan doldururam, başım qarışıqdır, sonra gəlin. Guya biz bura işləməyə yox, oynamağa gəlirdik.

B ə n ö v ş ə. Sizin briqada üzvləriniz hanı?

A s l a n. Bu saat hamısı yığılar. Odur, oxuya-oxuya gəlirlər.

B ə n ö v ş ə. Hamı yığışanda mənə xəbər verin, işə başlamamışdan qabaq sizinlə söhbət aparacağam.

A s l a n. Mən özüm də bunu sizdən xahiş eləmək istəyirdim. İcazə verin gedim, hamı toplaşanda sizə xəbər verərəm.

Bənövşə. Yaxşı, gedin. (*Aslan gedir. Bənövşə telefonun dəstəyini götürür*) Mənə ikinci obyekt lazımdır. Kimdir? Yusif, sizsiniz? Nə oldu, gətirdilər? Bura gəlirsiniz? Gəlin. (*Ayrı telefonla*) Tresti verin. Yoldaş Əliyev! Xahiş eləyirəm, bizə ayırdığınız bütün texniki vəsaiti bu gün verəsiniz mənim sərəncamıma. Təşkil eləyərəm bir gündə daşıyarlar. Bir-bir deyin, qeyd eləyirəm. (*Telefona qulaq asa-asa bloknotuna qeydlər eləyir. Camal içəri girir*)

Camal (*portfelə diqqətlə baxır, sonra onu stolun üstünə atır*). Sənninlə də aramızda bir şey qalmayıb, bu gün haqq-hesabı üzürük. Bu günə kimi kişi qoltuğunda gəzirdin, indi düşdün arvad qoltuğuna.

Bənövşə. Yaxşı, sağ olun! (*Dəstəyi asır*) Camal, sən təhvil-təslim məsələsini çox uzadırsan, tez qurtar, gələcək işlərimiz haqqında qəti qərara gələk.

Camal. Yaxşı, Bənövşə can, bəs biz ailə məsələmiz haqqında nə vaxt qəti qərara gələcəyik?

Bənövşə. Mən o işdə böyük bir dönüş yaratmaq fikrindəyəm.

Camal. İdarədə dönüş, ailədə də dönüş? Məni onsuz da döndərib başıaşağı qoymusan. Sonra nə olacaq?

Bənövşə (*gülür*). Başıaşağı dayanmaq yaxşı deyil axı. Mən istəyirəm ki, əvvəllərdə olduğu kimi başı yuxarı dayanasan.

Camal. Olsun da... Gah başıaşağı, gah başıyuxarı, lap fırfıra kimi.

Yusif və Qasım içəri girirlər.

Bənövşə. Yusif! Bu saat trestin göndərdiyi maşınları təhvil alırıq. Onları qurmaq üçün mühəndis yoldaşlardan bir neçəsini ayırmışam. Siz harada neyləmək lazım gəldiyini göstərin!

Qasım. Mən özüm başlarının üstündə dayanaram, vəzifəm nədir? Deyir ki, "muzdur, düz dur!".

Qasım gülür, heç kəs bu gülüşdə iştirak etmir.

Bənövşə. Kimin nə iş görə biləcəyini mən yaxşı bilirəm, Yusif! Çox az vaxt vermişəm, onu nəzərdə tutun.

Yusif. Çertyojlar hamı?

Bənövşə. Budur, diqqətlə oxuyun. Bu vaxta kimi bu çertyojların ipini də açmayıblar, ona görə kran qurban olub prorabın ala gözlərinə.

Qasım. Bənövşə xanım! Mənim gözlərim ala deyil.

Bənövşə. Bilmirəm, rəngini başa düşmək olur ki!

Yusif. Ola bilməzmi, iki briqada ayıraq, ikisi bir zamanda işə başlasın? Həm vaxta qənaət olar, həm də tez başa gələr.

Bənövşə. Öhdəsindən gələ bilərikmi?

Yusif. Bəli! Arxayın olun. Hər ikisinə özüm göz olaram. (*Çıxır*)

Camal. Bənövşə, mən beş il bu sənətdə can çürütmüşəm, plan doldurmağın elmini bilirəm. Bu saat sən maşına-zada vaxt sərf eləmə, daşı-daş üstünə qoy, gözə görünsün. Mən də qollarımı çırmayıb düşüm ortaya, istəyirsən, lap palçıq tapdayım, əhəng daşıyım.

Bənövşə. Camal, bundan sonra ağır işlərin hamısını maşın görəcək. Sənin paslandırdığın maşınların hamısından istifadə edəcəyik. İş qaydasını dəyişirik. Briqadaları təzədən qururuq. Hər kəs öz ixtisasına görə işləyəcək. Daha sənin vaxtında olan kimi malakeş taxta daşımayacaq.

Camal. Əşi, nə ixtisas, nə razryad! Qoy araba yerindən tərpənsin, dalı asandır.

Qasım. Mənə bir göstəriş verin, gedin oturun evinizdə, ayrı iş ilə işiniz olmasın. Ayın axırında telefonla soruşun: "Qasım, necədir?" Yüz deməsəm, bu qaşları qırxdıraram.

Bənövşə. Ay yoldaş prorab, mən bu gün bütün tikintiləri gəzdim, sizin kiçik bir göstəriş verdiyinizi də eşitmədim. Sizin adınız gələndə həm mühəndislər, həm də fəhlələr dad çəkirlər. Buna nə deyirsiniz?

Qasım. Nə deyəcəyəm? İgidin gərək adı dillərdə gəzsin.

Bənövşə. Yoldaş Qasım, siz zarafatla başınızı qurtara bilməyəcəksiniz.

Qasım. Bilirsiniz, yoldaş rəis, ortada düşmənçilik var, bu söhbətlər ondandır. Mən qoymamışam ki, bu idarədə özbaşınalıq olsun.

Bənövşə. Bəlkə tərsinə?

Qasım. Məncə, bu cür danışmağınız yaxşı deyil. Biz ikimiz həmkarıq. Mən də özümə görə bir mühəndisəm axı.

Bənövşə. Siz çoxdan mühəndissiniz?

Qasım. Başımın tükü sanı ev tikmişəm.

Bənövşə. Məktəbi nə vaxt bitirmisiniz?

Qasım. Şeydir... 46-da bitirmişəm.

Bənövşə. Bakıda?

Qasım. Şeydir... Əlbəttə, Bakıda. Daha harada olacaq ki?

Bənövşə. Onda gərək Camal sizi tanımış olsun. 46-da Camal institutda oxuyurdu.

Camal. Bəs mənə deyirdin Saratovda oxumuşam?

Qasım. Şeydir... Əvvəlcə Bakıda oxuyurdum, sonra keçdim Saratova. Bakının havası sinəmə düşmədi.

Bənövşə. Maraqlıdır, diplomunuz bizdədir?

Qasım. Yox, sizdə niyə olur? Tər töküb diplom almışam, idarələrdə qoymayacağam ki! Evdə, qırmızı qutunun içindədir.

Bənövşə. Zəhmət çəkin, onu gətirin baxım.

Qasım. Gətirərəm... Ancaq siz nahaq məni bu qədər sıxışdırırsınız, yaxşı deyil. Axı mən Camal ilə qardaş olmuşam, çörək kəsmişəm. Qaydadır, hər müdir təzə işə gələndə özünü göstərmək üçün idarəyə bir əl gəzdirir. Ancaq siz nahaq bunu Camalın dostlarından başlayırsınız.

Ağlamsınır, gözlərini silib çıxır.

Camal. Nahaq incitdin, Bənövşə can, Qasım qızıl kimi oğlandır.

Bənövşə. Bu qızıl kimi oğlanlar səni dövlət qarşısında mis kimi qızardıblar. Bundan xəbərin yoxdur!

Camal. Bənövşə! Bu hesabların axırı nə olacaq? Mən sənin nişanlınam, yaxın yoldaşınam, ya düşmənin?

Bənövşə. Məndən heç bir mərhəmət gözləmə, Camal!

Camal. Mənim heç kəsin mərhəmətinə ehtiyacım yoxdur. Ancaq mənimlə danışanda arabir barmağındakı üzüyə də bax.

Bənövşə. Bütün bu dolaşıq məsələləri bir nişan üzüyü həll eləyə bilməz.

Camal. Demək, o üzüyü sən beş il barmağında nahaq gəzdirmisən? Qoy elə olsun. Ancaq bu idarədə mənim də səsim var. Bir baş mühəndis kimi, sənin bu başladığın yeniliklərin çoxu ilə mən razı deyiləm. Bunlar modadır, xarici görkəm üçündür. İş isə görünmür. Neçə gündür Yusifin obyektində yarım metr daş qoyulmayıb. Bu işlər üçün siz müqəssirsiniz, mən yox.

Camal qapını çırpıb çıxır. Mirzə Salman içəri girir.

Mirzə Salman. Heç bilmirəm, bu qapıların nə təqsiri var. Tənqid bir az da güclənsə, hamısı həngaməsindən çıxacaq.

Bənövşə. Mirzə, yoxladınız?

Mirzə Salman. Yoxladım. Kim isə bizim vəkalətnamə ilə materialları alıb, ancaq apara bilməyib.

Bənövşə. Demək, mallar getməyib?

Mirzə Salman. Yox, bu gün səhər tezdən gəlib aparacaqlarmış. Vaxtında qabağını aldıq. Vəkalətnamə tamamilə ayrı bir adamın adınadır. Ancaq, altında bizim peçat. Camalın da qolu.

Bənövşə. Bunları mən deyəndə Camalın acığı tutur, qapını çırpır. Mindillinin sçotları sizdədirmi?

Mirzə Salman. Məndədir.

Bənövşə. Onları qəbul eləməmisiniz ki?

Mirzə Salman. Yox, hamısı uydurmadır.

Bənövşə. Günü bu gün yazın prokurora.

Mirzə Salman. Bax, buna varam.

Bənövşə. Sonra, Mirzə, bizdəki texniki alətlərin mükəmməl siyahısını düzəldib mənə verin. Gedək, sizinlə əldə olan inşaat materiallarını gözdən keçirmək istəyirəm. Üreyiniz necədir?

Mirzə Salman. Saz, maşın kimi. Necə olacaq?

Mirzə Salman və Bənövşə gedir. Mindilli kefsiz gəlib oturur, yeşikdən bir dəstə kağız çıxarıb baxır. Pərişandır. Bir səs gələn kimi diksinir, əsəbiləşir. O, birdən-birə böyük fəlakətə düçar olmuş adamlar kimidir. Qabağındakı kağızlara baxıb nə isə donquldanır. Bir azdan Zərifə içəri girir, atasının stolu tərəfə baxır.

Zərifə. Atam hanı? Yeməyi qoyum stolun üstünə, gələndə götürər. (*Gətirdiyi yeməyi atasının stolunun üstünə qoyub geri döndükdə Mindillini görür*) Hə, Mindilli, birinci və axırıncı məhəbbətin necədir? Qəmər səni məhkəməyə verir, dörd ilin alimentini borclusan.

Mindilli. Mən, məhkəmə? Gör iş nə yerdədir ki, Mindilovu məhkəməyə verirlər! Axırda qadın əlində məhv oluram, nə şərəfsiz ölümdür.

Zərifə. Hələ məhkəmənin sədri də qadındır.

Mindilli. Füzuli rəhmətlik haqlı imiş. O deyib ki, "Ax, qadınlar, qadınlar!"

Zərifə. Nə olsun ki? Sonra?

Mindilli. Sonrasını yazmağa arvadı qoymayıb.

Zərifə. Lap ağıllı iş görüb. Arvadlar elə o vaxtlardan kişiləri düz yola çəkirlərmiş. Məni aldadan adam hələ bu dünyaya gəlməyib. Çox tez kələklərinin üstü açıldı. Birinci və axırıncı məhəbbət!

Mindilli. Məhəbbət? Hanı məhəbbət, məhəbbət yoxdur.

Z ə r i f ə. Niyə yoxdur? Budur, bax, yazdığın məktublar cibimdədir.

Onun məktublarını göstərir.

M i n d i l l i. Ver onları, yandırıb külünü havaya sovurum. Məhəbbət yoxdur, aliment var, məhkəmə var.

Z ə r i f ə. Bu məktublar da mənə məhkəmə üçün lazımdır.

Zərifə qapını çırpıb çıxır. Mindilli yenə diksinir.

M i n d i l l i. Başa düşmədim. Deməli, bu da məni məhkəməyə verir? Bəli, bu oldu iki məhkəmə. Ah, Qəmər, Qəmər! Mən haradan biləydim ki, sən gələcəkdə, həqiqətən, həkim olacaqsan, bu cür gözəlləşəcəksən. Onda sən nə idin, arıq, kasıb bir tələbə. (*Zərifənin gətirdiyi yeməyə tərəf baxır*) Bu yeməyin də nə yaxşı iyi var. Qoy görüm, qız atasına nə gətirib.

Stolun üstündəki qazanı açır, yeyəndə M i r z ə S a l m a n içəri girir. Mindilli cəld ayağa qalxır.

M i r z ə S a l m a n. Mənim stolumun başında durub nə çeynəyirsən?

M i n d i l l i. Hirsimdən dil-dodağımı çeynəyirəm.

M i r z ə S a l m a n. Hirslənmək nə üçün? Təqsir özündədir. Səni məhkəməyə veririk. Təzə müdirin əmridir.

Mirzə Salman yeşikləri açarla bağlayır. Bir dəstə kağız götürüb çıxır.

M i n d i l l i. Bəli, bu da üç. Məhkəmə sədri üç, ancaq Qəhrəman bir. Amma nə ləzzətli yeməkdir. Yəqin Zərifə bişirib. İyindən başa düşdüm. Çox bişirib, gətirib yemişəm. Nə qədər ki, burada işləyirdim, yeyəcəkdim də... Heyf, ürkütdülər. İndi məni görəndə dəli ceyran kimi vaz atıb qaçır.

Q a s ı m içəri girir.

Q a s ı m. Buradasan? Kefindən qalmırsan. Arvadını həyətdə gördüm.

M i n d i l l i (*ağzı dolu*). Kimi? Məryəmi?

Q a s ı m. Mən doktoru deyirəm, onun adı Qəmər deyil? Bəs Məryəm kimdir?

M i n d i l l i. Qorxumdan tikəmi çeynəməmiş uddum. Məryəm, Qəmərdən əvvəlki arvadımdır. Qəmərə nə var ki? Mədəni bir qadındır, uzaq başı məni məhkəməyə verəcək. Amma Məryəm, aman, aman!

Q a s ı m. Aşna, ondan qorxursan, deyəsən?

M i n d i l l i. Canın üçün, Qasım, aramızdakı səmimiyyət haqqı, Allahdan o qədər qorxmuram, nə qədər ki, Məryəmdən qorxuram. Axırıncı dəfə ona vağzalda rast gəldim. Bir haray saldı ki, az qala vağzalı uçurdacaqdı... Tavarını vaqona özümü salmasaydım, yaxamı qurtara bilməyəcəkdim.

Q a s ı m. O sənin birinci arvadındır?

M i n d i l l i. Yox, birinci arvadım Cavahirdir. Allahın yazığıdır, hələ də evdə oturub məni gözləyir, tez-tez falçıya gedir, fala baxdırır. Ondan sonrakı Dusyanın mənimlə işi yoxdur. Harada qulluğa girsəm, məvacibimin başını bağladır, iyirmi beş faizini alır. Amma Məryəm... gözlər görməsin. Elə çığırmağı var ki, pojarnı maşın onun yanında elə bil yetim quzudur, mələyir.

Q a s ı m. Cəmisi üst-üstə gələndə neçə uşağın var?

M i n d i l l i. Dörd dənə, hər arvaddan biri.

Q a s ı m. Oho, böyük təsərrüfatın var ki... Neçəsi oğlandır, neçəsi qız?

M i n d i l l i. Onu hələ yaxşı müəyyənləşdirməmişəm. Gərək öyrənəm. Məhkəmədə-zadda soruşarlar, bilmərəm. O da bir maddə olar. Deyirsən, Qəmər həyətdədir?

Q a s ı m. Hə, bizim rəis xanımı axtarırdı. Gördün dünən onun anasının mərifətsizliyini?

M i n d i l l i. Hədiyyəni deyirsən? Yaxşı ki, atmağa qoymadın, yoxsa xıncım-xıncım olardı.

Q a s ı m. Sınmağının eybi yoxdur, ancaq pərtlik olacaqdı, yaxşı iş görmür də. Heç eybi yoxdur, nə olar? Bizim də əlimizə imkan keçəcək, yox? Bəs o nə idi, sənin başına gətirdilər?

M i n d i l l i. Gördün də.

Q a s ı m. Qəsdən düzəltmişdilər. Ürəyini sıxma, elələrini görə-görə gəlmişik. Mənə də Qasım deyərlər, qorxma, dalında dağ kimi durmuşam. Nə oldu? Sçotları qoparda bildin?

M i n d i l l i. Eh... Mənim özümü qopartmasalar yaxşıdır.

Q a s ı m. Qorxma, qəhrəman ol. Birinci dəfə deyil ki?

M i n d i l l i. Bilmirəm, Bənövşə xanıma necə yol tapım.

Q a s ı m. Yeganə körpü Camaldır.

M i n d i l l i. O körpü özü xarab olub, laxlayır.

Q a s ı m. Nə qədər laxlasa, yenə bizi üstündə saxlayar. Pulların hamısını qaytar kassaya. Onda məhkəmə əhəmiyyətini itirər.

M i n d i l l i. Pul, pul... hanı pul? Bəs mən onun ovçusu deyiləm?

Q a s ı m. Pul, bir dənə kağızın başında.

M i n d i l l i. Nə kağız?

Q a s ı m. Ağappaq bir kağız.

M i n d i l l i. Sən məni işə salacaqsan!

Q a s ı m. Mən səni işdən çıxartmaq istəyirəm. (*Pəncərədən baxır, birdən həyəcanla*) Bura gəlirlər. Bizi işsiz görməsinlər, gəl başlayaq.

M i n d i l l i. Başlayaq.

Hər ikisi əllərinə qovluq götürürlər.

Q a s ı m. Min üç yüz əlli dörd.

M i n d i l l i. Tapdım.

Q a s ı m. Yanına bir quş qoy.

M i n d i l l i. Bu da quş.

Q a s ı m. Min üç yüz əlli beş.

M i n d i l l i. Tapdım.

Q a s ı m. Yanına quş qoy...

M i n d i l l i. Qoya bilməyəcəyəm, yoxdur.

Q a s ı m. Göyə uçdu? Necə yoxdur?

M i n d i l l i. Heç kəs yoxdur, qulağın aldanıb.

Q a s ı m. Aldanmayıb. Yusif gəlir. Onu ayağının səsindən tanıyıram.

M i n d i l l i. Onda, de gəlsin.

Y u s i f içəri girir.

Q a s ı m (*bərkdən*). Beş yüz yetmiş, tapdın?

M i n d i l l i. Əlbəttə, tapdım, mənim gözümdən beş yüz yetmiş yayınar?

Q a s ı m. Yanına quş qoy.

M i n d i l l i. Lap istəyirsən təyyarə qoyum.

Y u s i f onlara yaxınlaşır.

Y u s i f. Siz çox ləng işləyirsiniz. Nə işlətdiyimizi, nə qədər işlədiyimizi təyin eləyə bilmirik.

Q a s ı m. Görürsən ki, gecəni qatmışıq gündüzə.

Y u s i f. Görmürəm. Siz neçə gündür ki, bu kiçik tapşırığı yerinə yetirmirsiniz. Yəqin sərfəli deyil.

M i n d i l l i. Yusif, atmaca ilə danışma.

Q a s ı m. Dur gedək, xatadır bununku.

Y u s i f. Əlbəttə, ortada bir xata var.

M i n d i l l i (*qovluqları yığır*). Canını da qoyursan, yenə bir qiymət qoyan yoxdur.

Q a s ı m. Xalq özü qiymət qoyacaq.

Mindilli ilə Qasım çıxırlar. Yusif geri dönmək istədikdə, içəri girən Q ə m ə r l ə rastlaşır.

Y u s i f. Qəmər! Siz burada neyləyirsiniz?

Q ə m ə r. Bənövşə sizin tibb məntəqənizi yoxlamağı məndən xahiş eləmişdi. Bura haradır? Bənövşənin kabinetidir?

Y u s i f. Hamının stolu burada, bu iki otaqdadır. Dünənki gəzintidən sonra yorulmadınız ki?

Q ə m ə r. Bütün şəhəri gəzdiyimizə baxmayaraq, heç yorulmadım. Çünki o qədər yenilik gördüm ki... Yeni evlər, yeni idarələr... Hamısı yeni... Gecədən xeyli keçənə qədər yatmayıb, bu yeni şəhər haqqında düşünmüşəm.

Y u s i f. Mən də yatmamışam. Sizin haqqınızda düşünmüşəm.

Q ə m ə r. Mənim haqqımda? Nə düşünmüsünüz?

Y u s i f. Keçən günləri... O sevgi və səadət günlərini düşündükcə təzədən yaşamağa başlayıram.

Q ə m ə r. Mənə o sözlər daha yaraşmır, Yusif!

Y u s i f. Nə üçün? Sizə o sözlər həmişə yaraşır, Qəmər. O hisslərin, o həyəcanların mənim ürəyimdə çox dərin kökü var. Sizi görən kimi yenidən göyərməyə başlayıb.

Q ə m ə r. O vaxt mən təcrübəsizdim, həyatı yaxşı anlamırdım, odur ki, məni tez aldatdılar, qəlbimizdə yetişən o sevgi çiçəklərinin üstünə kölgə saldılar.

Y u s i f. İndi kölgə çəkilən kimi bütün qönçələr təzədən açılmağa başlayır, Qəmər!

Pəncərədən çağırırlar: "Yoldaş mühəndis! Yoldaş Yusif! Sizi Bənövşə bacı çağırır"

Y u s i f. Məni çağırırlar, Qəmər! Siz bura gələndən sonra necə işlədiyimi bilmirəm. Elə bil, göyün yeddinci qatındayam.

Yusif Qəmərin əlindən tutur, qapıdan əyilib onlara gizli tamaşa edən Mindilli özünü saxlaya bilməyib, səhnəyə yıxılır. Yusif özünü itirib səhnədən çıxır. Qəmər təəccüblə o yan-bu yana baxır.

M i n d i l l i (*qalxıb üst-başını çırparaq yaxınlaşır*). Mən... Mən...

Q ə m ə r. Bu yıxılan sən idin?

M i n d i l l i. Mən səni atdığım gündən yıxılmışam, Qəmər can!

Q ə m ə r. Dörd ilin alimentini borclusan, səni məhkəməyə verirəm.

M i n d i l l i. Eşitmişəm, dözürəm, çünki sevirəm.

Q ə m ə r. Pulu sevirsən, gündə bir yalan söz danışmağı sevirsən, eləmi?

M i n d i l l i. Qəmər can! İcazə ver, qayıdım öz yuvama, qızımızı özüm yedirib-içirdim, özüm tərbiyə eləyim. Qoy biz məhkəmələrdə yox, yumşaq divanların üstündə sənlə söhbət eləyək!

Q ə m ə r. Başa düşdüm, məhkəmənin dərdindən bu oyunu çıxarırsan. Qorxma mənim qızımın sənin bir qəpiyinə də ehtiyacı yoxdur. Hətta, məhkəmədə də mən sənlə üz-üzə gəlmək istəmirəm.

M i n d i l l i (*arxayın, dərindən nəfəs alır*). Çox gözəl. Məsələnin biri həll olundu. Bəs o biri?

Q ə m ə r. O biri hansıdır?

M i n d i l l i. Sevgi, məhəbbət, eşq.

Q ə m ə r. Çəkil! Burada sənə yaxşı ad qoyublar: Mindilli. Doğrudan da sənin min dilin var. Ancaq min deyil, milyon da dil töksən, xeyri yoxdur. İnsan bu cür ağır səhvi həyatda yalnız bir dəfə eləyə bilər. Onun üçün də bütün ömrüm boyu əzab çəkirəm. Bəsdir, kifayətdir.

M i n d i l l i. Deməli, belə?

Q ə m ə r. Belə.

M i n d i l l i. Deməli, kifayətdir?

Q ə m ə r. Kifayətdir.

M i n d i l l i. Çox gözəl, deməli, Yusif məndən yaxşıdır?

Q ə m ə r. Heç müqayisə eləmək mümkün deyil.

M i n d i l l i. Bənövşə xanım da elə deyir.

Q ə m ə r. Təkcə Bənövşə xanım yox, hamı elə deyir.

M i n d i l l i. Yox, Bənövşə xanım, xüsusən. Yusif bu saat dönüb olub səbəb.

Q ə m ə r. Nə?

M i n d i l l i. Səbəb. Sənin mənimlə bu cür danışmağına səbəb, Bənövşə xanımın nişanlısı ilə pozuluşmağına səbəb, Camalın işdən götürülməyinə səbəb.

Q ə m ə r. Bəlkə, sənin də işdən götürülməyinə səbəbdir?

M i n d i l l i. Bəlkə də... Ümumiyyətlə, Yusif bu saat səbəbdir. Camal yazıq gərək başına bir əlac eləsin. Qulluq getdi, nişanlı getdi.

Q ə m ə r (*hirsli halda*). Kəs, onlara böhtan atma! Sənin bu dediklərinin hamısı alçaq bir iftiradır. (*Getmək istəyir*)

M i n d i l l i. Öz gözünlə görsən, inanarsan ki... Dayan getmə. Bəs mənə bir söz demədin?

Q ə m ə r. Axır sözüm budur: mən bütün dünyalar qədər sənə nifrət eləyirəm. (*Gedir*)

C a m a l, Q a s ı m Z ə r i f ə içəri girirlər.

C a m a l. Deyir, təhvil ver, buyur, bu da təhvil. Mən baş mühəndisəm. Mənə kağız-kuğuz lazım deyil. Zərifə, götür Mindilliylə bir yerdə bunları saf-çürük elə.

Z ə r i f ə. Yoldaş Camal, kiminlə deyirsiniz hazıram, ancaq o adını çəkdiyiniz adamla yox.

Q a s ı m. Mənimlə necə, Zərifə xanım?

Z ə r i f ə. Nə olar ki? Heç olmasa, sənin min dilin yoxdur.

Onlar kağızlara baxırlar.

Q a s ı m. İcazə verin, aparıb arxayın yerdə məşğul olaq. Elə deyilmi, Zərifə xanım?

Z ə r i f ə. Nə olar ki? Heç olmazsa sənin yalan danışmağın yoxdur.

Çıxırlar.

C a m a l (*Mindilliyə*). Bənövşə haradadır?

M i n d i l l i. Təzə rəisi soruşursunuz?

C a m a l. Mən Bənövşəni soruşuram.

M i n d i l l i. Onda daha Bənövşəlik qalmayıb ki, o indi dönüb olub tikanlı gül.

C a m a l. Deyəsən, tikanları sənə bərk batır!

M i n d i l l i. Təkcə mənə batmır. O gülü yetişdirən bağbanın da əlləri qan içindədir.

C a m a l. İndi daha sən mənimlə ayrı cür danışırsan, Mindilli?

M i n d i l l i. Əstəğfürullah! (*Durub ona yaxınlaşır*) Mən Mindilovam. Dostluqda vəfalı olmaq mənim əsas ixtisasımdır. Siz bu hadisələrə bir dırnaq qədər də fikir verməyin. Böyük adamların həyatında titrəyiş

olar. Yəni insan həmişə qabağa gedə bilməz ki? Bir yerdə də dayana bilər, bir-iki addım geri də çəkilə bilər.

C a m a l. Bəs sən mənə cavab vermədin? Bənövşə haradadır?

M i n d i l l i. Harada olacaq? Yusifin yanında.

C a m a l. Bu nə sözdür? Mən səndən soruşmuram kimin yanındadır.

M i n d i l l i. Siz soruşmasanız da demək mənim borcumdur. Dostumun qeyrəti mənim qeyrətimdir.

C a m a l. Saxla... De görək, nə var?

M i n d i l l i. Səhər bir yerdə, günorta bir yerdə, axşam bir yerdə. Yusif də subay oğlan... Siz də belə, stul tərpətməkdən yoruldunuz. Adamın ürəyinə min cür ilan-qurbağa dolur.

C a m a l. Bu saat yenə bir yerdədirlər?

M i n d i l l i. Budur, bax. (*Pəncərədən göstərir*) Orada dayanıb özləri mənim sözümün altından möhür vururlar.

C a m a l. Qan vurdu başıma, əşi, bu mədəniyyət bizi yıxmadı?

Getmək istədikdə, A s l a n onun qabağına çıxır.

A s l a n. Yoldaş baş mühəndis, dedilər, bizi soruşmusunuz. Mən Aslanam.

C a m a l (*hirsli halda*). İstər lap pələng ol. (*Gedir*)

A s l a n (*Mindilliyə*). Bu nə hirsli adamdır?

M i n d i l l i (*hirsli halda*). Mən qarışan iş deyil. (*Gedir*)

B ə n ö v ş ə və M i r z ə S a l m a n gəlirlər.

B ə n ö v ş ə. Hə, Aslan, nə oldu? Briqadan yığıldı?

A s l a n. Yığılırlar, yoldaş rəis! Hamı hazır olanda sizə xəbər verəcəyəm. Ancaq hələ tapşırıq almamışıq, işi bizə tanıtsınlar ki, vaxtı çatan kimi başlayaq.

Aslanın briqadasından üç-dörd nəfər gəlir.

B ə n ö v ş ə. Qalxın dördüncü mərtəbəyə, Yusif də bu saat ora gələr.

B i r f ə h l ə. Mən oranı gəzdim, usta, bir səliqəsizlik var ki, necə işləyiblər, bilmirəm.

A s l a n. Eybi yoxdur. Biz orada səliqə düzəldərik. Sənət məktəbini qurtarmış cavan ustaların məharətini göstərərik. İcazə verin, obyektimizə çıxıb, qabaqcadan iş yeri ilə tanış olaq, yoldaş rəis.

B ə n ö v ş ə. Yaxşı yol! Müvəffəqiyyətlər arzu eləyirəm!

A s l a n. Sizin arzunuz yerinə yetiriləcəkdir!

Aslan və fəhlələr çıxırlar, onların oxumaq səsi eşidilir.
Camal ilə Mindilli qayıdırlar.

C a m a l. Bütün kağız-kuğuzları tökdüm Qasım ilə Zərifənin qabağına. Nizama salıb təhvil verəcəklər.

M i r z ə S a l m a n. Hansı kağızları Qasıma tapşırmısınız?

B ə n ö v ş ə. Quzuları qatıb qurdun qabağına ki, apar otar. Onlar haradadırlar?

C a m a l. Əşi, siz də həddindən artıq sayıqlıq göstərməyin! Köhnə kağızları Qasım yeməyəcək ki. Yanında Zərifə də var.

M i n d i l l i. Qasımda bir iştaha var ki, kağızları da yeyər, hələ, üstəlik, Zərifəni də.

B ə n ö v ş ə. O kağızlara bir baxım. (*Çıxır*)

C a m a l. Qəribə işdir, özüm onları nizama salmayacağam ki? Bu, mühəndis işidir?

Bənövşənin arxasınca gedir.

M i r z ə S a l m a n. Bu boş qazanı bura kim qoyub? (*Mindilli cavab vermir*) Mən bu qazanı soruşuram, kim qoyub?

M i n d i l l i. Bilmirəm. Mən burada deyildim, indicə gəlmişəm.

M i r z ə S a l m a n. Qəribə işdir, bizim qazana oxşayır. Bəs niyə boş?

M i n d i l l i. Ay Mirzə, sən də bu qazan məsələsini lap prinsipial yüksəkliyə qaldırdın. Bəlkə səhv olub.

M i r z ə S a l m a n. Mətləb xörəyin yeyilməyində deyil. Bu gün mənim stolumun üstündən icazəsiz yemək götürüb yeyən, sabah icazəsiz pul sənədi də götürər.

M i n d i l l i. İşə düşmədik... Mirzə! Hər şeydən ötrü əsəbiləşmə, yenə ürəyin xarab olar.

M i r z ə S a l m a n. Yox... Daha o vaxtlar keçdi... İdarəni qaydasına salıb, mənim xəstəliyimi sağaltdılar.

B ə n ö v ş ə, C a m a l, Q a s ı m və Z ə r i f ə gəlirlər.

B ə n ö v ş ə. Hamısını verin Mirzə Salmana. Mirzə, siz də öz vəzifənizi layiqincə yerinə yetirməyəndən sonra daha mən başqalarına nə deyim?

M i r z ə S a l m a n. Qoyurlar ki... Orada neçə aydan qol çəkilməyən kağızlar var.

Bənövşə (*Zərifəyə*). Qoy bura Mirzə Salmanın stolunun üstünə!

Zərifə. Atamda heç bir təqsir yoxdur... (*Kağızları qoyur*) Min dil ilə danışanların hesabını çəkmək lazımdır.

Bənövşə (*Qasıma*). Bəs siz diplomunuzu gətirmədiniz?

Qasım. Bir də ondan ötrü iş-gücümü atıb Bakıya gedim?

Bənövşə. Bakıdadır? Bəs, deyirdiniz, burada evdədir.

Qasım. Mənim evim Bakıdadır. Eybi yoxdur. Yazaram, göndərərlər. Məni diş ilə sındırmaq çətindir. O qədər də asan qırılan qoz deyiləm. (*Çıxır*)

Mirzə Salman. Bunların hamısını mən Camala vermişəm. O da mənimlə birlikdə məsuliyyət daşıyır, ya yox? Bundan sonra heç onun qolu mənə lazım deyil.

Camal. Sənə nə var, ay Mirzə? Dünən mənim qolumla olan kağızları götürürdün, ayrılarına məhəl qoymurdun, amma bu gün mənim qolumla olan kağızları qatlayıb qoyursan bir tərəfə, ayrı imzanın qabağında baş əyirsən.

Mirzə Salman. Çox sağ ol, mənim əməyimə bu cür yüksək qiymət verdiyin üçün acizanə təşəkkür eləyirəm. (*Hirsli və kəskin halda*) Əgər imzaların, rəqəmlərin dövlət pulu, xalq pulu demək olduğunu başa düşmürsənsə, heç olmasa mənim saçlarımın ağlığına hörmət elə.

Mindilli. Mirzə Salman, biz, yəni köhnə rəhbərlik, Camal yoldaşla mən, bir ildırım zərbəsi ilə yıxılmış qocaman ağaclarıq. Baltanı götürüb üstümüzə cummaq sənə layiq deyil.

Camal. Mindilli, yum.

Mindilli. Siz daha əmr verməyin, yoldaş Camal! Sizə daha başqaları əmr verəcək.

Bənövşə. Camal, mənim Yusiflə söhbətim var, istəyirəm o söhbətdə sən də iştirak edəsən.

Camal. Nə söhbət? Səhərdən axşama kimi danışdığınız bəs deyil?

Bənövşə. Mən ona bir vəzifə təklif eləyəcəyəm. Yusif çox gözəl oğlandır, güman eləyirəm ki, boyun qaçırmaz.

Mindilli. Əlbəttə... Mən bunu hər vaxt təsdiq eləyə bilmərəm.

Bənövşə. Siz yoldaş Mindilli!..

Mindilli. Mindilli yox, Mindilov.

Bənövşə. Burada hamı sizə Mindilli deyir. Yaxşı, olsun Mindilov, siz də sənədləri bu gün-sabah təhvil verib qurtarın, işlərimiz qalır.

Mindilli. Bu qərarınız qətidir?

Bənövşə. Qətidir!

Mirzə Salman. Lap qətidir!

Zərifə sevinir.

Bənövşə (*Zərifəyə*). Zəhmət çəkin, Yusifi tapın.

Zərifə. Bu saat. (*Çıxır*)

Mindilli (*Camala*). Bir dəqiqə onsuz dayana bilmədi. (*Bənövşəyə yumşaq səslə*) Mən sizə mane olmayım, gedim, başqa yerdə məşğul olum. Yusif yoldaşı da bu saat tapıb sizin yanınıza göndərərəm. (*Çıxır*)

Bənövşə. Bu adam heç mənim xoşuma gəlmir, sən isə özünü ona yaxın dost kimi aparırsan.

Camal. Nə olsun ki? Mənim də xoşuma gəlməyən adamlar var, sən də onlarla dostluq eləyirsən.

Bənövşə. Özün bil. (*Yusif içəri girir*) Yusif, yadıma düşmüşkən sizdən bir xahiş eləyim. Tapşırıq verin prorabdan, bir də Mindillidir, Mindilovdur, kimdir, ondan göz-qulaq olsunlar, tikinti sahəsindən bir çöp də çıxarmağa qoymasınlar.

Yusif. Onsuz da bizim işçilər duyuq düşüblər, onları gözdən qoymurlar. Ancaq yenə tapşıraram. İndi isə gedək, təzə maşınlara baxaq.

Bənövşə. Ondan qabaq bir sözüm var. Sizi bizim idarənin baş mühəndisi təyin eləmək istəyirik, etiraz eləmirsiniz ki?

Camal. Necə, necə? Bu idarənin baş mühəndisi mənəm.

Bənövşə. Yusifin olmağı daha məsləhətdir. Biz bu saat tikinti sahəsini tikinti-montaj sahəsinə çeviririk. Bütün işlərimiz mexanikləşir. Baş mühəndis texnikanı qiymətləndirməyi bacaran adam olmalıdır.

Camal. Mən bu saat trestə gedirəm. Baş mühəndisi onlardan başqa heç kəs yerindən tərpədə bilməz.

Bənövşə. Trestdəki yoldaşların da fikri belədir. Bu, hamının arzusudur.

Camal. Demək, qabaqcadan hazırlıq görmüsünüz?

Bənövşə. Hə, *mən hazırlıqlı iş görməyi sevirəm. Yusif, razısınızmı?*

Yusif. Bilmirəm, bacararammı?

Bənövşə. Bacararsınız, bir yerdə işləyərik.

Yusif. Əgər trestdəki yoldaşlar, siz məni bu vəzifəyə layiq görürsünüzsə, etiraz eləməyə haqqım yoxdur.

Bənövşə. Çox gözəl, bilirdim ki, siz belə cavab verəcəksiniz. Əl-ələ verib işləyərik.

Y u s i f. Mənim istədiyim də odur. Ayrı bir sözünüz yoxdursa, gedək, həm maşınlara baxın, həm də yeni düzəltdiyimiz karkasları sizə göstərim. Onları quraşdırdıq, bir neçə saata bütün mərtəbə hazır oldu. Bu saat elektriklə qaynaq edirlər. Bir görün, elə bil ildırım çaxır.

B ə n ö v ş ə. Bəzi yoldaşlar inanmırdılar, indi gəlib görsünlər. Gedək.

Q ə m ə r gəlir.

B ə n ö v ş ə. Qəmər nə vaxt gəlmisən?

Q ə m ə r. Çoxdan. Sənin xahişini yerinə yetirdim, tibb məntəqənizi yoxladım, səliqəyə saldım, indi getmək istəyirdim ki, burada olduğunu dedilər.

B ə n ö v ş ə. Çox sağ ol, Qəmər can, mən sənin tibb məntəqəsində olduğunu bilmirdim.

Q ə m ə r. Nə olar? Sənsiz də mən öz işimi gördüm. İndi daha gedirəm.

B ə n ö v ş ə. Dayan... Yusiflə balaca işimiz var, bu saat qayıdıram, məni gözlə. Gedək, Yusif!

Bənövşə və Yusif gedir.

Q ə m ə r (*Camalın kədərli oturduğunu görüb*). Nə olub, Camal qardaş, nə üçün belə fikirlisiniz?

C a m a l. Fikirli olmayım, neyləyim, doktor?! Xoşbəxtlik gözlədiyi halda bədbəxtliyə rast gəlmiş bir adam şən ola bilməz ki!

Q ə m ə r. Mən sizin sözlərinizi başa düşmürəm. Nə üçün bədbəxtlikdən danışırsınız?

C a m a l. Bənövşə mənimlə çox ağır rəftar elədi, doktor! O bura bilirsiniz necə gəldi?

Q ə m ə r. Necə gəldi?

C a m a l. Barmağında mənim nişan üzüyüm, ürəyində isə Yusifin məhəbbəti.

Q ə m ə r. Kimin məhəbbəti?

C a m a l. Yusifin.

Q ə m ə r. Bu nə sözdür, Camal qardaş?

C a m a l. Bəli, bəli! Son zamanlar mənim başıma gələn bütün işlərin səbəbi odur, Yusifdir.

Q ə m ə r. Yusif, səbəb? Bəlkə yanılırsınız?

C a m a l. Mən də yanılmağımı istərdim, ancaq təəssüflər ki, artıq bütün məsələlər aydındır. Bir yaxşı məsəl var, doktor!

Q ə m ə r. Mis düşməsə, cingildəməz?

C a m a l. Ya da ki, od yanmasa, tüstü çıxmaz. Bənövşə gəldiyi gündən mənim ürəyimi yandırmağa başlayıb.

Q ə m ə r. Bu xəbər mənə sizdən daha çox təsir elədi.

C a m a l. Əlbəttə. Bu cür xəbərlər səmimi dostları sevindirməz. Ancaq mən bunu belə qoymayacağam, doktor! Ürəyə vurulan zərbə çox ağır nəticə verir. Onun cavabı da ağır olmalıdır.

Q ə m ə r. Dözmək və səbir ilə gözləmək daha yaxşıdır.

A s l a n içəri girir.

A s l a n. Bir zəhmət çəkin, yoldaş baş mühəndis! Bir-iki məsələ var, sizdən asılıdır.

C a m a l. Mən artıq baş mühəndis deyiləm.

A s l a n. Deyilsiniz? Səhərdən baş mühəndis idiniz, indi deyilsiniz?

C a m a l. Hər saatın bir hökmü var.

A s l a n. Əcəb işdir. Bəs baş mühəndis kimdir?

C a m a l. Yusif. Tanıyırsan?

A s l a n. Yaxşı tanıyıram. İndicə Bənövşə xanımla həyətdə dayanmışdı, söhbət eləyirdi. Yanlarından ötüb keçdim, bir söz demədim. Gör ha, heç bilməmişəm. (*Çıxır*)

Q ə m ə r. Deməli, Yusif baş mühəndis təyin olundu?

C a m a l. Bəli, doktor. Hadisələr çox qəribə sürətlə dəyişir.

B ə n ö v ş ə, Y u s i f qayıdırlar.

Y u s i f. Qəmər xanım, gərək siz də baxaydınız.

Q ə m ə r. Yox, Yusif, mən daha baxmamışdan da görürəm. Azca da olsa, təcrübəm var. (*Bənövşəyə*) Bənövşə, səndən heç gözləməzdim.

B ə n ö v ş ə. Nəyi gözləməzdin, Qəmər?

Q ə m ə r. Özün çox gözəl bilirsən. Sən bura ev tikməyə gəlmisən, ürək sındırmağa yox.

B ə n ö v ş ə. Mən səni heç anlamıram, Qəmər! Nə olub? Kimin ürəyini sındırmışam? Sənin gözlərin nə üçün qızarıb?

Q ə m ə r. Heç... Tale adamlarla çox qəribə oyun oynayır.

B ə n ö v ş ə. Tale... Oyun... Bu nə sözlərdir? Sən taleyə inanırsan?

Q ə m ə r. Mən daha heç bir şeyə, heç bir kəsə inanmıram. (*Çıxır*)

B ə n ö v ş ə. Qəmərə nə oldu? Niyə belə ikimənalı danışır.

Y u s i f. Heç nə başa düşmürəm. Gedim soruşum, deyim, Bənövşə xanım maraqlanır.

B ə n ö v ş ə. Məndən çox siz özünüz maraqlanırsınız. Görün, nə üçün pərt getdi?

Y u s i f. Bu saat gedib öyrənərəm. Rəisin baş mühəndisə birinci tapşırığı ürəyəyatandır.

B ə n ö v ş ə. Ancaq bütün günü bu tapşırıqla məşğul olmayın... Təzə briqada sizi gözləyir.

Yusif çıxır. Camal əsəbi hərəkətlərlə bloknotunu çıxarır, ərizə yazıb Bənövşəyə verir.

B ə n ö v ş ə (*ərizəni oxuyub*). Deməli, tamam getmək istəyirsən?

C a m a l. Neyləyim? İş belə gətirdi.

B ə n ö v ş ə. İş necə gətirdi, açıq danış?!

C a m a l. İş belə gətirdi ki, sən məni öldürdün.

B ə n ö v ş ə. Necə? Sən mühəndisliyi özün üçün ölüm hesab eləyirsən?

C a m a l. Məsələ təkcə vəzifədə deyil ki! Səni itirirəm. Bu mənim üçün ölümdən də betərdir.

B ə n ö v ş ə (*təəccüblə*). Məni itirirsən? Əgər mən itiromsə, bəs bu saat səninlə danışan *kimdir*?

C a m a l. Mənimlə danışan? Mənimlə danışan öz nişanlısını ayaqları altında tapdalayan, onu yüngül, karyerist bir adama dəyişən daşürəkli bir qızdır. Vot!

B ə n ö v ş ə. Ayıb olsun, Camal! Sən artıq məni təhqir eləməyə başlayırsan.

C a m a l. Təhqir nə üçün? Sözün düzünü deyəndə niyə inciyirsən?

B ə n ö v ş ə. Mən səni kimə dəyişmişəm?

C a m a l. Hər şeyə dözərdim. Bu cür işdən götürülməyimə də, sənin tərəfindən bu cür soyuq qarşılanmağıma da, hər şeyə dözərdim. Ancaq məni Yusifə dəyişməyinə dözə bilmirəm. O mənim düşmənimdir.

B ə n ö v ş ə. Yusif nə zamandan sənin düşmənin olub? Sən ki, onu özün bura çağırmısan?

C a m a l. Mənim əsas səhvim də ondadır. Mən bura dost, köməkçi yox, öz məhvimi çağırmışam. O məni hörmətdən salıb, o mənim əleyhimə böyük bir kampaniya açıb. O iclas olmayıb ki, məni biabır eləməsin.

Məqsədi rəis olmaq idi, baş mühəndis oldu. Nə olar, bu daha yaxşı. Bənövşə xanımın yanında baş mühəndis də işləmək pis deyil.

B ə n ö v ş ə (*son dərəcə pərt halda*). Bu nəyə işarədir, Camal?

C a m a l. Bu cür işarələri izah eləməzlər.

B ə n ö v ş ə. Onu başa düşürsənmi ki, sən məni çox ağır təhqir elədin?

C a m a l. Mən ürək sözümü dedim.

B ə n ö v ş ə. Sənin ürəyin çox qaradır.

C a m a l. Ona görə ki, dünəndən bəri mənim ürəyimdən qara qanlar gedir.

B ə n ö v ş ə. Sən burada sıravi mühəndis də işləmək istəmirsən?

C a m a l. Yusifin rəhbərliyi altında? Çox sağ ol!

B ə n ö v ş ə. Bəlkə bu idarədən tamam getmək fikrindəsən?

C a m a l. Bəlkə tamam bu rayondan getməyimi istəyirsən?

B ə n ö v ş ə. O öz işindir. Hara istəyirsən, gedə bilərsən.

C a m a l. Hara gedəcəyimi özüm bilirəm, sizdən icazə istəməyəcəyəm.

Stulu çırpıb qalxır, sükut olur, qapıdan M i n d i l l i n i n başı görünür.

M i n d i l l i. Deyəsən, yenə stulu tərpətdiniz, yoldaş Camal?

B ə n ö v ş ə. Gedəndə bu dostunu da özünlə aparmağı yadından çıxartma.

P ə r d ə

BEŞİNCİ PƏRDƏ

ALTINCI ŞƏKİL

Yeni tikilmiş evin qabağındakı meydan. Bu evin birinci mərtəbəsindən şkaflar daşınır. Uzaqdan alqış, musiqi səsi gəlir. Evin qurtarması münasibətilə tikinti işçiləri arasında çağırılmış mitinq artıq qurtarmışdır. Camaat yavaş-yavaş dağılır. M i r z ə S a l m a n səhnəyə gəlir, şkafların daşınmasına baxır. Bənövşə ilə Yusif gəlirlər.

Y u s i f. Demək, sabahdan bütün qüvvəmizi təzə obyektə verməliyik?

B ə n ö v ş ə. Elədir. (*Mirzə Salmana*) Komissiya aktı imzaladı. Tez köçün, orderləri verməyə başlayıblar.

M i r z ə S a l m a n. Dərziyə köç dedilər, iynəsini sancdı yaxasına.

Y u s i f. Mindillinin dalınca yenə adam göndərilib?

Mirzə Salman. Deyir, bərk xəstədir.

Yusif. Dünən futbolda imiş.

Bənövşə. Ona yalandan bülleten verən doktoru məsuliyyətə almaq lazımdır.

Yusif. Bir, o Qasıma bax ha... Bu gün yenə gəlmişdi mənim üstümə, tərcümeyi-hal istəyirdi. Əl çəkmir, aləmi vurub bir-birinə.

Bənövşə. Təqsir o idarə rəhbərlərində, o məhkəmə sədrlərindədir ki, avara, fırıldaqçı bir adamın böhtan ərizələrinə aylarla vaxt sərf eləyirlər.

Mirzə Salman. Bircə balansa qol çəkilsəydi... Bu Camal da...

Yusif (*onun sözünü kəsir*). Camaldan xəbər yoxdur ki, Bənövşə? Hara getdi, nə oldu, bilmədiniz?

Bənövşə. Yox, öyrənə bilmədim. Neçə vaxtdır gedib, məsuliyyət hiss elomir ki... (*Çıxır*)

Yusif. Yəqin, çox nigarandır. Nə bizim sözümüzə baxdı, nə də nişanlısının. Bilmirəm doktora nə dedisə, o da bizdən üz döndərib getdi.

Mirzə Salman. Doğrudan, Yusif, doktora nə oldu? Neçə vaxtdır, gözümə dəymir.

Yusif. Bakıya, qızını gətirməyə getdiyini eşitdim. Başa düşmürəm, niyə gəlib çıxmır?

Zərifə qolтuğu dolu kitab səhnəyə gəlir.

Zərifə (*oxuya-oxuya*). Akademik Pavlovun nəzəriyyəsinə görə bədəndəki prosesləri və mübadiləni nizama salan mərkəz, – beyindir... Kəllənin əsas hissəsində beyin yerləşir. Beyin iki hissədən ibarətdir: böyük beyin, balaca beyin. (*Kitabdan ayrılaraq*) Of, xalq bu qədər sözü başına necə doldurur, bilmirəm? Bütün günü kitabdan gözümü götürmürəm, ancaq heç nə beynimdə qalmır. Səhifənin ayağını oxuyuram, başı yadımdan çıxır.

Yusif. Nə üçün sizdə birdən-birə bu qədər həvəs əmələ gəlib?

Mirzə Salman. İmtahana hazırlaşır. Təzədən həkimlik eşqinə düşüb.

Zərifə. Ata, o sözü bir də mənə demə. "Həkimlik eşqinə düşüb..." Bu səfər ölsəm də gərək Tibb İnstitutunu qurtaram. İmtahanı su kimi verəcəyəm. Qəmər mənimlə hər gün məşğul olur.

Yusif. Qəmər xanımla harada məşğul olursunuz?

Zərifə. Bizim evdə. O qədər xətrimi istəyir ki, Bakıdan qayıdanda düz bizə gəldi. Doğru demirəm, ata?!

Mirzə Salman. Mənim qızım xəbər yaymaqda radionu da ötür.

Zərifə. Radio nədir? Mənim fikrimi qarışdırma, ata! Dərsimi öyrənirəm, Qəmər soruşacaq.

Yusif. Doktor bu saat sizdədir?

Zərifə. Onu deməzlər. (*Kitabı oxuya-oxuya gedir*) Kəllənin içində beyin yerləşir... Beyin iki hissədən ibarətdir... (*Çıxır*)

Mirzə Salman. Yoldaş baş mühəndis, doktor sənə çox lazımdır?

Yusif. Deyəsən, xəstələnmişəm, Mirzə, məsləhətləşmək istəyirəm.

Mirzə Salman. O cür xəstəlikləri mən yaxşı bilirəm. Qorxuludur! Təcili müalicə eləmək lazımdır.

Yusif. Sizin sözlərinizin gizli mənası var, Mirzə! Mənimlə açıq danışın. Söz altında söz deməyi sevmirəm.

Mirzə Salman. Bəs körpü altında dəyirman tikməyi, yarpaq altında quş tutmağı necə, sevirsən?

Yusif. Heç bir şey başa düşmürəm.

Mirzə Salman. Bir az yaxın gəl ki, eşidən olmasın. Doktorun ürəyinə odu vurub, çəkilib durmusan bir tərəfdə. O yazıq da səsini çıxarda bilmir, tüstülənə-tüstülənə qalıb.

Yusif. Yanılırsınız, Mirzə! Əgər elə olsaydı, Qəmər məndən qaçmazdı.

Mirzə Salman. Onu da bil ki, kölgə insanı təqib eləyən kimi qısqanclıq da məhəbbəti təqib eləyir. Qısqanclıq da kölgə kimi qaradır.

Yusif. Qısqanclıq? Nə üçün? Ortada ki, heç bir səbəb olmayıb.

Mirzə Salman. Məhəbbət bəzən o qədər güclü olur ki, adamı elə çaşdırır ki, heç bir səbəb olmadan da qısqanmağa başlayır. Eh... Onu mən yaxşı bilirəm. Eşq əhlinin halını məndən al xəbər. Mən özüm o yolun mərdanəsiyəm. İndi başa düşdün, yarpaq altında quş tutmaq nə deməkdir?

Yusif. Siz mənim ən müqəddəs, ən gizli sirrimi açıb kitab kimi oxudunuz, Mirzə!

Mirzə Salman. Özünü möhkəm saxla, hələ sənə bir xəbər də verəcəyəm.

Yusif. Nə xəbər?

Mirzə Salman. Doktor xəstəxanadan çıxıb order almağa gedəcək. Ona da sənin bu tikdiyin evdə mənzil verirlər. Ordan da bura gələcək.

Yusif (*həyəcanla*). Nə vaxt?

Mirzə Salman. Daha saatını, dəqiqəsini deyə bilmirəm. Huşyar ol. Səni qəflət yuxusundan bir dəfə ayıltdım, bəsdir.

Yusif (*özünü itirir*). İndi yəqin oradadır... Mən gedim. Deyirsən, bura gələcək? Sonra çıxmış olar, burada gözləsəm yaxşıdır. (*Gedir, tez qayıdır*) Mirzə, mən buralarda olacağam, heç yerə getməyəcəyəm. (*Çıxır*)

Mirzə Salman (*gülür*). Eh... Gərək mən cavan olaydım.

Mindilli içəri girir.

Mirzə Salman. Goldin?

Mindilli. Özüm gəlmədim, gətirdilər.

Mirzə Salman. Yaxşı da elədilər. Haradasan?

Mindilli. Xəstəyəm.

Mirzə Salman. Necə xəstəsən ki, küçələri veyil-veyil gəzirsən, futbola gedirsən, pivəxanaya gedirsən, amma idarəyə gələ bilmirsən? Bir aydır işdən çıxmısan, niyə təhvil vermə misən?

Mindilli. Yoldaş, cibimdə bülletenim var. Of, ürəyim sancdı, doktor tapşırıb ki, əsəbiləşmə.

Mirzə Salman. Düz deyir, əsəbiləşmə. Sakit təhvil ver, sonra get nə qədər istəyirsən yat.

Mindilli. Neyləyim? Yatım? Bir onu görməyəcəksiniz. Mənim hələ məhkəmədə danışmalı çox sözüm olacaq.

Mirzə Salman. Mən deyirəm get evdə yat, çarpayının üstündə.

Mindilli. Hə, o ayrı məsələ. Çarpayıda uzanmağa etiraz eləmirəm. Bəs mənim şkafım haradadır? Aləm qarışıb bir-birinə.

Mirzə Salman. Mənim kağızlarımla işin olmasın.

Mirzə Salman öz kağızlarını götürüb gedir. Mindilli cəld bərəkətlə şkafları axtarır. Zərifə gəlir.

Zərifə (*əlində kitab*). Kəllənin içində beyin var... Aha, vətəndaş, orada, mənim atamın kağız-kuğuzlarını niyə iyləyirsiniz?

Mindilli. Sənin iyini bu kağızlardan alıram, Zərifə!

Zərifə. O nə idi cibinə qoydun?

Mindilli. Zərifə, nə gir-gir girləmisən məni? Niyə mənim başıma fırlanırsan? Aramızda daha məhəbbət yoxdur?

Zərifə. Məhəbbət yoxdur, nifrət var. Nifrət olanda gərək düşməni gözdən qoymayasan. Sənin pencəyin niyə belə birtəhər durur? (*Əli ilə yoxlamaq istəyir*)

Mindilli. Əlini vurma, qıdığım tutur.

Zərifə. Əşi, bu kitablar da yalan yazır. Bütün kəllələrdə beyin olmur ki. Boş kəllələr o qədərdir?!

Mindilli. Bəs vaxtilə sən mənə ayrı sözlər deyirdin.

Zərifə. Onda mən bilmirdim ki, sən dörd evi viran qoymusan, dörd dəfə evlənib, dörd dəfə də boşanmısan, səkkiz dəfə də ZAQS-a getmisən.

Mindilli. Böhtandır. Məni sən əsəbiləşdirmə, bülletenim var. Böhtandır.

Qasım içəri girir.

Zərifə. Budur, bax, oziz dostun da təsdiq eləyər, düz demirəm, Qasım?

Qasım. Siz nə desəniz düz deyirsiniz, gözəl deyirsiniz. Ancaq bilmirəm neyləyirsiniz ki, səsiniz bu qədər məlahətli, duzlu-məzəli çıxır?

Zərifə. Prokurorun səsi mənimkindən də məlahətli, duzlu, məzəlidir. Bu gün telefonoqram verib, səni axtarır. (*Çıxır*)

Qasım. Axır zamanlar hamı bizi prokurorla qorxudur.

Mindilli. Mənim arvadlarımın siyahısını ona sən vermisən?

Qasım. Bu saat arvad məsələsi ilə məşğul olmaq zamanı deyil. Neçə vaxtdır haradasan? Heç mənim halımı soruşmursan. Otuz yeddi yerə ərizə vermişəm. Üç dəfə məhkəmənin qərarını ləğv elətdirmişəm. İşə iki dəfə ali məhkəmədə baxıblar. Yenə də əl çəkən deyiləm. Məni bu idarədən çıxaran hələ anadan olmayıb.

Mindilli. Anadan olub, Qasım, olub, bu saat divarda əmrini oxudum!

Qasım. Bu gün?

Mindilli. Elə indicə.

Qasım. Onda, yəqin, ali məhkəmə bu səfər daha rədd eləyib. Eybi yoxdur. Ərizə verməyə idarə çox... Bura min dənə komissiya tökəcəyəm.

Mindilli. Yenə komissiya? Əşi, xata çıxartma, dayan!

Q a s ı m. Üz vurma.

Qasımla Mindilli gedirlər. B ə n ö v ş ə və C e y r a n x a l a içəri girirlər.

B ə n ö v ş ə. Səndən nə əcəb, anacan! Yəqin evə tamaşa eləməyə gəlmisən?

C e y r a n x a l a. Görürəm, çox gözəl tikmisiniz. Ancaq...

B ə n ö v ş ə. Səndə söz var, anacan!

C e y r a n x a l a. Heç...

Sükut olur.

B ə n ö v ş ə. Nə var, niyə belə, incimiş danışırsan?

C e y r a n x a l a. Mən evdə rahat otura bilmirəm. Camal hara gedib, nə olub?

B ə n ö v ş ə. Hara getdiyini mən də bilmirəm. Bəlkə Bakıya gedib, məndən şikayətə!..

C e y r a n x a l a. Sən ona neyləmisən ki, şikayət eləyir?

B ə n ö v ş ə. İşdən çıxarmışam.

C e y r a n x a l a. Qız öz nişanlısını işdən çıxardar?

B ə n ö v ş ə. Bəs necə eləyəydim? Nişanlımdır deyə, bütün nöqsanlarına göz yumaydım?

C e y r a n x a l a. Bənövşə, bəlkə ayrı fikrə düşmüsən?

B ə n ö v ş ə. Sən də məni başa düşmürsən, ana? Mənim istədiyim nədir? İşdə də, ailədə də, saf olmaq, təmiz olmaq... Amma o, işi də, ailəni də öz şəxsiyyətinə qurban eləmək istəyirdi. Ətrafına topladığı çirkin adamlardan şübhələnməkdənsə, məndən şübhələnməyə, hətta qısqanmağa başladı. Nahaqdan qısqanmaq qadın üçün ən böyük təhqirdir. Sən isə dərdimə yanmaqdan, məzəmmət eləyirsən... (*Ağlamsınır*)

C e y r a n x a l a. Məni qınama, ananam. Deyir, qızın ismətı – ananın dövləti. Yaxşı, gözünü sil, bu boyda idarənin böyüyü də ağlayar?

B ə n ö v ş ə. Ağlayan özünsən, mənə deyirsən?

C e y r a n x a l a. Mən heç... Ağlamağımla gülməyim bir olur, gözünü sil.

B ə n ö v ş ə. Yaylığı mənə ver.

C e y r a n x a l a. Niyə yaylıq götürməmisən? Al.

B ə n ö v ş ə. Götürmüşəm, çantamdadır.

C e y r a n x a l a. Çantan hanı?

B ə n ö v ş ə. Orada, idarədə qoymuşam.

C e y r a n x a l a. Nişan üzüyün hanı?

B ə n ö v ş ə. O da çantamdadır.

C e y r a n x a l a. Nişan üzüyü həmişə qızın barmağında olmalıdır.

B ə n ö v ş ə. Bilirsən nə var, ana? Sən həmişə mənə deyirsən ki, ərarvad bir-biri üçün işıq gətirməlidir. Əgər onun əlində işıq yoxdursa, mən neyləməliyəm?

C e y r a n x a l a. Çalışmalısan ki, o da sənin kimi işıqlı olsun. Başa düşdün?

B ə n ö v ş ə. Əgər sevgi yoxdursa, mənim çalışmağım heç bir nəticə verməz. Mən artıq onun sevgisinə də şübhə ilə baxıram.

C e y r a n x a l a. Bura gələn var. Çəkil kənara, gözünü sil.

Onlar bir kənara çəkilir. Z ə r i f ə ilə Q ə m ə r gəlirlər.

Z ə r i f ə (*o yan-bu yana baxır*). Atam da burada yoxdur. (*Çağırır*) Ata! Yoldaş Mirzə Salman!

Q ə m ə r. Onda mən gedirəm, siz sonra gələrsiniz.

Z ə r i f ə. Bos Yusifi görmək istəmirsən?

Q ə m ə r. Yusifi neyləyirəm?

Z ə r i f ə. Səni inandırıram ki, hamısı yalandır.

Q ə m ə r. Nə yalandır?

Z ə r i f ə. Qəmər! Gecə yuxuna kim girir, onu da mən bilirəm. Sən bura gələn kimi Yusiflə bir-birinizi sevdiyinizi başa düşdüm. Ali təhsilim olmadığına nə baxırsan? Bilirsən, neçə iti gözlərim var?

Q ə m ə r. Kaş ki, sən dediklərin düz olaydı.

Z ə r i f ə. Hamısı düzdür. Mindilli milyon dil töküb girib arımıza.

Q ə m ə r. Bəs Camal qardaşın dedikləri?

Z ə r i f ə. Onu da Mindilli yoldan çıxarıb.

Q ə m ə r. Deyirsən, yalandır?

Z ə r i f ə. Lap ağ yalandır.

B ə n ö v ş ə. Ana can, eşitdin?

C e y r a n x a l a. Eşitdim. (*Qabağa gəlir*). Qəmər, qızım sənlə belə danışmışdıq?

Q ə m ə r. Düzdür, Ceyran xala, günah məndə olub, bağışlayın.

C e y r a n x a l a. Yox-yox, evə gəlməsən, barışan deyiləm. Bəs sən mənim qızım olmuşdun? Yəqin ananın xasiyyətini yaxşı öyrənməmisən. Mənimlə küsmək də çətindir, barışmaq da.

Q ə m ə r. Evdə sizdən bir də üzr istəyərəm.

C e y r a n x a l a. Hə, mənimlə evə getsən, heç üzr istəmək lazım olmaz.

B ə n ö v ş ə (*qabağa gəlir*). Amma mən Qəmərlə elə burada danışacağam.

C e y r a n x a l a. Danışın. Bu nədir? Belə işlərdən mənim xoşum gəlməz. "Örtülü bazar, dostluğu pozar". Zərifə, gedək.

Z ə r i f ə. Gedək, Ceyran xala.

Zərifə ilə Ceyran xala gedirlər.

B ə n ö v ş ə (*Qəmərə məzəmmətlə baxır*). Hə, sənə güvəndiyim dağlar... (*Sükut*) Sən də məndən küsüb gedərsənmiş...

Q ə m ə r. Mən küsməmişdim ki... Qızımın dalınca getmişdim.

B ə n ö v ş ə. Yalan danışmaq sənə yaraşmır, Qəmər! O nə sözdü mənə deyirdin? "Ev tikməyə gəlmisən, ürək sındırmağa yox!" Mən kimin üroyinə toxunmuşam ki? Camal da incidi getdi, sən də... Yusiflə mənim nə əlaqəm?

Q ə m ə r. Bəs mənim nə əlaqəm?

B ə n ö v ş ə. Dilin bir söz deyir, gözlərin ayrı söz.

Q ə m ə r. Gözlərim? Gözlərim nə deyir ki?

B ə n ö v ş ə. Gözlərin deyir: Qəmər elə bir sevgi çiçəyi qoxlayıb ki, məst olub. Gözlərin deyir: Qəmər tamamilə bu sevginin əsiridir, ona görə də səbəbsiz yerə qısqanmağa, küsməyə, inciməyə başlayıb... *Gözlərin deyir: Qəmər öz yaxın rəfiqəsini də, onun başına gələnləri* də, hər şeyi unudub... Gözlərin...

Q ə m ə r (*sözünü kəsir*). Bəsdir, Bənövşə, öz gözlərimin məni bu qədər ifşa edəcəyini güman eləməzdim.

B ə n ö v ş ə. Bir şey çox maraqlıdır. Məni Yusifə qısqanmaq haradan ağlına gəldi?

Q ə m ə r. Ağıl bu işdə iştirak eləmədi, Bənövşə! Mən tamamilə hissiyyatın təsiri altına düşdüm... Bir yandan da Camal...

B ə n ö v ş ə. Camal? Camal sənə nə dedi?

Q ə m ə r. Nə bilim, o qədər söz danışdı ki... İkimiz də od olmaya-olmaya tüstülondik. Bağışla məni, Bənövşə! Bir dəfə aldanmışam, ikinci dəfə, daha qorxuram.

B ə n ö v ş ə. Qorxma, Yusif sənin bu cür atəş içərisində yanmaya layiq oğlandır.

Q ə m ə r. Məni bağışla. Əziz rəfiqəmi özümdən incitmişəm.

B ə n ö v ş ə. Eybi yoxdur. Evdə, anam mənim heyfimi səndən çıxacaq.

Y u s i f içəri girir.

Y u s i f. Doktor, siz haradasınız, burdasınız?

B ə n ö v ş ə. Yusif elə xəstələnib ki, bir gün doktorsuz dayana bilmir.

Y u s i f. Sizin nəyə işarə elədiyinizi mən anlamıram.

B ə n ö v ş ə. İşarələrin hamısı aydındır, Yusif! Məndən gizlətmək lazım deyil.

Y u s i f. Məni utandırdınız.

B ə n ö v ş ə. Siz niyə utanırsınız? Qoy mənim yaxın yoldaşım utansın. Əvvəl gizlədib, sonra qısqanıb... (*Gedir*)

Y u s i f. Qəmər, məni qısqanmısınız?

Q ə m ə r. O barədə danışmayaq, Yusif! Mən lap başımı itirmişəm.

Y u s i f. Düz deyirsiniz, qısqanclıq haqqında danışmayaq, sevgi haqqında isə danışmaq lazımdır. Neçə vaxtdır, mən öz ürəyimdə deyirəm: Qəmər, sizi sevirəm, bu sözü açıqdan-açığa deməyə icazə verin.

Q ə m ə r. Dediniz də. İcazə nəyə lazımdır?

Y u s i f. Sizin də dilinizdən bu sözü eşidim, sonra qısqansanız da, küssəniz də mənə xoşdur.

Q ə m ə r. Yusif, mən bu saat çox həyəcanlıyam, ürəyim çırpınır.

Y u s i f. Mən sizi sevirəm, Qəmər. Nə qədər sevdiyimi sözlə deyə bilmirəm.

Q ə m ə r. Kifayətdir, Yusif, başım fırlanır.

Y u s i f. Qəmər! Ürəyim o qədər doludur ki...

Q ə m ə r. Gedirəm, Yusif. Məni bu cür həyəcan içərisində görməsinlər.

Y u s i f. Bundan sonra mən sizi tək heç yerə buraxmaram.

Yusiflə Qəmər çıxırlar, içəri girən C a m a l ı görmürlər. Camal onların arxasınca təəccüblə baxır, sonra evə, meydançaya göz gəzdirir. C e y r a n x a l a və Z ə r i f ə içəri girirlər. Camalı görüb dayanırlar.

C e y r a n x a l a (*Zərifəyə pıçıltı ilə*). Camal buradadır ki!

Z ə r i f ə. Necə də fikirlidir, qəmgindir. Onun gəldiyini Bənövşə bacıya gərək birinci özüm xəbər verəm.

Zərifə çıxır. Ceyran xala Camala yaxınlaşır.

C e y r a n x a l a. Camal, oğlum, haradasan?

C a m a l. Ceyran xala, indicə qatardan düşmüşəm. Bakıdan gəlirəm.

C e y r a n x a l a. Bakıya niyə getmişdin, oğul?

C a m a l. İşlərimi qaydaya salmağa.

C e y r a n x a l a. Bəs nə oldu? İşlərin qaydasına düşdü?

C a m a l. Yox... əksino... dedilər iş məhkəməlikdir. Gözlədiyim olmadı. Məni danladılar. Eyiblərimi üzümə dedilər. Bir yoldaşıma rast gəldim, mənimlə söhbət eləyəndə o qədər təzə texnika adı çəkdi ki, utandığımdan başımı aşağı saldım, çünki o maşınların heç birini tanımıram. Bağışla, Ceyran xala, bəlkə bunları dinləmək sizin üçün maraqsızdır.

C e y r a n x a l a. Danış, oğlum, danışmaq dərdi yüngülləşdirir.

C a m a l. Sonra məni yeni tikintilərə göndərdilər. Onun üçün də bu qədər gecikmişəm. Gözümlə gördüklərim mənə bəs oldu. Bütün yolu düşünmüşəm. Dərdimi deməyə heç kəsim yoxdur. Bir nişanlım vardı...

C e y r a n x a l a. Nə üçün vardı, deyirsən? İndi nişanlın deyil?

C a m a l. Neyləyim, özüm onu uzaqlaşdırdım... Səadət quşu başımın üstündə firlanırdı, əlimi atıb onu tutmaqdansa, uçurtdum, nə bilim, nə oyun çıxartdım, hirsləndim, çığırdım, qısqandım... Onun sözləri hələ də qulağımdadır: "Sən məni çox ağır təhqir elədin, Camal!"

C e y r a n x a l a. Nə demişdin ki?

C a m a l. Bənövşəyə yaraşmayan mənasız bir söz... Əsl səbəbi axtarmırdım, kənardan kiminsə müqəssir olduğunu düşünürdüm. İndi gələndə Yusif ilə Qəmərin qol-qola getdiklərini gördüm. O qədər şirin-şirin söhbət edirdilər ki, yanlarından keçdim, görmədilər. Mənim isə ürəyimə min cür şübhə dolurdu. Gecələri yata bilmirdim. Bənövşəni Yusifə qısqanırdım. Nə isə, bu saat, Ceyran xala, mən uzun, ağır xəstəlikdən qalxmış adamlar kimiyəm.

C e y r a n x a l a. Eybi yoxdur, oğul! Ümidini itirmə... Mənim qızım dəyanətli qızdır. Buradan heç yerə getmə... Başını aşağı sal, işlə.

C a m a l. Hara gedirəm? Heç yerə getmək lazım deyil... Əlbəttə, burada, yalnız burda, Bənövşənin yanında...

Ç e ş m ə k l i k i ş i əlində bir bağlama içəri girir.

Ç e ş m ə k l i k i ş i (*Ceyran xalaya*). A kişi! (*Diqqətlə baxır*) Siz qadınsınız? Hə, qadınsınız, bacı, üçüncü mərtəbəyə haradan çıxırlar?

C e y r a n x a l a. Üçüncü mərtəbəyə ikinci mərtəbədən çıxarlar da.

Ç e ş m ə k l i k i ş i. Əcəb yaxşı söz dediniz. Onda, demə li, ikinci mərtəbəyə də birinci mərtəbədən çıxarlar. Bəs birinci mərtəbənin yolu haradandır?

C e y r a n x a l a. Birinci mərtəbənin yolu qapıdan.

Ç e ş m ə k l i k i ş i. Daha sizinki oldu söz güləşdirmək. Bəs qapı haradandır?

C e y r a n x a l a. Onu bilmirəm.

Ç e ş m ə k l i k i ş i. Əsas suala cavab verə bilmədiniz. Gedim qapını axtarım. Bəs bu tikintinin rəisi kimdir?

C e y r a n x a l a. Rəis mənim qızımdır.

Ç e ş m ə k l i k i ş i. O cür qızı olan anaya hörmət və ehtiram. Sizin qızınız olmasaydı, bu ev qurtaran deyildi. Ondan qabaqkı rəis maymağın biri idi.

C e y r a n x a l a. Elə deməyin, eşidər.

Ç e ş m ə k l i k i ş i. Özü olsaydı, ondan da bərk deyərdim. Heyf ki, gözə görünmürdü.

C e y r a n x a l a (*Camala*). Belə sözlərdən incimə, oğlum!

C a m a l. Niyə inciyirəm, haqlıdır.

Ç e ş m ə k l i k i ş i. O vaxt mən onu ha axtardımsa, tapa bilmədim. Nə buyurdunuz?

C e y r a n x a l a. Mən danışmadım ki.

Ç e ş m ə k l i k i ş i. Elə bildim nə üçün axtardığımı soruşursunuz. Mənim ata-babadanqalma bir daxmam vardı, dayanmışdı yolun ortasında, şəhərin bütün gözəlliyini pozurdu. Nə dediniz?

C e y r a n x a l a. Mən bir söz demədim.

Ç e ş m ə k l i k i ş i. Hə, demək istəyirsiniz sökdülər, ya yox? Əlbəttə, sökdülər. Budur, üçüncü mərtəbədə üçotaqlı mənzil almışam, uşaqlarımla, nəvələrimlə bərabər köçürəm, xahiş eləyirəm, məni ləngitməyin, gecikirəm.

C e y r a n x a l a. Buyurun, buyurun, mən sizi saxlamıram.

Ç e ş m ə k l i k i ş i. Yox-yox, gərək gedim. Demək, üçüncü mərtəbənin yolu ikinci mərtəbədəndir. (*Gülür*) Sağ olun! (*Gedir*)

C e y r a n x a l a. Bu kişi kimdir?

C a m a l. Təqaüdçüdür, vaxtilə çox gözəl usta olub.

Z ə r i f ə, B ə n ö v ş ə içəri girirlər.

Z ə r i f ə. Odur bax... Nə yaxşı oldu gəldi. Siz nigarançılıqdan qurtardınız.

B ə n ö v ş ə. Camal!

C a m a l (*həyəcanla*). Mən burada ana ilə söhbət eləyirdim.

C e y r a n x a l a. Mənim dalımca gəlmisən, Zərifə?

Z ə r i f ə. Yox... Hə...

C e y r a n x a l a. Gedək. (*Bənövşəyə yavaşdan*) Get görüş, orada ona deyiblər ki, iş məhkəmələkdir, təzə tikintilərə baxmağa gedibmiş, ürəyinə toxunma, onsuz da peşmandır.

Zərifə ilə Ceyran xala çıxırlar.

B ə n ö v ş ə. Camal, hara getmişdin? Niyə bu vaxta qədər özündən bir xəbər vermirdin?

C a m a l. Nə xəbər verəydim? Kələf elə dolaşıb ki...

B ə n ö v ş ə. Mən sənə çox dedim. Sən isə başa düşmək əvəzinə, hətta mənim özümdən də şübhələnməyə başladın.

C a m a l. Heç ağlıma belə gəlmirdi ki, gecə-gündüz sədaqətdən danışan adamlar mənə xəyanət edə bilərlər.

B ə n ö v ş ə. Bəs mənim xəyanət eləməyim necə ağlına gəlirdi?

C a m a l. Sevgi ilə qısqanclıq adamın ürəyində hər zaman yan-yana durur.

B ə n ö v ş ə. Camal, əvvəl onu deyim ki, bu, tamamilə yanlış fikirdir, sonra da... mən səndə sevgi görmədim, yalnız kor və mənasız qısqanclıq gördüm.

C a m a l. Mən sonralar başa düşdüm ki, şübhələrim çox səhv imiş. Bağışla, Bənövşə...

B ə n ö v ş ə. Yox, Camal, belə şeyi bağışlamaq çox çətindir. Tramvayda iki adam təsadüfən bir-birinə toxunanda bu sözü demək olar və bağışlamaq da mümkündür. Ancaq ürəyə toxunanda...

C a m a l. Səhv yol ilə getmişəm. Bənövşə, indi dərindən anlayıram. Necə olmuşdu ki, o adamların murdar sifətini mən görə bilmirdim?

B ə n ö v ş ə. Çünki *xırda hörmətlər sənin gözünü tutmuşdu*. Heç kəsi görmürdün. Qasım məclislərdə sənin sağlığına məzəli tostlar deyirdi. Sən papiros çıxardan kimi Mindilli kibrit yandırırdı. Sən ayağa duran kimi Mindilli palto tuturdu. Mindilli şifoner tap, hazırdır, yoldaş Camal. Sağ ol, Mindilli, qızılsan, qızıl. Ancaq soruşmurdun ki, Mindilli bunları haradan alır?

C a m a l. Şifoner? Şifoneri ki, mən özüm almışam.

B ə n ö v ş ə. Sənin adına bizim dülgər sexində sifariş edib.

C a m a l. Dayan, Mindilli, səni mindilli qarmona döndərəcəyəm!

B ə n ö v ş ə. İş onda deyil, səndədir. Sən vaxtilə onu müdafiə eləməsəydin, əsl siması çox tez bəlli olardı və bu qədər də ziyan vurmazdı.

C a m a l. Mən yalnız sənincün, Bənövşə, deyirdim, ev-eşik olsun, dolu olsun.

B ə n ö v ş ə. Əgər ürək boşdursa, dolu ev mənim nəyimə lazımdır? Sevgi olmadıqda, sənin evində çilçırağın üçü də birdən yansa, yenə mənim üçün qaranlıq olacaq. Mən görəcəyəm ki, mebel var, xalı-xalça, bəzəkli otaqlar var, ancaq səadət yoxdur. (*Getmək istəyir*)

C a m a l. Dayan, Bənövşə, neçə ildən bəri arzu elədiyim söhbət hələ indi başlayır. Amma sən gedirsən...

B ə n ö v ş ə. Dostun bura gəlir.

C a m a l. Kimdir? Hə, mən onunla iki kəlmə danışmaq istəyirəm.

B ə n ö v ş ə. Danış, sonra mən də onunla öz söhbətimi eləyəcəyəm.

Bənövşə çıxır. M i n d i l l i içəri girir.

M i n d i l l i (*böyük sevinclə*). Yoldaş Camal!..

C a m a l. Sənsən?

M i n d i l l i. Mənəm, özüməm. Dünən gecə yuxuda səhərə kimi sizinlə söhbət eləmişəm. Yuxum gör necə düz çıxdı!

C a m a l. Yuxuda niyə? Gəl, həqiqətdə söhbət eləyək.

M i n d i l l i. Eləyək. Siz buradan gedəndən sonra mən qüssədən yorğan-döşəyə düşdüm. Söhbət eləməyə, dərdimi deməyə bir dost tapa bilmədim.

C a m a l. Deməli, biz dostuq.

M i n d i l l i. Buna şübhə eləmək göydə güneşi danmaq kimi bir şeydir. Sizsiz bu idarə susuzluqdan qurumuş ağac kimidir. Başlarına öz adamlarını yığırlar. Eybi yoxdur. Bunlar hamısı materialdır. Şikayət üçün yaxşıca əsasdır. Ağacın həmişə iki ucu olur, bir ucu əldə olanda o biri ucu yerə dirənir.

C a m a l. Biz hara şikayət edəcəyik ki?

M i n d i l l i. Yuxarıya. Mən iki imzasız kağız düzəldib göndərmişəm.

C a m a l. Bəs imzasız niyə?

M i n d i l l i. İmzasız daha yaxşıdır. Arxayınçılıqdır. Başa düşmürsünüz?

C a m a l. Yavaş-yavaş lap aydın başa düşürəm, mən səni bu neçə ildə bu qədər yaxşı tanımamışam.

M i n d i l l i. Hələ bu harasıdır, bircə işlərimiz düzəlsin, görün, gələcəkdə sizə nə keflər verəcəyəm.

C a m a l. Mən elə bilirdim ki, sən böyük bir dənizsən, amma qabağını duman tutub.

M i n d i l l i (*utanır*). Çox sağ olun, yoldaş Camal.

C a m a l. Ancaq indi yavaş-yavaş duman çəkilir. Hava açılır.

M i n d i l l i. Olmaya təşbehlə danışırsınız?

C a m a l. Duman çəkildikcə də məlum olur ki, onun arxasındakı dəniz deyilmiş, bataqlıq imiş.

M i n d i l l i. Bataqlıq?..

C a m a l. Bəli, bataqlıq... Bu bataqlığın çirkli suyunda heyf ki, mən öz sifətimi görmürəm...

M i n d i l l i. Deyəsən, bir az əydiniz axı?

C a m a l. Əyməmişəm, indi-indi düzəltməyə başlayıram.

M i n d i l l i. Yox, lap pis əydiniz. Nişanlımızı, qulluğu itirdiniz, dostu da belə itirirsiniz.

C a m a l. Sənin kimi "dostlar" ilə görüşmək üçün çox ağır əlim var, Mindilli.

M i n d i l l i (*qorxu ilə geri çəkilir*). Mindilli yox. Mindilov, familiyamı düz deyin.

C a m a l. Mənə bu saat sənin familiyan yox, özün lazımsan. Yaxanı əlimdən daha qurtara bilməyəcəksən.

M i n d i l l i. Qorxmuram, sizin öz yaxanız əldədir. Demək məni, yaxın dostunuzu tənqid eləməyə başlamısınız? Çox gözəl. Mən də keçirəm bu dəqiqədən tənqidə. Hanı iclas? Dayan, gör sənə neyləyəcəyəm! Mənə bu saat bir odlu iclas lazımdır. (*Çıxır*)

C a m a l. Necə oldu ki, bu vaxta qədər mən buna inandım. (*Gedir*)

Camal gedən kimi M i n d i l l i tez qayıdır.

M i n d i l l i. Onun canı bu kağızlardadır, bunları ələ keçirsəm, o, məhkəmə qarşısında oturacaq, mən də şahid olacağam. Heyf ki, qanun bərkiyib. Heç bir şey çıxarmağa qoymurlar. Yoxsa çatmayan taxtaların hamısını yıxardım onun üstünə. (*Şkafı axtarır*)

Z ə r i f ə daxil olur.

Z ə r i f ə. Sən yenə buradasan? Neyləyirsən?

M i n d i l l i. Hə?.. Çıxışa hazırlaşıram, tənqid eləyəcəyəm.

Z ə r i f ə. Kimi tənqid eləyəcəksən?

M i n d i l l i. Hamını, od olub dünyanı yandıracağam! Mane olma. Axırını fikirləşirəm. (*Çıxır*)

Z ə r i f ə (*onun arxasınca*). Görəsən, bu kəllənin içində nə var? Mən imtahana canlı kəllənin üstündə hazırlaşacağam.

Zərifə onun getdiyi tərəfə gedir. Q a s ı m gəlir.

Q a s ı m (*çağırır*). Mindilli, Mindilli, Mindilov!

M i n d i l l i (*qayıdır*). Nə var, nə çığırırsan? Bu Zərifədən quyruğumu qurtara bilmirəm ki.

Q a s ı m. Gəl bəri, sözüm var. Əmrin surətini aldım. Deyirlər, Camal gəlib, gedim ondan bir tərcümeyi-hal alım, birbaş Bakıya... Haradadır?

M i n d i l l i. Əlaqəmiz pozuldu. Mən keçdim tənqid cəbhəsinə. İclas axtarıram.

Q a s ı m. Axmaq olma. Səndən tənqidçi çıxmaz. Yaxşısı budur mənə vəd elədiyin ağ kağızı ver, bir də bu zəhrimara bir möhür vurdur.

M i n d i l l i. Görüm, nə kağızdır? Diplom? Necə-necə? Qırx altıncı ildə institut bitirmisən?

Q a s ı m. Hə, ancaq möhür vurmaq yadlarından çıxıb. Elə vur ki, aydın düşməsin.

M i n d i l l i. Bəs, Qasım, mən bilən sən qırx altıncı ildə bir az kefsiz kimi idin. Yadındadır?

Q a s ı m. Uzatma, vaxt qiymətlidir.

M i n d i l l i. Elə o da qiymət üstündə olmuşdu da... Qiymətini qaldırıb qədərini çoxaltmışdın. Yəqin institutu elə o vaxtlarda, kamerada bitirmisən.

Q a s ı m. Bura bax, Mindilli, zarafat vaxtı deyil.

M i n d i l l i. Zarafatı sən eləyirsən, mən yox. Bizə bu saat qara kağız verirlər, son ağ kağız axtarırsan. Mən təhvil verirəm, sən məndən mühəndislik diplomu almaq istəyirsən. Professor-zad deyiləm ki!

Q a s ı m. Sən professorlara dərs deyə bilərsən. Ancaq onu da bil ki, mən hər deyənə də təslim olan deyiləm. Bu diplom heç mənə lazım deyil. Mən diplomsuz mühəndisəm. Bu əmri dəyişməyə mən o xanımı məcbur eləməsəm, bu qaşları qırxdıraram. Qaldı ki, sən daha bir də mən işləyən idarələrə hərlənmə, yoxsa üyüdüb un eləyərəm... (*Əlbəyaxa olurlar, tez ayrılırlar*) Sənə əl bulaşdırmaq istəmirəm, daha vacib işlərim var.

M i n d i l l i. Ömründə bir dəfə səmimi danış. Hara, eşidirsən?

Q a s ı m. Maymaq adamlar o qədərdir ki, birisinin kölgəsinə sığınacağam.

Onlar getmək istədikdə C a m a l içəri girir.

C a m a l. Qasım, dayan. Bakıda nazirlikdə sənin saxta sçotlarını mənə göstərdilər, indi bu işləri pərdələmək üçün ərizəbazlıq eləyirsən, alçaq!

B ə n ö v ş ə gəlir.

Q a s ı m. Mənə qara yaxma, Camal. Özün dolaşmısan, namuslu adamları da özünlə bərabər dolaşdırma.

B ə n ö v ş ə. Namus barədə danışmağa nə sənin haqqın var, nə də dostunun. (*Mindillini göstərir*)

M i n d i l l i. Məni o siyahıdan çıxardın, yoldaş Bənövşə. Mən bu saat tənqidlə məşğulam. Tənqidçi dost-most tanımaz.

B ə n ö v ş ə. Gördüyünüz işlərə görə orada cavab verəcəksiniz -- məhkəmədə.

Q a s ı m. Mən məhkəmələrdən keçib gəlmişəm. Elə hədələrdən gözüm qorxmur. Bura, sənin hüzuruna, Bənövşə xanım, otuz nəfərlik bir komissiya ilə qayıtmasam, bu qaşları qırxdıraram. (*Çıxır*)

M i n d i l l i. Çox kobud adamdır. Qadınla rəftar etməyin də qaydasını bilmir. Tərbiyəsi elə olub, onu öyrədənlər var. Nə vaxt iclas çağıracaqsınız, yoldaş Bənövşə? Mənə bərk lazımdır.

B ə n ö v ş ə. Siz, vətəndaş Mindilov, gedin işinizi təhvil verin, daha bəsdir.

M i n d i l l i. Xəstəyəm, bülletendəyəm, ancaq sizin bircə əmriniz mənimçün yüz penisillin iynəsindən təsirlidir. Sizinçün başımdan keçərəm. (*Camalı göstərir*) Amma onun üçün yox. (*Gedir*)

B ə n ö v ş ə (*gülə-gülə*). Sənin sağ əlin getdi, Camal.

C a m a l. O doğrudan da mənim sağ əlim olsaydı, kəsib atardım.

Bu halda C e y r a n x a l a, Q ə m ə r, Y u s i f gəlirlər.

C e y r a n x a l a. Bənövşə, Qəmər yenə də bizi atıb gedir.

B ə n ö v ş ə (*onlara baxır, Qəmərin Yusiflə yan-yana duyandığını görüb gülümsünür*). Bu cür getməyin eybi yoxdur, anacan!

Z ə r i f ə qaça-qaça səhnəyə gəlir.

Z ə r i f ə. *Mindilli uçdu... Mindilli uçdu.*

B ə n ö v ş ə. Nə olub, Zərifə?

M i r z ə S a l m a n tələsik səhnəyə çıxır.

Z ə r i f ə. Mindilli uçdu.

M i r z ə S a l m a n. Deməli, uçdu? Hansı şəhərə uçduğu məlum olmadı?

Z ə r i f ə (*gülür*). Şəhər nədir? Yerə uçdu! Taxtaların altı çürük imiş, ancaq hamısını sağ taxta əvəzinə təhvil vermək istəyirmiş. Ölçmək üçün üstünə çıxanda, altındakılar davam gətirmədi. Mindilli kəllə-mayallaq getdi.

B ə n ö v ş ə. Sonra nə oldu?

Z ə r i f ə. Heç *bir şey*. Təcili yardıma zəng etməyə qoymadı, qaçmaq istəyirdi, prokuror gəlib tutdu.

M i r z ə S a l m a n. Hə, çox gözəl, deməli, quş uça bilmədi. Bəs Qasım?

Z ə r i f ə. Onu da apardılar.

Hamı gülür.

Y u s i f. Qəmər xanımın da adından, öz adımdan da xahiş edirəm, buyurun, bizim təzə evimizə. Burada bizə təzə mənzil veriblər. Mirzə, qabağa düşün!

M i r z ə S a l m a n (*Camal ilə Bənövşəyə*). Siz də gəlin. Bənövşə, yenə də qabağa düş, yol göstər. Nişanlı qızın qədəmləri yüngüldür.

P ə r d ə

1953

KİTABDAKILAR

Yeni dövrün satirası 4

PYESLƏR

Toy 21
Xoşbəxtlər 91
Aşnalar 165
Nişanlı qız 226

SABİT RƏHMAN

SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

I CİLD

"AVRASİYA PRESS"
BAKI-2005

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Mübariz Piriyev*

Kompyuter səhifələyicisi: *Azər Quliyev*

Korrektor : *Rəhilə Quliyeva*

Yığılmağa verilib 28.11.2004. Çapa imzalanıb 17.06.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 19,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 155.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.